**HƏVVA ABDULLAYEVA**
**İRADƏ ƏFƏNDİYEVA**
**MƏLAHƏT ƏLƏSGƏROVA**

# AZƏRBAYCAN DİLİ 5

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
"Azərbaycan dili" (dövlət dili kimi)
fənni üzrə dərslik

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin
24.05.2016-cı il tarixli 354 nömrəli
əmri ilə təsdiq olunmuşdur.*

**"KÖVSƏR" NƏŞRİYYATI**
**BAKI – 2016**

Çap üçün deyil

**Dərslikdə istifadə olunmuş şərti işarələr:**

| | |
|---|---|
| * | – üzərində iş aparılacaq sözləri fərqləndirir |
| .. | – çalışmaların mətnində buraxılmış hərf və ya şəkilçinin yerində işlənir |
| – | – çalışmaların mətnində buraxılmış sözlərin yerində işlənir |
| ✉ | – tapmacalara işarə edir |

---

**H. ABDULLAYEVA, İ. ƏFƏNDİYEVA, M. ƏLƏSGƏROVA**

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
"Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə dərslik.
Bakı, "KÖVSƏR" nəşriyyatı, 2016, 160 səh.

Dərsliklə bağlı rəy, irad və təkliflərin **kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az** elektron ünvanlara göndərilməsi xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978 – 9952 – 8024 – 3 – 6

© - Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2016

Çap üçün deyil



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Çap üçün deyil

Çap üçün deyil

# § 1. BİRİNCİ DƏRS



Səməd beşinci sinifdə oxuyur. O, məktəbə getdiyi ilk günü belə xatırlayır:

Hələ sentyabr ayı gəlməmiş, hələ məktəblərdə dərslər başlamamış Səmədgilin evində dərsə hazırlıq başlamışdı. Valideynləri deyərdilər:

– Savadsız adamdan kor yaxşıdır!

Səmədi oxutmaq ata-anasının ən böyük arzusu idi. Ata-anasının bu arzusu Səmədin də ürəyində kök salmışdı. Səmədin xəyalında məktəbdən gözəl, məktəbdən işıqlı yer yox idi. Buna görə də sentyabrın on beşini səbirsizliklə gözləyirdi.

Səməd hər gün iki-üç dəfə çantasını yoxlayırdı. Kitab-dəftərin yerində olduğunu görüb rahat olurdu. Ona görə yoxlayırdı ki, o, evdəki beş uşaqdan ən böyüyü idi. Qorxurdu özündən iki yaş kiçik qardaşı və ya bir yaş kiçik bacısı o yatanda çantanı götürüb açar, dəftər-kitabı cırar, çirkləndirər. Çünki onlar Səmədin çantasına, dəftər-kitabına çox həsrətlə baxırdılar. Səməd hiss edirdi ki, bu şeylər alınan gündən o, qardaşının və bacısının gözündə böyüyüb. Belə ki, qardaşı çantaya yaxın gedəndə Səməd deyirdi:

– Əl vurma. Çirkləndirərsən, gərək məktəbli uşağın kitabı, paltarı təmiz olsun.

Qardaşı o saat Səmədin üzünə baxıb geri çəkilirdi.

Nəhayət, sentyabrın on beşi gəlib çatdı. Məktəbin həyəti və dəhlizi uşaqlarla dolu idi. Burada həm Səməd kimi birinci dəfə məktəbə gələnlər, həm də yuxarı siniflərdə oxuyanlar vardı. Uşaqlar ucadan danışır, həyətdə oynaşır, dəhlizdə gəzib söhbət edirdilər.

Səməd məktəbdə heç kimi tanımırdı. Buna baxmayaraq, ürəyi sevinclə dolmuşdu.

Zəng oldu. Uşaqlar hay-küylə siniflərə doluşmağa başladılar. Tez hərə özünə bir yer tutdu. Səməd də oturdu. Dirsəyini partaya söykədi, çənəsini ovcunun içinə qoyub fikrə getdi. Ürək döyüntüsü ilə müəllimin gəlməsini, birinci dərsin başlanmasını gözlədi. Bu anda Səmədə elə gəldi ki, dünyada

Çap üçün deyil

ən xoşbəxt adamdır. Birinci dərs! Bu dəqiqəni o nə qədər gözləmişdi!

Qapı açıldı və ortaboylu bir müəllim içəri girdi. Uşaqların hamısı ayağa durdu. Səməd də durdu. Ancaq bu, sanki mexaniki bir hərəkət idi. Çünki onun bütün fikri müəllimdə idi. Müəllimin üz-gözü, yerişi, hərəkətləri şəkil kimi hafizəsində həkk olub qalırdı. Səmədə elə gəldi ki, hələ indiyəcən bu qədər xoşsifət, bu qədər mehriban və gözəl adam görməyib.

Səməd diqqətlə qulaq asırdı. Müəllimin bütün dediklərini başa düşməsə də, onun təmiz və aydın danışığı qulağını oxşayırdı. Hələ heç zaman, heç yerdə belə şirin, belə gözəl sözlər eşitməmişdi.

**Mirzə İbrahimov**

## SÖZLÜK

həsrətlə – с ожиданием
dəhliz – коридор
dirsək – локоть
çənə – челюсть
ovuc – ладонь
ortaboylu – среднего роста
hafizə – память
xoşsifət – с приятным лицом, миловидный
aydın danışıq – ясная речь

## SÖZ EHTİYATI

ürəyində kök salmaq – пустить корни, глубоко осесть
gözündə böyümək – вырасти в глазах
ürəyi sevinclə dolmaq – сердце переполняется радостью
həkk olub qalmaq – запечатлеться, запоминаться
qulağı oxşamaq – здесь: приятно слушать

**1.** Mətndə aşağıdakı suallardan hansına cavab tapmadınız?
1) Səmədgilin evində dərsə hazırlıq nə vaxt başlamışdı?
2) Səməd sentyabrın on beşini niyə səbirsizliklə gözləyirdi?
3) Səməd niyə çantasını tez-tez yoxlayırdı?
4) Səmədgilin sinfində neçə şagird var idi?
5) Səməd kimlə dostluq edirdi?
6) Səməd müəllimin gəlməsini gözləyərkən hansı hisləri keçirirdi?

**2.** Mətni aşağıdakı plan əsasında danışmaq olarmı? Ardıcıllığı bərpa edin.
1) Müəllimin gəlişi.
2) Ata-ananın arzusu.
3) Səmədin narahatlığı.
4) Sentyabrın on beşi.
5) Məktəbə hazırlıq.
6) Birinci dərs.

Çap üçün deyil

**3.** Düzgün olmayan cavabları səsləndirin.

Səməd hər gün iki-üç dəfə çantasını yoxlayırdı, çünki ...

A) qorxurdu ki, onu oğurlayarlar.
B) məktəb üçün çox darıxırdı.
C) qorxurdu ki, özündən kiçik qardaşı və ya bacısı kitab-dəftəri götürüb cırar, çirkləndirər.
D) kitab-dəftərin yerində olduğunu görüb rahat olurdu.

**4.** Mətndə qırmızı, göy və yaşıl rəngdə verilmiş sözləri ayrı-ayrı sütunlarda yazın. Bu sözləri ayrı-ayrı sütunlarda yazmağınızın səbəbini izah edin.

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Savadsız adam kor kimidir.
Hər oxuyan Molla Pənah olmaz.
Qələm əyri yonulsa da, düz yazar.

**5.** Mətndə altından xətt çəkilmiş sözlərə sual verin, sonra isə onları kök və şəkilçiyə ayırıb yazın. Necə düşünürsünüz, bu şəkilçilərdən hansı artırıldığı sözün mənasını dəyişə bilib?

**6.** "Səmədi oxutmaq ata-anasının ən böyük arzusu idi" cümləsində fərqləndirilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olar?
a) istək b) dilək c) ümid d) xəyal e) amal

**7.** Mətndən kim?, nə?, hara?, necə?, nə edir? suallarına cavab verən sözlər seçib müvafiq sütunlarda yazın.
kim? nə? hara? necə? nə edir?

**8.** Cümlələri Azərbaycan dilinə tərcümə edin.

1) Самед каждый день проверял сумку по два-три раза. 2) Дети громко говорили, играли во дворе, беседовали гуляя по коридору. 3) Дети шумно вошли в классы. 4) Дверь открылась и в класс вошел учитель среднего роста. 5) Самед слушал внимательно.

**9.** "Sevimli məktəb" şeirini oxuyun, xoşunuza gələn hissəni əzbərləyin.

Çap üçün deyil

## SEVİMLİ MƏKTƏB

Günəşin şəfəqində
Yuyunanda çöl-çəmən,
Xoş ətrini yayanda
Hər yana gül-yasəmən,
Dincəldik biz fərəhlə
Qoynunda ağ günlərin.
Bu yerin dağı-düzü ...
Əlvan mənzərəsiylə
Oxşadı qəlbimizi.
Ana məktəb, indi də

Gəlirik, aç qoynunu.
Bağrına bas yenə sən
Öz qızını, oğlunu!
Fərəh dolu günlərdən
Yeni qüvvət alaraq,
Dönürük biz yanına
Alnı açıq, üzü ağ.
Arzumuzu bilirsən;
Ucalt, sevimli məktəb,
Bir pillə də bizi sən.

**Hikmət Ziya**

**SÖZLÜK**

fərəhlə – с радостью
dönmək – здесь: возвращаться
ucaltmaq – возвышать

**SÖZ EHTİYATI**

qəlbi oxşamaq – нравиться
bağrına basmaq – обнять
qoynunu açmaq – раскрыть объятия
alnı açıq, üzü ağ – с высоко поднятой головой
fərəh dolu günlər – дни полные радости
qüvvət almaq – получать силу

**10.** Şeirdəki əsas fikri müəyyənləşdirin.

**11.** Aşağıdakı suallar əsasında danışın:
1) Yay tətilini harada və necə keçirdiniz?
2) Məktəb və yoldaşlarınız üçün darıxdınızmı?
3) Yay istirahətindən razı qaldınızmı?
4) Məktəbə hansı arzularla döndünüz?

**12.** Şeirdə yaşıl rəngdə verilmiş sözün **sinonimini** cümlələrdə işlədin.

**13.** Şeirdə göy rəngdə verilmiş ifadəni aşağıdakılardan hansı ilə əvəz etmək olar?

a) əzizləmək b) qucaqlamaq c) qarşılamaq d) sığallamaq

Çap üçün deyil

## GÜLƏK VƏ DÜŞÜNƏK

**14.** Lətifəni oxuyun və oradakı əsas fikri müəyyənləşdirin.

### Qoy başına, oxu görək



Kəndlilərdən biri başqa şəhərdə olan qohumlarından bir məktub alır. Tez axtarıb mollanı tapır. Oxumaq üçün məktubu ona verir.

Molla baxır ki, məktub çox qarma-qarışıq yazılıb, kəndlini başından eləmək üçün deyir:

– Sən bir ayrı adam tap, bunu oxusun.

Kəndli deyir: – Yox, Molla əmi, əl çəkəsi deyiləm, gərək oxuyasan.

Molla deyir: – Əvvələn, mən farsca bilmirəm; ikinci, bu məktub türkcə yazılıb; üçüncüsü də elə-belə oxuya bilmirəm.

Kəndli hirslənir: – Yaxşı, farsı bilmirsən, türkü bilmirsən, oxuya da bilmirsən, daha dəyirman daşı boyda əmmaməni başına niyə qoymusan?

Molla: – Əgər əmmamə ilə oxumaq olarsa, buyur, qoy başına, bircə kəlmə oxu görək.

**SÖZLÜK**

qarma-qarışıq – здесь:запутанно
dəyirman – мелница
əmmamə – тюрбан, чалма

**SÖZ EHTİYATI**

başından eləmək – отделаться
əl çəkmək – оставить в покое

Çap üçün deyil

**TAP GÖRƏK**

**15.** Hazırcavablığınızı göstərin və tapmacanın cavabını tapın.

Mənim beş qardaşım var:
Biri hər gün danışar,
İkisi qulaq asar,
İkisi durub baxar. ✉

## § 2. MÜƏLLİMİN SEVİNCİ

Səhhət məktəbə qayıtdı. Dərs bitmək* üzrə idi. Sabirin səsi eşidilirdi:

– Hacıbaba, oğul, indi yazdığını üzündən oxu...

Şagird oxuyub qurtaranda müəllim dedi:

– Hə, balalarım, bax gələn dərsimizdə həmin bu şeiri sizdən əzbər soruşacağam. Unutmayın*. İndi daha gedə bilərsiniz.

Uşaqlar yerlərindən qalxdılar. Hər biri ayrılıqda müəllimlə vidalaşırdı. Uşaqlar ön* otağa çıxanda Mirzə Abbasqulunu görüb səslərini xırp kəsdilər. Hamısı onu tanıyırdı. Müəllimləri də bir az bundan əvvəl Səhhəti tərifləmişdi. Uşaqlar ehtiramla salamlaşıb bir-bir, iki-bir məktəbi tərk etdilər. Ən axırda sinif otağından müəllim özü çıxdı; üzündə fərəhdən doğan bir rahatlıq var idi. Səhhəti görüncə gülümsünüb ona tərəf gəldi:

– Bay, xoş gəlmisən, Mirzə!..

– Sağ ol.

Səhhət Sabirin üzündəki razılıq ifadəsini görüb soruşdu:

– Hə, deyəsən, xoş xəbər var?

– Bu gün bir az bəxtiyaram...

– Gözəl şeydi. De, mən də səninlə bölüşüm* o bəxtiyarlığı...

– Əslində elə bir şey olmayıb. Şagirdlərimdən Ələsgər oğlu Hacıbaba...

– Hə, dostumuz Əşrəfin qardaşı?

– Bəli, bu gün yazıb mizin üstünə bir şey qoyub. Açıb baxıram yazıb:

Qorxdu, dönübən oldu,
Şeybani bizim Hophop...

Səhhət gülümsədi:

– Gözəl yazıb.

– Bəli, qabiliyyətli uşaqdı. Bu məni sevindirir. Deməli, deyəsən, əməyimiz* faydasız deyil.

**Əzizə Cəfərzadə**

Çap üçün deyil

**SÖZLÜK**

ehtiramla – с уважением
bəxtiyar – счастливый
bölüşmək – делиться

**SÖZ EHTİYATI**

tərk etmək – покинуть
miz – стол

**1.** Mətndəki əsas fikri müəyyənləşdirin. Bəs siz əməyinizin necə fayda verəcəyi barədə düşünürsünüzmü?

**2.** Şagirdin yazdığı misralardakı "Hophop" kimdir və onun haqqında nə bilirsiniz? Bildiklərinizi yoldaşlarınızla bölüşün.

**3.** Mətndə adı çəkilən Səhhəti aşağı siniflərdə öyrəndiyiniz hansı şeirləri ilə tanıyırsınız? Həmin şeirlərdən yadınızda qalanları söyləyin.

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Ağıl yaşda olmaz, başda olar.
Ağıl ağıldan üstün olar.

**4.** Mətnin məzmununa əsasən düzgün cavabları müəyyənləşdirin.
Müəllimin üzündəki rahatlıq ifadəsinin səbəbi nə idi?
1) Dostu Səhhət onun yanına gəlmişdi.
2) Şagirdlərindən birinin yazdığı misralar müəllimin xoşuna gəlmişdi.
3) Müəllim çəkilən əməyin faydasız olmadığına inanmışdı.
4) Şagirdləri şeiri yaxşı əzbərləmişdilər.

**5.** Mətndə göy rəngdə verilmiş sözlərin hamısını hansı əlamətə görə bir sütunda yazmaq olar? Fikirlərinizi əsaslandırın.

**6.** Mətnin sonunda işlənmiş "qabiliyyətli" sözünü aşağıdakılardan hansı ilə əvəz etmək olar?
a) işgüzar b) bacarıqlı c) istedadlı d) qoçaq

**7.** Mətndə göy rəngdə verilmiş sözləri kök və şəkilçiyə ayırıb yazın.

**8.** Mətndə göy rəngdə verilmiş sözləri dəftərinizə yazın və qarşısında suallarını qeyd edin.

**9.** Mətndə yaşıl rəngdə verilmiş sözün əvəzinə aşağıdakılardan hansını işlətmək olar?
a) diqqətlə b) nəzakətlə c) hörmətlə d) mehribanlıqla

Çap üçün deyil

**10.** Mətndə qırmızı rəngdə verilmiş sözləri dəftərinizə yazın və qarşılarında düzgün tələffüzünü qeyd edin.

**11.** Birləşmələri Azərbaycan dilinə tərcümə edin və dəftərinizə yazın.

войдя в переднюю комнату, чуть раньше, увидев Саххата, выражение согласия, брат нашего друга Ашрафа, способный ребенок

## SEVİRİK SƏNİ BİZ

Dəryalardan dərindir,
Qəlbimdə məhəbbətin.
Hədər getməyəcəkdir
Bil ki, sənin zəhmətin.

Sən öyrətdin bizlərə
Həyatın hər sirrini,
Baldan da şirin-şəkər
Anamızın dilini.

Sənin gözünlə baxdıq
Bu işıqlı cahana,
Bildik necə əzizdir –
Vətən, azadlıq, ana!

Sevirik, inan səni
Müqəddəs anamıztək.
Müəllimə töhfədir
Bu şeir, bu gül-çiçək.

**Qiymət Məhərrəmli**

**12.** Şeiri oxuyun, əzbərləyin.

**SÖZLÜK**

dərya – океан, море
qəlb – душа
töhfə – подарок

**SÖZ EHTİYATI**

hədər getmək – не пройти даром
cahan – мир

**13.** Məktəbin insan həyatındakı rolu şeirdə necə izah edilir? Öz sözlərinizlə danışın.

**14.** "Hədər getməyəcəkdir
Bil ki, sənin zəhmətin" misraları ilə şair nə demək istəyir?

**15.** Aşağıdakılardan hansı "cahan" sözünün sinonimi deyil?
a) dünya b) aləm c) kainat d) müqəddəs

**16.** Şeirdə yaşıl və qırmızı rəngdə verilmiş sözləri ayrı-ayrı sütunlarda yazın və qarşılarında suallarını qeyd edin.

Çap üçün deyil

## BUNLARI BİLİRSİNİZMİ?

Dilimizdə işlətdiyimiz sözlərin bəziləri əşyaları – *Qarabağ, Günay, ağac, pencək* ..., bəziləri əlaməti – *yaşıl, böyük, ağıllı* ..., bəziləri hərəkəti – *dincəlir, ütüləyir, oxuyur* ..., bəziləri miqdarı – *əlli, səkkiz, çoxlu* ... və s. ifadə edir. Sözlərin belə qrupları **nitq hissələri** adlanır.

**17.** Aşağıdakı birləşmələri yazılı şəkildə Azərbaycan dilinə tərcümə edin və üçünü cümlələrdə işlədin.

моя душа, моя любовь, твоя любовь, твой труд, твое слово, язык нашей матери, секрет жизни, наша святая мама, аромат цветов

## § 3. ƏSL HƏQİQƏT

İki gündən sonra yenə yazı dərsi idi. Ceyran müəllim dəftərləri uşaqlara payladı. Ancaq qəribə idi. İlahənin dəftəri yoxdu. Qız sakitcə oturub təəccüblə müəllimə baxırdı. Müəllim də İlahənin hərəkətlərinə göz qoyurdu. İlahə soruşmaq istədi. Lakin müəllimin qaşqabaqlı olduğunu görüb danışmadı. Müəllim üzünü İlahəyə tutub dedi:

– İlahə, bəs sənin dəftərin hanı? Niyə öz dəftərini soruşmursan?

İlahə ayağa qalxdı və utana-utana dedi:

– Müəllim, soruşmaq istəyirdim ... ancaq ...

Ceyran müəllim sinif jurnalının altından bir dəftər çıxarıb stolun üstünə qoydu:

– Sənin də dəftərin məndədir. Ancaq heç inanmıram ki, bu yazını sən yazmış olasan! Hərflərin hərəsi bir tərəfə gedib.

İlahə başını qaldırıb müəllimin üzünə baxmağa utanırdı.

Müəllim dəftərdə qırmızı qələmlə altından xətt çəkdiyi sözlərə baxıb deyirdi:

– Çox səliqəsiz yazmısan. Əvvəlki yazılarınla bunun arasında gör nə qədər fərq var. Belə niyə? Yazanda niyə diqqətli olmamısan?

İlahə dinmirdi. Ceyhun da başını aşağı dikmişdi. Həyəcan keçirirdi. Ona elə gəlirdi ki, indicə İlahə hər şeyi açıb müəllimə deyəcəkdir. İlahə isə ayaq üstə dinməzcə dururdu.

Axırda Ceyran müəllim dəftəri İlahəyə verib dedi: – Bu dəfə səliqəli ol!

İlahə özünü ağlamaqdan güclə saxlayırdı. Gözləri dolmuşdu. Dodaqları əsirdi ...

Birdən Zərifə əlini qaldırıb dedi: – Müəllim, mən bilirəm İlahə niyə pis yazıb.

– Sən hardan bilirsən? De görüm!

Zərifə Ceyhuna baxıb cavab verdi: – Ceyhun onu yazmağa qoymadı.

Çap üçün deyil

Müəllimin qaşları çatıldı: – Necə yəni Ceyhun qoymadı?

– Dirsəyi ilə onu vururdu.

Müəllim eynəyini gözündən çıxarıb stolun üstünə qoydu. Uşaqlar müəllimin həyəcanlandığını başa düşdülər.



O gəlib lap Ceyhunun yanında durdu: – Ceyhun, Zərifə düz deyir?

Ceyhun cavab vermədi.

– Niyə cavab vermirsən, nə üçün ona mane olmusan?

– Müəllim, mən deyim? – Zərifə yenə əlini qaldırdı. – Müəllim, İlahə sanitar olanda onun adını yazıb sizə vermişdi. Buna görə də Ceyhun qolunu İlahənin qoluna toxundurdu.

Müəllim sinifdə gəzişdi. Məsələ ciddi idi. Sinifdə oğlanlarla qızlar arasında hələ də dostluq yaradılmamışdı. Təcrübəli müəllimi bu məsələ ciddi düşündürdü ...

**Xalidə Hasilova**

**SÖZLÜK**

qaşqabaqlı – угрюмый
səliqəsiz – неопрятный
неаккуратный
dinməzcə – тихонько
gəzişmək – прогуливаться
mane olmaq – мешать

**SÖZ EHTİYATI**

göz qoymaq – следить
başını aşağı dikmək – опустить голову вниз
həyəcan keçirmək – волноваться
qaşları çatılmaq – здесь: задуматься
gözləri dolmaq – прослезиться
özünü güclə saxlamaq – еле сдерживаться

**1.** Mətndən çıxardığınız nəticə barəsində danışın.

Çap üçün deyil

***NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN***

***Öz adına layiq işlər gör ki, sən***
***Axırda utanma xəcalətindən.***

**2.** Mətnin məzmununu aşağıdakı plan əsasında danışmaq olarmı? Özünüzü yoxlayın.

1) Yazı dərsi.
2) İlahənin dəftəri.
3) Ceyhunun həyəcan keçirməsi.
4) Müəllimin İlahəyə xəbərdarlığı.
5) Zərifənin müəllimə müraciəti.
6) Müəllimin narahatlığı.

**3.** Mətnin məzmunu əsasında düzgün cavabı müəyyənləşdirin.
**İlahə niyə müəllimin üzünə baxmağa utanırdı?**
A) Çünki o, müəllimə yalan danışmışdı.
B) Çünki o, yazısını çox səliqəsiz yazmışdı.
C) Çünki o, yazısını yazmamışdı.
D) Çünki o, yazını Ceyhundan köçürmüşdü.

**4.** Mətnin məzmununa əsasən yanlış variantları səsləndirin.
**Ceyhun həyəcan keçirirdi, çünki ...**
A) müəllimdən qorxurdu.
B) İlahənin həqiqəti müəllimə söyləyəcəyindən ehtiyat edirdi.
C) sinif yoldaşlarının həqiqəti bilməsini istəmirdi.
D) səhv hərəkət etdiyini başa düşmüşdü.

**5.** Zərifənin həqiqəti söyləməsinə haqq qazandırırsınızmı? Debata qoşulun və fikirlərinizi əsaslandırın.

**6.** Mətnin məzmununa əsasən düzgün cavabı müəyyənləşdirin:
**Zərifəni həqiqəti söyləməyə nə vadar etdi?**
A) Ceyhunun İlahənin qoluna toxunduğunu Zərifə görmüşdü.
B) İlahənin həqiqəti söyləməyəcəyini gördükdə, o dözmədi.
C) Zərifə həqiqəti deməsə, özünü bağışlaya bilməzdi.
D) Zərifənin Ceyhundan xoşu gəlmirdi.
E) İlahə Zərifənin rəfiqəsi idi.

Çap üçün deyil

**7.** Mətndə qırmızı rənglə verilmiş sözlərin içərisindən kim? və nə? suallarına cavab verənləri seçib ayrı-ayrı sütunlarda yazın.

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində əşyanın adını bildirən sözlər **isim** adlanır. İsimlər kim?, nə?, hara? suallarından birinə cavab verir.

Siz artıq bilirsiniz ki, dilimizdə yalnız insan anlayışı bildirən sözlər kim? sualına cavab verir. Digər canlıları və cansız varlıqları adlandıran sözlər nə?, yer bildirən sözlər isə hara? sualına cavab verir.

**8.** Mətndə altından xətt çəkilmiş sözləri kök və şəkilçiyə ayırıb yazın. Sözlərin hamısında eyni şəkilçinin altından xətt çəkin. Həmin sözlərin və köklərin mənaları üzərində müşahidə aparın.

**9.** Hər iki sütundan mənası uyğun gələn sözləri tapıb, qarşı-qarşıya yazın:

| | |
|---|---|
| göz qoymaq | dinməzcə |
| ayağa qalxmaq | zorla |
| üzünü tutmaq | təəccüblü |
| sakitcə | baxmaq |
| qəribə | durmaq |
| güclə | baxmaq |

**10.** Cümlələrin Azərbaycan dilinə tərcüməsi ilə bağlı səhvləri düzəldə bilərsinizmi? Diqqətli olun və özünüzü yoxlayın:

1) Девочка спокойно сидя с удивлением смотрела на учителя– Qız sakitcə oturub müəllimə baxırdı. 2) Увидев учителя сердитым Илаха ничего не сказала– İlahə müəllimin qaşqabaqlı olduğunu gördü. 3) Учителница Джейран достала из под классного журнала одну тетрадь– Ceyran müəllim jurnalın altından dəftər çıxardı. 4) Илаха с трудом сдерживала себя, чтобы не заплакать – İlahə özünü ağlamaqdan saxlayırdı.

**11.** Sinif iclasınızın vaxtını təyin edin və bu barədə elan yazın.

**12.** Şeiri oxuyun, oradakı əsas fikri müəyyənləşdirin, sonra məzmununu öz sözlərinizlə danışın.



Çap üçün deyil

# YOLDAŞLIQ KÖMƏYİ

Hər zaman şən, bəxtiyar,
Gülərüzlü Ənvərin
Gözlərindən bir dərin
Kədər duydu uşaqlar.
Sual verib yer-yerdən,
Soruşdular Ənvərdən:
– Nə var?
– Sənə nə olub?
– Nədəndir rəngin solub?
– Anam xəstədir bir az.
– Qorxma, heç bir şey olmaz.

– Qorxmuram, ancaq mənim
Vaxtım yox dərs öyrənim.
– Qorxma, anan sağalar
Dərsinçün də vaxt qalar.
Təsəlli verib Sərvər
Söylədi belə sözlər.
Lakin dinmədi Elman,
Məktəbdən çıxan zaman
Düz Ənvərgilə gəldi.
Kömək etdi Ənvərə
Danışmadı boş yerə.

**Mirmehdi Seyidzadə**

**SÖZLÜK**

gülərüzlü – приветливый
kədər – печаль

**SÖZ EHTİYATI**

təsəlli vermək – утешать

**13.** Sərvərin, yoxsa Elmanın hərəkətinə daha çox haqq qazandırırsınız? Siz necə hərəkət edərdiniz? Fikirlərinizi açıqlayın.

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Yaxşılıq elə, minnət qoyma!
Yaxşı dostu yaman gündə tanıyarlar.
Yoldaşın yaxşı olsa, uzun yol yaxın olar.
Hər şeyin təzəsi, dostun köhnəsi.

## GÜLƏK VƏ DÜŞÜNƏK

**14.** Lətifəni oxuyun və axırıncı cümlədəki fikirlə bağlı debat təşkil edin.

### Yaxşı tanımaq olur

Bir gün Molladan soruşdular:
– Molla, deyə bilərsənmi, bu saat, bu şəhərdə sənin neçə dostun var?
Molla deyir:
– Bu saat deyə bilmərəm. Çünki bu il taxılım yaxşı gəlib, kefim sazdır. Dostları əli aşağı olanda yaxşı tanımaq olur.

Çap üçün deyil

**SÖZ EHTİYATI**

əli aşağı olmaq – обеднеть
kefim sazdır – быть в хорошем настроении

**15.** Şeirdən kim? sualına cavab verən sözləri seçib yazın. Həmin sözlərə artırılan şəkilçilər bu sözlərin sualını dəyişirmi? Fikirlərinizi əsaslandırın.

***NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN***

***Dünyada çox iş var yoldaşdan aşar,***
***Yaman gündə çatır dada yoldaşlar.***

**16.** Aşağıdakı sözlərin mənalarını izah edin və aralarındakı münasibəti aydınlaşdırmağa çalışın.
dost – dostluq – dostlaşmaq – dostluq etmək – dost olmaq;
tanımaq – tanış – tanışlıq – tanış olmaq – tanış etmək;
kömək– köməkçi – köməkləşmək – kömək etmək – kömək olmaq;
yol – yolçu – yoldaş – yoldaşlıq – yoldaş olmaq – yoldaş etmək;
xəstə – xəstəxana – xəstələnmək – xəstə olmaq

**17.** Aşağıdakı atalar sözündə deyilən fikirlə razılaşırsınızmı? Debata qoşulun.

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Ağac bar verəndə başını aşağı dikər.

## BUNLARI BİLMƏK LAZIMDIR

**18.** Oxuyun və əməl edin:

**Ünsiyyət mədəniyyəti**

Görüş salamlaşmaqdan başlayır. Belə ifadə olunur: Salaməleyküm. Bu söz qarşıdakı adama xoş arzular diləməkdir. Mənası belədir: Sizə sülh, əmin-amanlıq arzulayıram! Cavabı belə verilir: Əleyküməssalam. Bunun da mənası – Mən də sizə sülh, əmin-amanlıq arzulayıram! – deməkdir.

Salam almamaq ədəbsizlikdir. Ona görə də salam verənin kimliyindən asılı olmayaraq, salamı almaq lazımdır.

Görüşəndə gülərüzlü olun, qarşınızdakı adamın üzünə təbəssümlə baxın. Təbəssüm ürək açır, könül oxşayır.

Çap üçün deyil

Bir məsələyə də diqqət vermək lazımdır: bəzən salam alan adam salam verənin dediyi sözü təkrar edir. Bu, düzgün deyil. **Unutmayın ki, salaməleykümün cavabı – əleykuməssalamdır.**

Qarşılaşdığınız adam istər böyük olsun, istərsə də kiçik, birinci siz salam verin. Çünki böyüklərə salam vermək hörmət, kiçiklərə salam vermək isə təvazökarlıqdır.

**SÖZLÜK**

dilәmәk – желать
ədəbsizlik – невежество
təbəssüm – улыбка
əmin-amanlıq – благополучие
təvazökarlıq – скромность
ünsiyyət – общение

**SÖZ EHTİYATI**

ürək açmaq – здес: радовать душу
könül oxşamaq – нравиться

## §4. AY AMAN!.. SEL APARDI!..



Cavidgilin evi çayın kənarında idi. O, uşaqlıqda boş vaxtlarını çayın kənarında keçirərdi. Uşaqlarla oynayar, isti havalarda çayda çimərdi.

Bir gün baharın əvvəllərində uşaqlar çayın sahilində oynayırdılar. Birdən Cavidin yanındakı uşaq dəhşətlə çığırdı: – Ay aman!.. Sel apardı!

Cavid bir göz qırpımında özünü çaya atır, çox çətinliklə uşağı selin ağzından alıb sahilə çıxarır.

Uşaqların hər ikisi bərk yorulmuşdu*. Az qala yarımcan olmuşdular. Çayda boğulan uşaq quşların, heyvanların, ağacların qənimi olan uşaq idi.

Çap üçün deyil

Bütün uşaqlar onların başına yığışmışdılar*.

Uşaqlar bir qədər dincəldikdən sonra yoldaşlarından biri Cavidin qulağına pıçıldayır.

– Hüseyn, sən nahaq bu qansızı selin ağzından aldın*, qoyaydın boğulaydı. Axı bu bizim düşmənimizdir.

Cavid qəzəblənib* üzünü həmin uşağa tutub deyir:

– Sən ondan da qansızsan. Mən onu heyvanlara, quşlara qarşı mehriban, ədalətli olmağa çağırırdım. Mən onu cəzalandırırdım. Lakin onun ölümünü heç zaman istəmərəm. Elə təbiət də onu cəzalandırmaq istəyirdi. Şükür ki, bu cəzadan o, ucuz qurtardı. Əgər mən onun ölümünü istəsəydim, elə sənin kimi qansız olardım. O, bir az küskün, bir az acıqlı, asta və yorğun addımlarla evlərinə doğru gedir.

Selin ağzından qurtulan uşaq günahkar kimi başını aşağı salıb Cavidin arxasınca gedir, onu kölgə kimi izləyirdi. Ona çatıb onunla yanaşı addımladı. Onlar heç nə danışmadılar. Gözləri bir-birinə sataşanda, ikisi də birdən qucaqlaşıb kövrəldilər.

**Mişkinaz Cavid**

## SÖZLÜK

sel – сель, поток
yarımcan olmaq – потерять силу
quşların qənimi – враг птиц
cəzalandırmaq – наказать
izləmək – следить
dəhşətlə – с ужасом
boğulmaq – тонуть
ədalətli – справедливый
küskün – обиженный
kövrəlmək – расчувствоваться

## SÖZ EHTİYATI

qansız – здесь: жестокий
bir göz qırpımında – в одно мгновение
ağzından almaq – здесь: спасать
ucuz qurtarmaq – легко отделаться
gözləri sataşmaq – посмотреть, заметить

**1.** Mətnin məzmunu əsasında aşağıdakı suallara cavab verin.

1) Cavidgilin evi harada idi?
2) Cavid özünü niyə çaya atır?
3) Cavidin xilas etdiyi uşaq necə uşaq idi?
4) Yoldaşlarından biri Cavidin qulağına nə pıçıldayır?
5) Cavid niyə qəzəblənir?
6) Selin ağzından qurtaran uşaq özünü necə apardı?

Çap üçün deyil

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Yaxşılıq yerdə qalmaz.    Keçənə güzəşt deyiblər!

**2.** Cavidin yerində olsaydınız, siz necə hərəkət edərdiniz? Fikirlərinizi əsaslandırın.

**3.** Mətnin məzmununa əsasən düzgün olmayan cavabları səsləndirin:
**Cavid suda boğulan uşağı niyə cəzalandırırdı?**
1) Çünki o, heyvanların, quşların qənimi idi.
2) Cavid o uşağı sevmirdi, onunla oynamaq istəmirdi.
3) Cavid onu heyvanlara, quşlara qarşı mehriban, ədalətli olmağa çağırırdı.
4) Çayda boğulan uşaq Cavidlə tez-tez dalaşırdı.

**4.** Cavidin xilas etdiyi uşaq niyə günahkar kimi onun arxasınca gedirdi? Fikirlərinizi əsaslandırın.

**5.** Cümlələrin tərcüməsində yol verilmiş səhvləri düzəldib köçürün:
1) В детстве свободное время он проводил возле речки – O, boş vaxtlarını çayın kənarında keçirərdi. 2) Оба ребенка сильно устали – Uşaqların hər ikisi yorulmuşdu. 3) Все дети собрались вокруг них – Uşaqlar onların başına yığışmışdılar.

***NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN***

***Yamanlıq etməkdən uzaq ol, uzaq,***
***Pisliyin əvəzi pislik olacaq.***
***Eşitməmişsənmi bu məşhur sözü:***
***"Quyu qazan adam düşəcək özü".***

**6.** Aforizmlərdəki fikirlərlə razılaşırsınızmı? Düşündüklərinizi söyləyin.

**7.** Mətndə üzərində ulduz işarəsi qoyulmuş söz və ifadələri dəftərinizə yazın. Onların əvəzinə mətndə aşağıdakılardan hansını işlətmək olarsa, qarşılarında qeyd edin.

**SÖZLƏR:** toplaşmaq, dostlaşmaq, əldən düşmək, mane olmaq, xilas etmək, acıqlanmaq, üşümək, hirslənmək, qurtarmaq, əl yetirmək

Çap üçün deyil

**8.** Mətndə altından xətt çəkilmiş sözləri köçürün və çoxluq bildirən hissəni müəyyənləşdirib altından xətt çəkin.

**9.** İfadələrin Azərbaycan dilindəki qarşılığını tapıb qarşısında yazın.

ребенок, который тонет в реке –
быть ласковым и справедливым –
тихими и усталыми шагами –
сильно устали –
обессилиться –
немного отдохнув –
преследовать как тень –

**KÖMƏKÇİ:** bərk yorulmuşdular, yarımcan olmuşdular, çayda boğulan uşaq, bir qədər dincəldikdən sonra, mehriban, ədalətli olmaq, kölgə kimi izləmək, asta və yorğun addımlarla

### BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində isimlər **təkdə** və **cəmdə** işlədilir. Sözləri cəm şəklində işlətmək üçün onlara **-lar, -lər** şəkilçilərindən biri artırılır. Məsələn: çiçək – çiçəklər, balıq – balıqlar, dəvə – dəvələr, pələng – pələnglər və s.

**10.** Hüseyn Cavidin "Qız məktəbində" şeirini oxuyun, sonra səhnələşdirin. Elə "Ay aman! Sel apardı!.." mətni də şairin uşaqlığından bir xatirədir.

## QIZ MƏKTƏBİNDƏ

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
– Pəki, sənin anan, baban varmı?
– Var.
– Necə, zənginmidir baban?
– Bəli, zəngin, bəyzadə…
– Elə isə geydiyin geyim neçin belə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma…
– Var, əfəndim, var… lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,

Çap üçün deyil

Bir qızın ancaq bilgidir, təmizlikdir zinəti.
– Çox doğru söz... Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söyləmisən?
– Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
– Sonra kimlər?
– Sonra onun göndərdiyi elçilər.
– Başqa sevdiklərin necə, yoxmu?
– Var…
– Kimdir onlar?
– Anam, babam, müəllimim, bir də bütün insanlar.

**Hüseyn Cavid**

**SÖZLÜK**

yavru – дитя
inci – жемчужина
bilərzik – браслет
elçi – здесь: посланник, пророк
pəki – хорошо
altun – золото
zinət – украшение

**SÖZ EHTİYATI**

sıxılmaq – здесь: стесняться
xəlq etmək – создать

**11.** Şeirdən çıxardığınız nəticə haqqında danışın. Gülbaharın düşüncələri ilə razılaşırsınızmı?

**12.** Şeirdə yaşıl rəngdə verilmiş sözlərin sinonimlərini tapıb sualları ilə birlikdə yazın.

**BUNLARI BİLMƏK LAZIMDIR**

**13.** Oxuyun və nəticə çıxarın.

**Ünsiyyət mədəniyyəti**

Rastlaşanda əvvəl salamlaşmaq, sonra söhbətə keçmək lazımdır. İkincisi, hay-küylə görüşməzlər. Bu, ətrafdakıların diqqətini cəlb edir. Həm də kənardan baxana xoş təsir bağışlamır. Üçüncüsü, ağız-ağıza öpüşməzlər, çünki bir adamda olan yoluxucu xəstəliklər ağız vasitəsilə başqalarına keçə bilər. Dördüncüsü, hörmət, səmimiyyət hay-küysüz olar. Hay-küy yalana daha çox oxşayır.

Çap üçün deyil

## GÜLƏK VƏ DÜŞÜNƏK

**14.** Lətifəni düzgün tələffüzlə oxuyun. Yadınızda qalanı danışın.

### Molla Nəsrəddinin oğlu



Deyirlər ki, günlərin birində Teymur Mollanın oğlunu saraya gətirtdirir. Baxır ki, uşaq lap atasına oxşayır. Fikirləşir ki, görəsən, uşaq sözdə-söhbətdə də atasına çəkib, ya yox? Çıxarıb ona bir qızıl bağışlayır. Mollanın oğlu qızılı əli ilə itələyir.

Teymur soruşur:

– Niyə almırsan?

Uşaq deyir:

– Anamdan qorxuram. O, mənə tapşırıb ki, küçədə tanımadığım əmilərdən pul almayım.

Teymur deyir:

– Ay sağ ol, ancaq mən ananın dediyi o əmilərdən deyiləm. Mən padşaham.

Uşaq: – Mən görürəm ki, sən padşahsan. Ancaq anam inanmaz ki, sən padşahsan.

Teymur: – Niyə inanmır?

Uşaq: – Ona görə inanmaz ki, padşah pul bağışlayanda bircə dənə bağışlamaz, çoxlu-çoxlu bağışlar.

**SÖZLÜK**

itələmək – толкнуть

**SÖZ EHTİYATI**

atasına çəkmək – быть похожим на отца

**15.** Lətifədə qırmızı rəngdə verilmiş sözlərin düzgün tələffüzünü öyrənin və özünüzdən belə misallar deyin.

**oxşa*yır – [oxşuyur]**
**bağışla*yır – [bağışdıyır]**
**itələ*yir – [itəliyir]**
**alma*yım – [almıyım]**

Çap üçün deyil

# § 5. VƏTƏN NƏDİR?

Bir gün Həsən baba Elşəni bağa aparmışdı. Baba öz tay-tuşu ilə söhbət edir, Elşən də uşaqlarla oynayırdı. Elşən qaça-qaça babasının yanına gəlib soruşdu:

– Baba, ay baba, Vətən nədir?

– Bu sözü hardan eşitmisən, kim deyib sənə?

Oradakı uşaqlar danışırdılar. Deyirdilər ki, Vətən müqəddəsdir. Heç nə başa düşmədim. Vətən nə olan şeydir?

Həsən baba çox fikirləşdi, fikirləşdi, axırda dedi: - Elşən, bizim evimiz var?

– Hə, baba, var.

– Evimizi nəyin üstündə tikiblər?

– Torpağın üstə, baba.

– Ay sağ ol, bu torpaq elə Vətən torpağıdır. Gördüyün bu evlərin hamısı vətən torpağı üstə tikilib. Deməli, yaşadığımız bu şəhərdə nə varsa, hamısı vətən torpağındadır. İndi oturduğumuz bağ da vətən torpağında salınıb.

– Baba, onda bu şəhər də bizim vətənimizdir.

– Oğlum, yaşadığımız bu şəhər bizim vətənimizin bir hissəsidir. Axı Vətənimiz böyükdür. Onun çoxlu şəhərləri, kəndləri var. Çölləri, düzləri, meşələri, dağları, əkin sahələri, biçənəkləri var.

– Baba, ay baba, çöldən də, meşədən də vətən olar?

– Niyə olmur, oğlum?

– Axı çöldə, meşədə adam yaşamır. Adam yaşamayan yer də heç vətən olarmı? Axı sən bayaq dedin ki, biz yaşadığımız yer vətəndir.

– Dedim, düzdür. Bax o çöllərimiz, bağlarımız, əkin sahələrimiz hamısı birlikdə vətən sayılır. Bizim Vətənimiz isə Azərbaycandır.

– Baba, onda biz də vətənin bir hissəsiyik? Bizə də vətən demək olar?

Nəvəsinin sözünə Həsən baba güldü:

– Bizə vətən yox, vətəndaş demək olar, oğlum.

– Baba, bəs vətəndaş nədir?

– Bu, çox böyük sözdür, oğlum. Vətəndaş bu vətənin sahibinə, ona cavabdeh olan adamlara deyirlər. Vətəndə yaşayıb onu sevən, qoruyan, ona qayğı göstərən, həyatını onun yolunda qurban verməyə hazır olan adamlara deyirlər.

– Baba, bayaq “xalq” dedin, bəs xalq nədir?

– Sən, mən, o, atan, anan, bacın, qardaşın. Bütün vətəndaşlara birlikdə xalq deyirlər. Bax, azərbaycanlıların hamısı birlikdə Azərbaycan xalqı

Çap üçün deyil

adlanır. Hər xalqın da öz vətəni, öz dili olur. Vətəni olan xalq hər şeyi yarada bilir. Buna görə də vətənə ana deyirlər, onu müqəddəs sayırlar.

– Baba, bəs müqəddəs nə deməkdir?

– Ən əziz şey, toxunulmaz şey müqəddəsdir. Onu nə satmaq olar, nə almaq, nə də başqasına bağışlamaq.

**Qaçay Köçərli**

## SÖZLÜK

tay-tuş – ровесник
biçənək – луг, сенокос
cavabdeh – ответственный
əkin sahəsi – посевной участок
bayaq – недавно
toxunulmaz – неприкасаемый

## SÖZ EHTİYATI

qayğı göstərmək – заботиться
qurban vermək – пожертвовать

**1.** Mətni rollar üzrə oxuyun, göy rəngdə verilmiş sözlərin tələffüzündə diqqətli olun.

**2.** Mətn üzrə suallara cavab verin.
1) Elşən vətən sözünü harda eşitmişdi?
2) Elşən babasından nəyi öyrənmək istəyirdi?
3) Babası Vətənin böyüklüyünü Elşənə necə izah etdi?
4) Həsən baba necə izah etdi: kimə vətəndaş deyirlər?
5) Elşəni daha hansı suallar maraqlandırırdı?

**3.** IV sinfdə B.Vahabzadənin "Vətəndaş" şeirini oxumuşdunuz. Bu şeir yadınızdadırmı? Unutmusunuzsa, təkrar oxuyun. Həsən babanın dediklərinə nə əlavə edə bilərsiniz?

**4.** Vətən niyə müqəddəs hesab olunur? Debata qoşulun və fikirlərinizi əsaslandırın. Nitqinizdə atalar sözlərindən istifadə edin.

## ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ

Gözsüz yaşamaq olar, vətənsiz yox.
Qürbət görməyən adam vətən qədri bilməz.

**5.** Vətən haqqında bildiyiniz atalar sözlərini söyləyin, yenilərini tapıb dəftərinizə yazın və öyrənin.



Çap üçün deyil

**6.** Cümlənin Azərbaycan dilinə tərcüməsi ilə bağlı düzgün cavab hansıdır?

**Сынок, город в котором мы живем, часть нашей Родины.**

A) Oğlum, yaşadığımız bu şəhər bizim vətənimizdir.
B) Oğlum, yaşadığımız bu şəhər bizim vətənimizin bir hissəsidir.
C) Oğlum, bu şəhər bizim vətənimizin bir hissəsidir.
D) Oğlum, bizim vətənimizin bir hissəsi elə bu şəhərdir.

**7.** Vətən haqqında əvvəlki siniflərdə öyrəndiyiniz bayatılardan yadınızda qalan varmı? Söyləyin və yenilərini öyrənin.

**8.** Hər kəs (məsələn, alim, zabit, mühəndis, həkim ...) vətən qarşısında öz borcunu bir cür yerinə yetirir. Bu barədə siz necə düşünürsünüz? Fikirlərinizi açıqlayın.

**9.** Bəs siz vətənə xidməti nədə görürsünüz? Bir məktəbli öz Vətəninə borcunu necə ödəyə bilər? Fikirlərinizi açıqlayın.

**10.** Aşağıdakı sözləri cümlələrdə işlədin. Bu sözlərdən yeni sözlər düzəldə bilərsinizmi? Özünüzü yoxlayın və düzəltdiyiniz sözləri dəftərinizə yazın.

**SÖZLƏR:** müqəddəs, bayaq, meşə, birlik, bağ, yoldaş, qucaq

**11.** Mətndə qırmızı rəngdə verilmiş sözləri köçürün. Sözlərdə dəyişməyən hissənin altından xətt çəkin. Bu sözlərdən biri digərlərindən fərqlənir. Həmin sözü tapıb göstərin və səbəbini izah edin.

**12.** Şeiri düzgün intonasiya ilə oxuyun.

## AZƏRBAYCAN

Dosta möhkəm sədaqətli,
Qoynu bahar təravətli,
Beynəlmiləl təbiətli,
Bir diyardır Azərbaycan.

Bir nəğmədi, bir şeirdi,
Dinəndə Vurğun deyirdi,
Füzulidi, Üzeyirdi,
Şəhriyardı Azərbaycan.

Qəlbi dağlar baş-başadır.
O, Şəkidir, bu, Şuşadır,
Doğrudan da, tamaşadır
Başdan-başa Azərbaycan.

Baxdım ana torpağıma,
Aranıma, yaylağıma,
Min səs gəldi qulağıma
– Yaşa,
Yaşa, Azərbaycan!

**Hüseyn Arif**

Çap üçün deyil

## SÖZLÜK

qoyun – здесь: объятия
təravətli – свежий
baş-başa – рядом

## SÖZ EHTİYATI

beynəlmiləl təbiətli – интернациональный характер
qulağına səs gəlmək – услышать
tamaşa – здесь: красота, великолепие

**13.** Şeirdə yaşıl rəngdə verilmiş sözlərin sinonimlərini tapıb cümlələrdə işlədin və mənalarını rus dilində deyin.

**14.** Aşağıdakı suallar əsasında bildiklərinizi danışın.

1) Şəkidə hansı məşhur maddi-mədəniyyət abidəsi var? 2) Şəki lətifəsi bilirsinizmi? 3) Şəki daha nələri ilə tanınır?

**15.** Şeirdə adı çəkilən Füzuli kimdir? Onun haqqında qısa təqdimat hazırlayın.

**16.** M.Şəhriyar harada və neçənci əsrdə yaşayıb?

A) Şimalı Azərbaycanda, XIX əsrdə
B) İraqda və Türkiyədə, XX əsrdə
C) Cənubi Azərbaycanda, XX əsrdə
D) Şimali Azərbaycanda, XX əsrdə

**17.** "Heydərbabaya salam" poemasının müəllifi kimdir?

A) N.Gəncəvi B) M.Füzulu C) H.Cavid
D) M.Şəhriyar E) M.Ə.Sabir

**18.** Üzeyir Hacıbəyov Şərqdə ilk operanı M.Füzulinin hansı əsəri əsasında yazıb?

A) "Yeddi gözəl" B) "Leyli və Məcnun"
C) "Koroğlu" D) "Xosrov və Şirin"

Çap üçün deyil

# § 6. ŞİRVANŞAHLAR SARAYI

## 1-ci hissə

Şirvanşah İbrahim bir ucu Dəmirqapı Dərbəndə, bir ucu Şəki ilə Gəncəyə, bir ucu Beyləqana, bir ucu Xəzər dənizinə gedib çıxan böyük bir dövlət qurmuşdu. Paytaxtını da Şamaxıdan "küləklər diyarı" adlandırılan Badi-Kubəyə köçürmüşdü. Amma daha yaşlaşmışdı. Odur ki, bir gün oğlu Xəlilüllahı yanına çağırıb dedi:

– Oğul, daha qocalmışam. Məndən sonra sən şah olacaqsan. Sənə cənnət kimi bir dövlət qoyub gedirəm. Qədrini bil. Bir iş görəndə ağılla gör. Dosta – dost, düşmənə – düşmən ol. Bir də Badi-Kubənin mənzərəli yerində özünə möhtəşəm bir saray tikdir. Metronun "İçərişəhər" stansiyası Şirvanşahlar sarayının yanındadır.

Xəlilüllah şah taxta çıxdığı günün səhəri əyanları yanına çağırdı. Saray tikdirmək istədiyini bildirdi. Memarlardan kimi məsləhət gördüklərini soruşdu. Əyanlar bir-birinin üzünə baxdılar. Axırda biri bu işi yalnız Memar Əlinin görə biləcəyini söylədi.

Memar Əlini tapıb şahın ______ gətirdilər. Şah dedi:

– İstəyirəm ki, şəhərimizdə dünyada tayı-bərabəri olmayan bir ______ tikəsən. Həyətində divanxanası, məscidi, hamamı, kəhrizi, güllü-çiçəkli bağı, bir də çoxlu türbələri olsun. Nə deyirsən?

– Məsləhət sizindir, şah!

Xəlilüllah şah dedi:

– Onda başla. Nə qədər qızıl-filan lazım olsa, xəzinədən götür. Bu iş nə vaxta tamamlanar?

Memar Əli sarayın bir qərinəyə hazır olacağını bildirdi.

Xəlilüllah şah bu sözü eşidəndə təəccübləndi:

– Bir qərinəyə?

Sarayın gec başa gəlməsinə görə şahın narahat olduğunu görəndə Memar Əli əlavə etdi:

– Şah, siz çox cavansınız. O sarayda siz hələ çox ömür sürəcəksiniz.

Bu sözlər şahın xoşuna gəldi, gülümsəyib dedi:

– Sənə böyük ənam verəcəyəm. Ancaq bir şərtim var: Tikdiyin ______ üstündə öz adını yazmayacaqsan.



Çap üçün deyil

Memar Əli fikirləşdi ki, bəlkə, şah öz adını yazdırmaq istəyir. Odur ki, dedi:

– Buyruq sizinkidir, şah!

Xəlilüllah şah dedi:

– Yaxşı, bir qərinədən sonra görüşərik.

**Dilsuz**

**SÖZLÜK**

cənnət kimi – как рай
möhtəşəm – величественный
türbə – мавзолей
mənzərəli – здесь: видный
memar – зодчий
qərinə – период в 33 года

**SÖZ EHTİYATI**

qədrini bilmək – знать цену
taxta çıxmaq – сесть на трон
divanxana – диван(суд)
tayı-bərabəri olmayan – несравненный
əyan – придворный
ömür sürmək – прожить
ənam – подарок, дар
kəhriz – кяриз, артезианский колодец

**1.** Mətnin məzmununu aşağıdakı suallar əsasında danışın.

1) Şirvanşah İbrahim necə bir dövlət qurmuşdu?
2) Şirvanşah İbrahim oğlunu yanına çağırıb nə dedi?
3) Xəlilüllah şah taxta çıxan günün səhəri əyanları niyə yanına çağırdı?
4) Xəlilüllah şah Memar Əliyə nə dedi?
5) Memar Əlinin şaha cavabı necə oldu?
6) Şah Memar Əlinin qarşısında necə bir şərt qoydu?

**2.** Mətnin məzmununa əsasən düzgün cavabı səsləndirin.

**Xəlilüllah şah əyanları niyə yanına çağırdı?**

A) Əyanlara yeni tapşırıqlarını verdi.
B) Saray tikdirmək istədiyini bildirdi.
C) Paytaxtı Şamaxıdan Badi-Kubəyə köçürəcəyini bəyan etdi.

**3.** Mətnin ikinci abzasında olan cümlələrdən birinin mətnlə əlaqəsi yoxdur. Həmin cümləni tapın və oxuyun.

**4.** Bayatını əzbərləyin. Bayatıda deyilən fikirlə bağlı öz mülahizənizi söyləyin.

Bu qala bizim qala,
Həmişə bizim qala.
Tikmədim, özüm qalam,
Tikdim ki, izim qala.

**SÖZLÜK**

qala – крепость
iz – след

Çap üçün deyil

**5.** Mətndə yaşıl rəngdə olan sözləri hansı sözlərlə əvəz etmək olar? Həmin sözlərlə cümlələri yenidən oxuyun və rus dilinə tərcümə edin.

**6.** Mətndəki hansı cümlə antonim sözlərdən ibarətdir?

**7.** Mətndəki sarı boşluqların yerinə uyğun sözləri qoyub cümlələri köçürün və şifahi tərcümə edin.

**8.** Mətndə böyük hərflə yazılan sözləri seçib yazın. Onların böyük hərflə yazılmasının səbəbini izah edin.

**BUNLARI BİLİRSİNİZMİ?**

Azərbaycan dilində isimlər **ümumi** və **xüsusi** olur.

Ad və soyadları, ölkə, şəhər, kənd, dağ, dəniz, çay və s. adları xüsusi isimlərdir. Azərbaycan dilində xüsusi isimlər **böyük hərflə yazılır**: Ülkər, Hüseynli, Xəzər, Kür, Savalan, Şuşa, Təbriz, Damcılı, Göygöl, Qırat, Toplan və s.

**9.** Mətndə işlənmiş mürəkkəb sözlərdən bir neçəsini tapıb yazın. Həmin sözlərin necə düzəldiyini izah edin.

**10.** Mətndə qırmızı rəngdə verilmiş birləşmələri bir sözlə əvəz edib cümlələri yenidən oxuyun. Hansı variant daha çox xoşunuza gəlir? Cümlələri hər iki variantda rus dilinə tərcümə edin.

**11.** Mətndən hara? sualına cavab verən bir neçə söz tapıb dəftərinizə yazın və cümlələrdə işlədin.

**12.** Aşağıdakı cümlənin Azərbaycan dilinə tərcüməsi ilə bağlı düzgün cavab hansıdır? Fikrinizi əsaslandırın.

**На утро после того, как Халилуллах шах встал на трон, вызвал к себе придворных.**

A) Xəlilüllah şah taxta çıxdığı gün əyanları yanına çağırdı.
B) Xəlilüllah şah taxta çıxdığı günün səhəri əyanları yanına çağırdı.
C) Xəlilüllah şah taxta çıxdı və sonra əyanları çağırdı.
D) Xəlilüllah şah əyanları yanına çağırdı.

**13.** Mətni necə davam etdirərdiniz? Əvvəlcə öz variantlarınızı söyləyin, sonra mətnin davamını oxuyun.

Çap üçün deyil

# ŞİRVANŞAHLAR SARAYI

**2-ci hissə**



Bir qərinə 33 il idi. Bu müddətdə saray hazır oldu. Şah gəlib gördü ki, Memar Əli, doğrudan da, möhtəşəm bir saray tikib. Amma lap yuxarıda badamvari lövhədə öz adını yazıb. Şah bərk hirsləndi:

– Bu nədir? Axı mən şərt kəsmişdim ki, sən ______ yazmayacaqsan.

Memar Əli dedi: – Şah sağ olsun, bu, ad deyil, bu, bir ayədir.

Alimlər yığışdılar və yazını oxudular. Gördülər ki, Memar Əli düz deyir, bu, doğrudan da, bir xeyir-dua ayəsidir. Şah rahat oldu və ______ yaxşı ənam verdi.

Sarayın tikildiyi vaxtdan düz bir qərinə də keçdi. Şah atası kimi yaşlaşmışdı. Taxtda oturub gördüyü haqlı-haqsız işləri bir-bir yadına salırdı. Birdən bərk narahat oldu, düşündü: "O vaxt cavanlıq elədim, Memar Əlinin qəlbini qırdım. Sarayın üstündə adını yazmağa qoymadım. Yaxşısı budur ki, onu çağırım, halallıq alım".

Memar Əlini şahın yanına gətirdilər. Memar da şah kimi qocalmışdı.

Şah dedi: – Ustad, o vaxt haqsızlıq elədim: Qoymadım ______ üstündə adını yazasan. Düzü, bərk peşman olmuşam. Məni bağışla. Bax bu saray, bu da sən, adını hara yazmaq istəyirsən, yaz. Qoy mən də dünyadan rahat köçüm.

Memar Əli dedi: – Şah sağ olsun, narahat olmayın. O ayəni güzgüdə tərsinə oxusanız, görəcəksiniz ki, elə mənim adım yazılıb.

Xəlilüllah şah çox sevindi, dedi:

– Sənin kimi ağıllı adamın tikdiyi saray dünya durduqca duracaq...

**Dilsuz**

**SÖZLÜK**

badamvari – миндальной формы

ayə – цитата из Корана

tərsinə – наоборот

Çap üçün deyil

## SÖZ EHTİYATI

şərt kəsmək – условиться
qəlbini qırmaq – обидеть
peşman olmaq – раскаяться
dünyadan köçmək – уйти из жизни
haqlı-haqsız – правые и неправые дела
halallıq almaq – получить благословление

**14.** Mətnin məzmununa əsasən düzgün cavab hansıdır?

<u>Şah bərk hirsləndi, çünki</u> ...
A) memar Əli şərti pozmuşdu və badamvari lövhədə öz adını yazmışdı.
B) memar Əli sarayı söz verdiyi vaxtda tikib qurtarmamışdı.
C) alimlər lövhədə memarın adının yazıldığını təsdiq etdilər.
D) saray şahın xoşuna gəlməmişdi.

**15.** Aşağıdakı plan mətnin ardıcıllığına uyğundurmu? Ardıcıllığı bərpa edin və düzgün variantı yazın.
1) Xəlilüllah şahın peşmanlığı.
2) Şahın hirslənməsi.
3) Xeyir-dua ayəsi.
4) Memar Əlinin cavabı.
5) Xəlilüllah şahın narahatlığı.

**16.** Mətndəki sarı boşluqların yerinə uyğun sözləri qoyub cümlələri köçürün və rus dilinə tərcümə edin.

**17.** Mətnin məzmununa əsasən düzgün variantı göstərin.

**Xəlilüllah şah nəyə görə peşman olmuşdu?**
A) Çünki o, Memar Əliyə sarayın üstündə adını yazmağa icazə verməmişdi.
B) Çünki o, Memar Əliyə vəd etdiyi hədiyyəni verməmişdi.
C) Bir vaxtlar şah çox haqsızlıqlar etmişdi.
D) Artıq qocalmışdı və dünyadan rahat köçmək istəyirdi.

**18.** Cümlələrin Azərbaycan dilinə tərcüməsini düzgün hesab etmək olarmı? Fikirlərinizi əsaslandırın.

1) Вдруг он сильно забеспокоился – Bərk narahat oldu. 2) Шах состарился как свой отец – Şah yaşlaşmışdı. 3) Я сильно сожалею – Peşman olmuşam.

Çap üçün deyil

**19.** Necə bilirsiniz, şahın razılığından sonra Memar Əli öz adını sarayın üstündə niyə yazmadı? Fikirlərinizi əsaslandırın.

**20.** Şeiri düzgün intonasiyaya əməl edərək oxuyun və əzbərləyin.

## Azərbaycana gəlsin

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin!

Qanımızda dövr edən sədaqətdir, sədaqət,
Günəşdən də parlaqdır gözümdə bu həqiqət.
Dostuna, qardaşına təmənnasız məhəbbət,
Hörmət görmək istəyən Azərbaycana gəlsin!

Payızında, qışında, baharında, yazında
Dinər dostluq nəğməsi könüllərin sazında.
Sabaha addımlayan mərd oğlunda, qızında
Qeyrət görmək istəyən Azərbaycana gəlsin!

**Süleyman Rüstəm**

**SÖZLÜK**

sədaqət – верность
təmənnasız – безвозмездно

**SÖZ EHTİYATI**

könüllərin sazında – здесь: песня души
dövr etmək – здесь: действовать

**21.** Şeirdə deyilən fikirlərlə siz də razılaşırsınızmı? Necə düşünürsünüz, şair öz Vətəni ilə niyə fəxr edir? Fikirlərinizi açıqlayın.

**22.** Şeirin birinci bəndini əzbərdən yazın. Sonra yazınızı kitabla yoxlayın və səhvlərinizi düzəldin.

**23.** Buraxılmış hərfləri artırıb köçürün, qoşa hərflərlə yazılan sözləri cümlələrdə işlədin.

..öbələk, kəpənə.., hədi..ə, tə..arə, riyazi..at, bənö..şə, ağa..dələn, aya..qabı, do..quz, ha..sızlıq, cavan..ıq

Çap üçün deyil

# § 7. “SAATSAZ” QARĞA



Bahar idi. Həyətimizdəki çinar çoxdan yarpaqlamışdı. Ancaq yenə tez-tez soyuq küləklər əsirdi. Qış elə bil ki, geri qayıtmaq fikrinə düşmüşdü.

Çinarın başında yuva salmış qarğanın ətcəbalalarına adamın yazığı gəlirdi. Külək əsəndə ağız-ağıza verib bərkdən qığıldaşırdılar.

Onlar yumurtadan çıxanda üç idilər, sonra soyuqdan ikisi öldü, təkcə biri qaldı.

Bir gün axşamdan xeyli keçmiş yenə bərk ______ əsməyə başladı. Səhərə qədər davam elədi. Səhər qarğa yuvasını çinarın başında görmədik; külək onu uçurmuşdu. “Qarğa və tülkü” nağılını mən keçən il oxumuşam.

“Görəsən bala necə olub? Bəlkə, külək onu aparıb?” Çox narahat olduq.

Ancaq birdən həyətin bir küncündə atıla-atıla gəzən qara bir şey gördük. Bu, qarğanın balası idi. Tez onu tutub otağa gətirdik. Soyuqdan bədəni tir-tir əsirdi.

O, bir neçə gün evdə qaldı, canı qızdı. Hətta hərdən qanad çalıb havaya qalxa bilirdi. Bir də görürdün ki, pırıltı ilə uçub pəncərənin üstünə qondu, sonra yenə yerə atıldı. Bəzən də saatlarla çarpayının ______ girib çamadanları dimdikləрdi, xalçanın saçaqlarından yapışıb dartışdırardı: sözün qısası, çox dəcəl idi.

İndi əsl əhvalatı danışım. Bizim evdə kəfkirli bir divar saatı vardı. Çox düz işləyirdi. Onun irəli qaçdığını və ya geri qaldığını hələ görməmişdik. Bütün günü bir qayda ilə işləyirdi: – Çıq-çıq, çıq-çıq. Yazda quşlar isti ölkələrdən qayıdırlar.

Qarğa balası uçmağa başlayandan sonra isə saat tez-tez dayanırdı. Anam deyirdi: “Ay qız, bu qarğanın ayağı düşmədi, o gələn gündən saat xarab olub”.

Doğrudan da, qəribə idi, saatı işləyə-işləyə qoyub həyətə çıxırdıq, otağa

Çap üçün deyil

qayıdanda görürdük ki, dayanıb. Anam  kəfkirini tərpədirdi, o yenə çıqqıltı ilə işləyirdi. Çox təəccüblü idi. Axı bu saata nə olmuşdur, onun dərdi nədir? Axır qərara gəldik ki, onu saatsaza göstərək.

Ancaq göstərməyə ehtiyac qalmadı. Sən demə, "saatsaz" evin içindəymiş.

Bir gün yenə  yatmış qoyub getmişdik. Axşamüstü qapını açıb içəri girəndə nə gördük: qarğa balası dırnaqları ilə saatın kəfkirindən bərk-bərk yapışıb yellənir.

Anam əllərini bir-birinə vurub dedi: – Belə "saatsazdan" danış!

Bala qarğa bir neçə gündən sonra uçub getdi. Saat yenə əvvəlki kimi işləməyə başladı: – Çıq-çıq, çıq-çıq.

**Xalidə Hasilova**

**SÖZLÜK**

ətcəbala – птенец
qığıldaşmaq – издавать звуки
saçaq – бахрома
dartışdırmaq – дергать

**SÖZ EHTİYATI**

ağız-ağıza vermək – здесь: вместе
tir-tir əsmək – дрожать
sözün qısası – короче
ayağı düşmək – повезти

**1.** Aşağıdakı suallardan hansılara mətndə cavab tapmadınız?

1) Qarğanın əvvəlcə neçə balası vardı?
2) Qarğa yuvası niyə çinarın başında yox idi?
3) Yuvasını külək uçurandan sonra qarğa harada yuva tikdi?
4) Qarğa balalarını necə yedirirdi?
5) Qarğa balası haradan tapılmışdı?
6) Qarğa balası çarpayının altında nə edərdi?
7) Kəfkirli saat niyə işləmirdi?

**2.** Mətn üzrə plan tərtib edin və məzmununu danışın.

**3.** Mətnin məzmunu əsasında düzgün cavabı səsləndirin.

**Saatı saatsaza göstərməyə niyə ehtiyac qalmadı?**

A) Çünki bu saat artıq köhnəlmişdi.
B) Saatın niyə işləmədiyi artıq məlum idi.
C) Ana saatın kəfkirini tərpədəndə o yenə çıqqıltı ilə işləyirdi.
D) Qarğa uçub getmişdi və saat da yenə əvvəlki kimi işləyirdi.

Çap üçün deyil

**4.** Mətnin məzmunu ilə əlaqəsi olmayan cümlələrdən biri birinci, biri isə ikinci hissədədir. Həmin cümləlləri tapın və niyə artıq olduğunu izah etməyə çalışın.

**5.** Mətndə bir neçə sözün altından xətt çəkilmişdir. Həmin sözlərin quruluşunu müəyyənləşdirin və müvafiq sütunlarda yazın:

sadə düzəltmə mürəkkəb

**6.** Aşağıdakı birləşmələrin Azərbaycan dilinə tərcüməsində yol verilmiş səhvləri tapıb düzəldin.

дворец, построенный умным человеком – ağıllı adamın tikmək istədiyi saray, совершенные им правые и неправые дела – gördüyü bütün işlər, с того времени как построили дворец – saray tikildiyi vaxt, если вы прочитаете цитата из Корана сквозь зеркало наоборот – əgər siz ayəni güzgüdə oxusanız

## GÜLƏK VƏ DÜŞÜNƏK

**7.** Aşağıdakı lətifəni oxuyun və nəticə çıxarın.

### Qarğa

Molla Nəsrəddin bir gün evə bir qarğa gətirir. Arvadı soruşur:

– A kişi, bu qarğanı neyləyirsən?

Molla deyir:– Alimlər deyirlər ki, qarğa üç yüz il yaşayır, yoxlayacağam görüm, doğru deyirlər, ya yalan.

Arvad deyir: –A kişi, yaxşı, sən özün üç yüz il yaşayacaqsan ki, onu da yoxlayasan?

Molla bir az fikrə gedib deyir: – Bəs o alim ki, bunu deyib ha, o özü üç yüz il yaşayıb ki, bunu deyib?

## TAP GÖRƏK

**8.** Tapmacaları oxuyun və hansı quşlardan söhbət getdiyini tez tapmağa çalışın. Tapdığınız sözləri birləşmələrdə işlədin.

Qatar-qatar uçarlar,
Şahin görüb qaçarlar.
Gündüzləri otlayıb,
Axşamları uçarlar

Nağaraçı nağara çalır,
Nə nağarası var, nə çubuğu.

**9.** Mətndəki sarı boşluqların yerinə tələb olunan sözləri qoyub cümlələri oxuyun, sonra həmin cümlələri rus dilinə tərcümə edin.

Çap üçün deyil

**10.** “Canlı saat” mətnini oxuyun və məzmununu öz sözlərinizlə danışın, sonra yadınızda qalanları qısaca yazın.

## CANLI SAAT

Orxan dərsə tez-tez gecikirdi. Yatıb yuxuya qalırdı.

Bir gün qar yağmışdı. Sərçələr onun pəncərəsinə qonaraq civildəşirdilər. Orxan pəncərənin qabağına bir parça taxta bərkidib üstünə dən tökdü. Sərçələr dəni yedilər.

Səhəri gün tezdən idi. Orxan şirin yuxudan sərçələrin civiltisinə oyandı. Gözünü açan kimi saata baxdı. Saat yeddi idi. Orxan vaxtında yuxudan oyandığına çox sevindi. O qalxıb paltarını geyindi. Tez sərçələrə dən səpdi. Sərçələr dəni dimdikləyib* yedilər. Orxan:

– Səhər yenə gəlin, yenə dən verəcəyəm, – dedi.

Həmin gündən Orxan bir də dərsə gecikmədi. Hər səhər sərçələr onun pəncərəsinə yığılıb civilti ilə şüşəni döyəcləyir*, ondan yem istəyirdilər*. Orxan yuxudan ayılıb onları yemləyirdi*. Sərçələr Orxanın canlı saatı idi.

**Əli Səmədli**

**SÖZLÜK**

canlı saat – живые часы
döyəcləmək – стучать

**SÖZ EHTİYATI**

yuxuya qalmaq – проспать

**11.** Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərdə “ə” saitinin düzgün tələffüzünü öyrənin.

| Belə yazılır: | Belə deyilir: |
|---|---|
| dimdiklə*yib | dimdik[li]yib |
| döyəclə*yir | döyəc[li]yir |
| istə*yirdilər | is[di]yirdilər |
| yemlə*yirdi | yem[li]yirdi |

**12.** Mətnin məzmununa aid bir-birinizə suallar verin? Sualların düzgün tərtibinə diqqət yetirin.

**13.** Mətndə göy, qırmızı və yaşıl rəngdə olan isimlər üzərində müşahidə aparın. Bu isimlərə artırılan şəkilçilər həmin sözlərin mənasını, yoxsa yalnız formasını dəyişib? Fikirlərinizi əsaslandırın.

**BUNLARI BİLİRSİNİZMİ?**

İsimlər cümlədə başqa **sözlərlə əlaqəyə girmək üçün** xüsusi şəkilçilər qəbul edir və dəyişir. Buna ismin hallanması deyilir. İsimlərin hallanarkən qəbul etdiyi şəkilçilər **hal şəkilçiləri** adlanır. Məsələn: üzüm, üzüm-ün, üzüm-ə, üzüm-ü, üzüm-də, üzüm-dən.

Çap üçün deyil

**14.** Buraxılmış şəkilçiləri artırıb, aşağıdakı cümlələri köçürün. Səməd sözünün dəyişməsi üzərində müşahidə aparın. Tapşırığın mətnində bu söz neçə halda işlənmişdir?

1) Səməd məktəb.. heç kimi tanımırdı. 2) Səməd.. xəyalında məktəb-dən gözəl, məktəb.. işıqlı yer yox idi. 3) Tanımadığı bir oğlan Səməd.. yaxınlaşdı. 4) Səməd.. oxutmaq ata-anasının ən böyük arzusu idi. 5) Səməd.. oxumağa çox böyük həvəs vardı. 6) Balacaboylu bir uşaq Səməd.. neçənci sinif.. oxuduğunu soruşdu.

**15.** Aşağıdakı birləşmələri tərcümə edin və yazın.

из теплых стран, холодный ветер, когда дует ветер, ковровая бахрома, настенные часы, часто остановливаться, выходит во двор, живые часы, маленький воробей, тот день, светлая комната, шаловливый школьник

## § 8. ÖZÜNÜZÜ YOXLAYIN

**1.** "Birinci dərs" mətni üzrə düzgün cavabı tapın.

**Səməd sentyabrın on beşini niyə səbirsizliklə gözləyirdi?**

A) Səməd sinif yoldaşları üçün darıxmışdı.

B) Çünki Səmədin xəyalında məktəbdən gözəl, məktəbdən işıqlı yer yox idi.

C) Səmədi evdə valideynləri çox işlədirdilər.

**2.** "Birinci dərs" mətnində Səmədin valideynləri tərəfindən hansı atalar sözü işlədilir?

A) Ayağı nərdivana bir-bir qoyarlar.

B) Bir əldə iki qarpız tutmaq olmaz.

C) Savadsız adamdan kor yaxşıdır!

**3.** Aşağıdakı misralar hansı mətndəndir və onu kim yazmışdı?

"Qorxdu, dönübən oldu,
Şeybani bizim Hophop..."

**4.** Aşağıdakı sözlərin içərisindən xüsusi isimləri və şəxs anlayışı bildirən digər sözləri seçib ayrı-ayrı sütunlarda yazın, sözlərin bir qisminin böyük hərflə yazılmasının səbəbini izah edin.

müəllim, Səhhət, həyat, Sabir, şagird, zəhmət, balalar, uşaqlar, Mirzə, Abbasqulunu, dostumuz, Ələsgər, oğul, Hacıbaba, rahatlıq, Əşrəfin, qardaşı, məktəb, dərs, otaq, şeir, məhəbbət, dostluq

**5.** "Sevimli məktəb" şeirində yay tətilini keçirmək necə təsvir olunur? Şairin fikirlərini öz sözlərinizlə ifadə edərək danışın.

Çap üçün deyil

**6.** "Sevirik səni biz" şeirində işlənmiş isimləri seçib dəftərinizə yazın, suallarını qarşılarında qeyd edin.

**7.** "Görüş ədəbi" mətnində "Salaməleyküm" və "Əleyküməssalam" sözlərinin mənası necə izah olunur?

**8.** "Salaməleyküm" sözünün qarşılığında hansı sözü işlətmək lazımdır?
a) xoş gördük  b) necəsiniz  c) əleyküməssalam  d) sağ olun

**9.** "Ay aman!.. Sel apardı!.."mətnindən on düzəltmə söz seçib dəftərinizə yazın.

**10.** "Qız məktəbində" şeirinin müəllifi kimdir, onun haqqında hansı xatirəni bilirsiniz?

**11.** "Görüş ədəbi" mətnində dörd qaydaya əməl etmək lazım olduğu göstərilir. Həmin qaydalar hansılardır? Onları sadalayın və hər biri haqqında yoldaşlarınızla debata qoşulun.

**12.** "Vətən nədir?" mətnində "müqəddəs" sözünün mənasının izahı ilə razılaşırsınızmı? Başqa nəyi müqəddəs hesab etmək olar? Sizin üçün bu sözün daşıdığı məna nədir? Fikirlərinizi bildirin.

**13.** "Badi-Kubə" nə deməkdir? Bu sözün mənasına hansı mətndə rast gəlmisiniz? Şirvanşahlar sarayını görmüşsünüzmü? Oxuduqlarınız əsasında sarayı təsvir edin.

**14.** "Sənin kimi ağıllı adamın tikdiyi saray dünya durduqca duracaq..." fikri kimə məxsusdur?
A) İbrahim şaha  B) Xəlilüllah şaha  C) saray əyanlarına

**15.** İbrahim şahın qurduğu dövlətin sərhədlərini göstərən sözləri yazın. Həmin sözlərin yazılış qaydasını izah edin.

**16.** Aşağıdakı sözlər arasındakı münasibəti müəyyənləşdirin və tərcümə edin.
çıxmaq – çıxış – çıxıntı – çıxıntılı – çıxıntısız – çıxarmaq – çıxarış;
zəif – zəiflik – zəifləmək – zəiflətmək – zəif olmaq – zəiflik etmək;
mehriban – mehribanlıq – mehribancasına – mehribanlaşmaq – mehriban olmaq;
cavan – cavanlıq – cavanlaşmaq – cavan olmaq –cavanlıq etmək;
qurumaq – quru – qurutmaq – qurulamaq – quru olmaq;

**17.** Buraxılmış hərfləri artırıb aşağıdakı sözləri köçürün.
za..baq, vert..lyot, qəhr..man, pişi.., yarpa.., ağa.., i..irmi, yed..i, sək..iz, do..quz, p..ncərə, m..barək, düşm..n, h..yva

Çap üçün deyil

**18.** Buraxılmış şəkilçiləri artırıb sözlər arasında əlaqə yaradın.

1) Qarğa.. ətcəbalaları.. adamın yazığı gəlirdi. 2) Soyuq.. bədən.. tir-tir əsirdi. 3) Səhər qarğa yuvası.. çinar.. başında görmədik. 4) Anam saat.. kəfkiri.. tərpədirdi. 5) Qapı.. açıb həyət.. çıxırdıq. 6) Qarğanın balası atıla-atıla həyət.. gəzirdi. 7) Ayxan sizə qarğa.. danışmaq istəyir. 8) Otağ.. qayıdanda qarğa.. görmədik.

**19.** Rus dilində verilmiş sözlərin mənalarına uyğun gələn ifadələri sağ sütundan tapıb qarşılarında yazın və bir neçəsini cümlələrdə işlədin.

быть побежденным –
приказать –
проводит –
видеть сон, заснуть –
присниться –
делать вывод –
быть довольным –
наводить порядок –
решить –

əmr etmək, yola salmaq, razı qalmaq,
qalib gəlmək, səliqəyə salmaq,
yuxuya getmək, yuxu görmək,
qərara gəlmək, nəticə çıxarmaq,
yuxuda görmək, məğlub olmaq

**20.** Aşağıda verilmiş sözlərdən mənaca yaxın olanları seçib qarşı-qarşıya yazın və rus dilində mənalarını deyin:

tənəffüs, mehriban, sadə, zəngin, dadlı, tufan, səmimi, düşünmək, asan, ləzzətli, çətin, fasilə, cəsur, möhkəm, fikirləşmək, boran, bərk, dövlətli, mürəkkəb, varlı, igid

**21.** Boşluqların yerinə uyğun gələn sözləri artırıb aşağıdakı cümləri tamamlayın:

Xoş payız günlərindən ____ idi. Uzaqdan qatarla uçan ____ səsi gəlirdi. Onlar ____ üz tutmuşdular. 5-ci ____ dərs gedirdi. Ceyran müəllimə sinfin ____ baxanda bağbanı gördü. Zəngdən sonra o, ____ endi, bağbanla danışdı. Bağban ____ ona kömək etməsinə razılıq verdi. Müəllimlə ____ söhbət etdiklərini uşaqlar ____ gördülər. Ceyran müəllimə qayıdıb ____ girdikdə hamı onun nə deyəcəyini gözləyirdi.

**KÖMƏKÇİ:** pəncərəsindən, sinfə, quşların, sinifdə, biri, cənuba, həyətə, bağbanın, pəncərədən, uşaqların

**22.** "Saatsaz qarğa" və "canlı saat" birləşmələrinin mənasını necə başa düşürsünüz? Buradakı birinci sözlər həqiqi, yoxsa məcazi mənada işlənib? Fikirlərinizi əsaslandırın.

**23.** Altından xətt çəkilmiş sözləri düzgün tələffüz etməklə şeiri oxuyun. Bəs üzərində ulduz işarəsi qoyulmuş sözlər necə tələffüz edilməlidir?

Çap üçün deyil



# PAYIZ

Payız gəlib, küləklər
Gəzir yenə bağları.
Hər tərəfə sovurur
Saralmış yarpaqları.
Axıb gedir buludlar
Yenə də karvan-karvan.
Dərələri, dağları,
Bürüyür çiskin, duman.

Mərcan kimi qızarmış
Moruqlar parıldayır*.
Ağaclarda qarğalar
Səs salıb qarıldayır*...
Yağır güclü yağışlar,
Günlərcə vermir ara.
Almaz kimi şeh düşür
Bağçalara, bağlara.

**Mirmehdi Seyidzadə**



Çap üçün deyil

**SÖZLÜK**

sovurmaq – веять
çiskin – туманно-дождливая погода

**SÖZ EHTİYATI**

ara vermək – интервал, дать промежуток
mərcan – коралл

**24.** Şeirdə payızın daha çox hansı əlamətləri göstərilib? Onları öz sözlərinizlə ifadə edin. Payız haqqında şeirdə deyilənlərə daha nə əlavə edərdiniz?

**25.** "Payızda meyvə bağlarımız" mövzusunda yazılı təqdimat hazırlayın.

**26.** Payızda qışa necə hazırlıq görülür? Bildikləriniz əsasında cümlələr qurub danışın, sonra danışdıqlarınızı yazın.

**27.** "Payızda heyvanlar və quşlar" mövzusunda yoldaşlarınızdan biri ilə dialoq qurun.

**TAP GÖRƏK**

**28.** Tapmacaları oxuyun və cavablarını tez tapmağa çalışın. Necə bilirsiniz, bu tapmacaların payız fəsli ilə əlaqəsi varmı?

Bir kişinin dörd evi var,
Biri yaşıldı, o biri al,
Biri sarıdı, o biri ağ. ✉

Uzaqdan baxdım yaman çox,
Yanına getdim, heç nə yox. ✉

Əl ilə tutmaq olmaz,
Göz ilə görmək olmaz. ✉

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Bir buğda əkməsən, min buğda biçməzsən.

## § 9. GÖYÇƏK FATMANIN NAĞILI

(ixtisarla)

Bir gün padşahın oğlu ova çıxdı. Körpünün yanından keçəndə istədi ki, atına su versin. At suya yaxınlaşanda xorruyub su içmədi. Padşahın oğlu adam saldırıb çayı axtartdı. Çayın içindən bir qızıl başmaq tapdılar. Başmaq çox zərif olduğu üçün padşahın oğluna xoş gəldi. İstədi ki, necə olur-olsun axtartdırıb onun yiyəsini tapsın və onunla evlənsin.

Çox gəzdilər, ancaq başmağın yiyəsini tapmadılar. Carçılar car çəkəndə Fatmanın analığı eşitdi. Qızın əl-ayağını bağlayıb saldı təndirə. Öz qızının ayaqlarını yuyub qazıdı.

Çap üçün deyil



Padşahın oğlunun adamları axtara-axtara gəlib çıxdılar Fatmagilin evinə. Çirkin qızın ayağına başmağı geydirdilər, olmadı. Soruşdular ki, sizin evdə özgə qız yoxdurmu? Fatmanın analığı cavab verdi ki, yoxdur. Amma Fatmanın bir xoruzu var idi. Xoruz başladı banlamağa:

Fatma bacım təndirdə,
Ayaqları kəndirdə!

Arvad nə qədər istədi, xoruzu qovsun, olmadı. Xoruz sıçradı damın üstünə, uca səslə banladı:

Fatma bacım təndirdə,
Ayaqları kəndirdə!

Padşahın adamları bunu eşidib təndirə baxdılar; gördülər ki, orada əl-ayağı kəndir ilə bağlanmış gözəl bir qız var. Qızı çıxardıb başmağı onun ayağına geydirdilər. Gördülər ki, başmaq elə bil onun ayağına biçilib. Qızı padşahın oğlunun yanına apardılar. Padşahın oğlu qızı görən kimi cani-dildən ona aşiq oldu. Yeddi gün, yeddi gecə toy eləyib, Fatmanı özünə arvad aldı. Yedilər, içdilər, yerə keçdilər, siz də yeyin, için, muradınıza yetişin!

**SÖZLÜK**

xorramaq – здесь: отвернуться, пренебрегать
zərif – нежный
qazımaq – здесь: почистить
başmaq – башмак
analıq – мачеха
kəndir – веревка



Çap üçün deyil

## SÖZ EHTİYATI

adam saldırmaq – послать гонцов
carçı – вестник
car çəkmək – оповестить
cani-dildən – от души
aşiq olmaq – полюбить
murada yetişmək – стать счастливым

**1.** Mətnə aid plan tərtib etsəydiniz, aşağıdakı planda hansı dəyişikliyi edərdiniz?

1) Təndirə baxış.
2) Fatmanın analığı.
3) Fatmanın xoruzu.
4) Qızıl başmaq.
5) Fatmanın inəyi.

**2.** Mətnin məzmununu aşağıdakı suallar əsasında danışmaq olarmı? Özünüzü yoxlayın. Hansı sualın əlavə olunmasını istərdiniz?

1) Padşahın oğlu çayı niyə axtartdı?
2) Başmaq padşahın oğlunun niyə xoşuna gəldi?
3) Padşahın oğlu başmağın yiyəsini niyə tapmaq istəyirdi?
4) Fatmanın analığı niyə onun əl-ayağını bağlayıb təndirə saldı?
5) Padşahın adamları Fatmanın təndirdə olduğunu hardan bildilər?
6) Padşahın adamları təndirə baxanda nə gördülər?
7) Fatmanı niyə padşahın oğlunun yanına apardılar?

**3.** Fatmanın analığının hərəkətinə haqq qazandırırsınızmı? Fikirlərinizi açıqlayın.

## ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ

Pis olmasa, yaxşının qədri bilinməz.
Pisliyi torpağa əkdilər, göyərmədi.

**4.** Necə düşünürsünüz, padşahın oğlunun atı niyə su içmədi?
A) Çünki o susamamışdı, ona görə də su içmək istəmirdi.
B) Su bulanıq idi, ona görə də atın xoşuna gəlmədi.
C) At suyun içində nəsə olduğunu hiss etmişdi.
D) At uzaqda canavar görmüşdü.

Çap üçün deyil

**5.** Fatma qızıl başmağı haradan almışdı? Bu və bunun kimi digər sirləri "Göyçək Fatmanın nağılı"nı bütövlükdə oxumasanız, öyrənə bilərsinizmi? Elə isə nağılı tapıb oxuyun.

**6.** Mətndə qırmızı rəngdə verilmiş sözləri kök və şəkilçiyə ayırıb yazın. Sözün kökündə olan dəyişikliyə diqqət yetirin. Bu sözü başqa şəkilçilərlə də işlədin və kökdə olan son səsin nə zaman dəyişməsi ilə əlaqədar fikirlərinizi söyləyin.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, bir qədər diqqətli olsanız, görərsiniz ki, **sonu "q" samiti ilə yazılan** sözlərə saitlə başlanan şəkilçi artırıldıqda **"q" "ğ"-**ya keçir. Məsələn, otaq-otağın, otağım, otağa, otağımız ... Sözə samitlə başlanan şəkilçi qoşulduqda isə sözün son samiti dəyişmir. Məsələn, otaq–otaqdakı, otaqlar, otaqdan, otaqdır, otaqda ...

**7.** Bəzi insanlar yanlış olaraq Azərbaycan dilində də aşağıdakı sözlərdən istifadə edirlər. Deyə bilərsinizmi, həmin sözlərin əvəzinə hansı sözləri işlətmək lazımdır? Həmin sözləri tapıb yazın:

**SÖZLƏR:** зонтик, ручка, поезд, доска, кровать, звонок, мороженое, тарелка, пляж, остановка, чернила, вешалка, песок, пол, потолок, доктор, инженер, лодка, форточка

**8.** Aşağıdakı sözlərin mənalarını izah edin və aralarındakı münasibəti aydınlaşdırmağa çalışın. Hər cərgədəki sözlərdən birinə aid cümlə qurub yazın:

yağ – yağlı – yağsız – yağlamaq – yağlanmaq – yağlı etmək – yağlı olmaq;
soyuq – soyumaq – soyuqlamaq – soyuqlaşmaq – soyuducu – soyuq olmaq;
görmək – görünmək – görüntü – görüşmək – görüş – görüşə getmək;
uşaq – uşaqlı – uşaqlıq – uşaqsız – uşaqlıqda – uşaqlaşmaq – uşaq olmaq;
yaxşı– yaxşılıq – yaxşılaşmaq – yaxşı olmaq – yaxşılıq etmək;
diqqət – diqqətli – diqqətsiz – diqqətsizlik – diqqətlə – diqqətli olmaq;
qorxmaq – qorxu – qorxaq – qorxaqlıq – qorxusuz – qorxulu

Çap üçün deyil

## GÜLƏK VƏ DÜŞÜNƏK

**9.** Aşağıdakı lətifəni oxuyun və cəmdə olan isimləri seçib deyin, cəm əlamətini göstərin.

### Ağlına gəlməz

Günlərin birində Molla evə gəlib görür ki, içəridə oğru var. Oğru molladan qorxur, Molla da oğrudan. Bir müddət ikisi də donub qalırlar. Handan-hana oğru özünə gəlib qaçmaq istəyir. Molla əlacsız qalıb oğrunun üstünə atılır. O bunu yıxır, bu onu yıxır, axırda Molla oğrunu üstələyir, ayaqlarını bağlayır, uzadır evin ortasına. Özü də gedir hakimin yanına ki, xəbər versin, gəlib oğrunu tutsunlar.

Hakim Mollanı danışdırıb əhvalatı ətraflı öyrəndikdən sonra soruşur:

– Bəs indi oğrunun yanında kim var?

Molla deyir: – Heç kim.

Hakim soruşur: – Yaxşı, sən deyirsən ki, onun ancaq ayaqlarını bağlamısan, yanında da heç kəs yoxdur. O, indi ayaqlarını açıb qaçar ki...

Molla fikrə gedir. Görür ki, hakim haqlıdır. Deyir:

– Hakim ağa, sən tamam haqlısan. Ancaq bu ki mənim ağlıma gəlməyib, heç onun da ağlına gəlməyəcək. O da bizim yerlidir.

Doğrudan da, gedib görürlər ki, ayaqlarını açıb qaçmaq oğrunun ağlına gəlməyib.

**10.** Lətifədə işlənmiş “Molla, hakim, oğru” isimlərini cəmdə işlədin və müxtəlif formalar üzrə dəyişdirib yazın.

**NÜMUNƏ:** gözlər, gözlərin, gözlərə ...

**11.** Oxuyun və əlamətlər əsasında sözləri tapıb yazın. Son səsin düzgün yazılışına diqqət yetirin:

1) Sulu xörəklər nə ilə yeyilir? –
2) Göldə nə ilə gəzintiyə çıxmaq olar? –
3) Baş geyimi necə adlanır? –
4) Neft mədənlərində olur –
5) Dövlət rəmzlərindən biri –
6) Südün, qatığın üzü –

**12.** “Hər kəsin yerişi var” təmsilini oxuyun və oradakı əsas fikri müəyyənləşdirin. Sonra məzmununu öz sözlərinizlə danışın.

Çap üçün deyil

## Hər kəsin yerişi var

Bir Tısbağa Dovşana
Söylədi yana-yana:
– Sən nə yaman qaçırsan?
Lap elə bil uçursan!
Gəl dost olaq bu gündən
Mənə də öyrət bunu.
İnan ki, təriflərəm
Səni, ömrüm uzunu.
Dovşan dedi:– əzizim,
Bu xəyala düşmə sən!
Bu addımla, yerişlə
Məgər qaça bilərsən?!
İnad etdi tısbağa:
– Yox, mən də qaçacağam,
Öyrətmirsən, öyrətmə!
Lap quştək uçacağam! –
Deyə o, bir təpədən
Üzüaşağı endi.
– Qaçma, yavaş! – söyləyib,
Dovşan xeyli deyindi.
Amma sözə baxmayıb
Tısbağa yumbalandı,
Dəyib daşa, kəsəyə
Bir anda parçalandı.
Dovşan vurdu dizinə:
“Sənə demədim, yavaş!
Hər kəsin öz yerişi
Var, a Tısbağa qardaş!..”

**Hikmət Ziya**

**SÖZLÜK**

təmsil – басня
yeriş – походка
üzüaşağı – вниз, книзу
deyinmək – ворчать
yumbalanmaq – скатиться

**SÖZ EHTİYATI**

xəyala düşmək – замечтаться
inad etmək – настаивать
ömrüm uzunu – всю жизнь



Çap üçün deyil

**13.** Təmsildən hərəkət bildirən sözləri seçib müvafiq şəxslərin qarşısında yazın.

**NÜMUNƏ:** Mən təriflərəm, ...
Sən qaçırsan, ...
O yumbalandı, ...

**14.** Düzgün intonasiyaya əməl etməklə təmsili rollar üzrə oxuyun.

**15.** "Hər kəsin öz yerişi var" fikri ətrafında müzakirəyə qoşulun.

**16.** Siz necə düşünürsünüz, ağıllı məsləhətə qulaq asmaq lazımdır, yoxsa tısbağa kimi inad etmək? Müzakirə edin.

**17.** Necə bilirsiniz, şeirdə "tısbağa və dovşan" sözləri niyə böyük hərflərlə yazılıb? Səbəbini izah edə bilərsinizmi?

## TAP GÖRƏK

**18.** Nöqtələrin yerinə lazımi şəkilçiləri artırıb, tapmacaları oxuyun və cavablandırın:

Kollar.. gəzər pusa-pusa,
Qıçları uzun, qolu qısa.

Üstü.. baxırsan dam,
Altı.. baxırsan eyvan,
Içi.. baxırsan quş,
Çölü.. baxırsan heyvan.

**19.** Tapmacalarda işlənmiş antonim sözləri tapıb deyin.

## § 10. QIZIL VƏ İLAN

Biri varmış, biri yoxmuş, kasıb bir odunçu varmış. O qədər kasıb imiş ki, kəndin çobanı da ondan varlı imiş. Odunçu hər gün səhər qalxıb meşəyə gedər, odun qırıb, şəhərə satmağa aparармış.

Günlərin bir günü yenə odunа gedəndə istidən dili çıxmış bir ilan görür. Odunçu ilanın halına acıyır. "Yəqin susuzdur, - deyə fikirləşərək yanındakı sudan götürüb ilana verir. Susuzluqdan qıvrılan ilan özünə gəlir. Odunçu işini bitirib qayıdanda bir də nə görsə yaxşıdır? Yolunun üstündə bir ilan durub. Əvvəl qorxur, sonra bu ilanın səhər su verdiyi ilan olduğunu görüb sakitləşir. Bir qədər yaxınlaşanda görür ki, ilanın ağzında qızıl var. İlan odunçunu görən kimi qızılı qoyub gedir... Bütün ömrü kasıblıq içində keçən odunçunun sevinci yerə-göyə sığmır.

Ertəsi gün odunçu oduna gedəndə bu dəfə özü ilə bir qab süd götürür. İlanı gördüyü yerə gedir. Nə görsə yaxşıdır? İlan ağzında qızıl gözləyir. Beləcə, hər gün odunçu süd, ilan qızıl gətirir.

Bu minvalla odunçu varlanır və bir gün həccə getməyi qərara alır.

Çap üçün deyil



Oğlunu yanına çağırıb ilanla bağlı əhvalatı danışır və ona hər gün ilana süd aparıb qızıl götürməyi tapşırır.

Odunçu həccə gedir. Oğlu birinci gün südü aparıb ______ götürür, ikinci gün, üçüncü gün... Sonra: “Yaxşısı budur, ilanı güdüm, qızılların yerini öyrənib onu öldürüm”, – deyə fikirləşir. Ertəsi gün südü aparır, sonra ilanı güdür. İlan yuvasına girmək istəyəndə əlindəki balta ilə onu vurur. Balta ilanın quyruğunu kəsir. İlan çevrilib oğlanı sancır. Çox keçmir ki, oğlan ölür.

Odunçu həcdən qayıdır. Əhvalatdan xəbər tutub kədərlənir. Ancaq yenə də ilana süd aparır. İlanı görəndə: “Gunah mənim oğlumdadır. Gəl hər şeyi unudaq, əvvəlki kimi mən sənə süd gətirim, sən də qızıl”, – deyir. İlan isə: “Yox, məndə quyruq, səndə oğul yarası var. Bizim dostluğumuz baş tutmaz. Yaxşısı budur sən də, mən də ruzimizi başqa yerdə axtaraq”, – deyir və çıxıb gedir.

**Azərbaycan xalq nağılı**

**SÖZLÜK**

odunçu – дровосек
qıvrılan – скручивающийся
ertəsi gün – следующий день
həcc – паломничество, хадж
ruzi – хлеб насущный, пропитание

**SÖZ EHTİYATI**

yerə-göyə sığmır – нет предела
halına acımaq – жалеть
özünə gəlmək – приходить в себя
güdmək – следить

**1.** Nağıldakı odunçunun yaxşı adam olduğunu onun hansı hərəkətlərindən bilmək olar?

**2.** “Yox, məndə quyruq, səndə oğul yarası var. Bizim dostluğumuz tutmaz”-fikrini necə başa düşürsünüz? İlan haqlıdırmı? Debata qoşulun.

Çap üçün deyil

**3.** Mətnə hansı atalar sözü uyğundur?
A) Arifə bir işarə kifayətdir.
B) Artıq tamah baş yarar.
C) İlan qabığını dəyişər, xasiyyətini dəyişməz.

**4.** Hər iki sütundan uyğun gələn sözləri işlətməklə birləşmələr düzəldib cümlələrdə işlədin. Cümlələri dəftərinizə yazın.

| | |
|---|---|
| kasıb | oğlan |
| qıvrılan | yarası |
| tamahkar | dərdi |
| quyruq | odunçu |
| oğul | ilan |

**5.** Aşağıdakı cümələnin tərcüməsi ilə bağlı düzgün cavab hansıdır?
**Наша дружба не состоится.**
A) Bizim dostluğumuz əbədidir.
B) Bizim dostluğumuz baş tutmaz.
C) Bizim dostluğumuz daha da möhkəmlənəcək.

**6.** Mətndəki göy rəngdə verilmiş sözü hansı sözlə əvəz etmək olar?
A) yolla B) beləliklə C) nəhayət Ç) deməli

**7.** Mətndəki yaşıl boşluqların yerinə uyğun sözlər artırmaqla cümlələri oxuyun və tərcümə edin.

**8.** Nöqtələrin yerinə müvafiq şəkilçilər əlavə edərək birləşmələri dəftərinizə köçürün.

| | |
|---|---|
| **Mənim rahatlıq..** | **Bizim rahatlıq..** |
| Sənin rahatlıq.. | Sizin rahatlıq.. |
| Onun rahatlıq.. | Onların rahatlıq.. |

**9.** Verilmiş sözləri tərcümə edin və müxtəlif formalarda cümlələrdə işlədin. Sözlərdəki son samitin dəyişməsi üzərində müşahidə aparın.
дружба, жажда, хвост, бедность

## TAP GÖRƏK

**10.** Tapmacanı cavablandırın. Altından xətt çəkilmiş sözlərin əksmənalı qarşılığını tapıb cümlələrdə işlədin:

Ağzın açar,
Zəhər saçar,
Hamı görüb,
Geri qaçar.

Çap üçün deyil

# QONAQ

Gündüzgil hər il yayda bağa köçürlər. Onların həyətindəki alça ağacı bu il çoxlu bar gətirmişdi. Anası Gündüzə tapşırmışdı ki, ağacı qorusun. Meyvəsini uşaqlar dərib yerə atmasınlar, mürəbbə bişirəcəkdir.

Buna görə də Gündüz çox vaxt həmin ağacın altında olardı.

Bir dəfə Gündüzün yoldaşı Kamil alça ağacının yanından keçirdi. O, səs eşidib ayaq saxladı. Yuxarı baxanda gördü ki, alça ağacının budağında balaca bir oğlan oturub. Oğlan həm alça yeyir, həm də yemədiklərini yerə atırdı. Kamil oğlanı tanımadı və dedi:

– Ay oğlan, düş aşağı! Axı sən budağı sındırırsan!

Ağacdakı* oğlan Kamilə qulaq asmadı. Kamil tez ağacdan* uzaqlaşdı. Bir azdan o, Gündüzlə geri qayıtdı.

Ağaca çıxmış oğlan alçaları yeyəndə budaqlardan birini sındırmışdı. Oğlan hələ də budaqların üstündə idi.

Gündüz Kamilə dedi:

– Bu, Səlim müəllimgilə gələn qonaqdır. Qonağa nə deyim? İcazəsiz ağaca çıxıb budaqları sındırmaq, bəlkə, onun xoşuna gəlir...

Gündüzün sözləri oğlanı bərk utandırdı. O, bir söz deməyib aşağı düşdü.

Sabir Süleymanlı



**SÖZ EHTİYATI**

bar gətirmək – принести плоды

**SÖZLÜK**

qorumaq – беречь
yemədikləri – несъеденные
sındırmaq – сломать
uzaqlaşmaq – отдалиться
icazəsiz – без разрешения

Çap üçün deyil

**11.** Hekayədə təsvir olunan hadisə hansı fəsildə baş verib?

**12.** “Qonaq” hekayəsindəki hadisələri hansı ardıcıllıqla düzmək olar?
1) Gündüzün sözləri oğlanı bərk utandırdı.
2) Alça ağacı bu il çoxlu bar gətirmişdi.
3) Kamil oğlanı tanımadı.
4) Oğlan Səlim müəllimgilə gələn qonaqdır.
5) O, bir söz deməyib aşağı düşdü.
A) 1, 2, 3, 4, 5 B) 2, 3, 4, 1, 5 C) 5, 1, 3, 4, 2

**13.** Necə düşünürsünüz, hekayədəki qonağın səhvi nədə idi?

**14.** Aşağıdakı suallardan hansına hekayədə cavab tapmadınız?
1) Gündüzgilin bağında hansı ağac çoxlu bar gətirmişdi?
2) Kim ağaca çıxmışdı?
3) Bağda daha hansı ağaclar var idi?
4) Ağaca çıxan oğlanı kim tanımışdı?

**15.** Ağacın budaqlarını sındıran uşaqlara qarşı necə hərəkət etmək lazımdır? Bu barədə düşündüklərinizi dəftərinizə yazın və yoldaşlarınızla müzakirə edin.

**16.** Buraxılmış hərfləri əlavə edib, sözləri dəftərinizə köçürün: k, yoxsa y?
bər..dən, çiçə..i, yemədi..ləri, bəzə..li, bişirəcə..lər, köynə..im

**17.** Mətndə göy rəngdə verilmiş sözləri dəftərinizə köçürün və köklərin altından xətt çəkin. Sözlərdə son samitin dəyişməsinin səbəbini izah etməyə çalışın.

**18.** Mətndə müxtəlif formalarda işlənmiş “ağac” sözünün tələffüzü üzərində müşahidə aparın. Üzərində ulduz işarəsi qoyulmuş hal formalarının tələffüzü digərlərindən fərqlənir. Səbəbini izah edin.

## § 11. BABA OTAĞI

Ağca xanım atasının mehriban rəftarından istifadə edərək, onun qucağına atıldı. Sonra başını əyib divanın altına baxdı. Qaraca qızı orada görməyib mat qaldı. Hüseynqulu ağa soruşdu:

– Qızım, nə üçün mat qalmısan? Söhbət elə görək, nə var, nə yox?

Ağca xanım soruşdu: – Ata, sən çoxdanmı burdasan?

– Nahardan sonra gəldim, qızım.

– Sən gələndə qapı açıq idimi?

– Yox, mən özüm açdım.

– İçəridə kim vardı?

– İçəridə bax bu xallı pişik vardı, – bunu deyə-deyə Hüseynqulu ağa

Çap üçün deyil

dal tərəfində qıvrılıb yatmış pişiyi ona göstərdi.

– Qızım, bundan ötrümü soruşdun?

Ağca xanım pişiyi götürüb dedi: – Yox, ata, bundan ötrü soruşmuram.

– Bəs nə üçün soruşursan?

Ağca xanım cavab verməyib fikrə getdi.



– Qızım, nə üçün fikrə getdin? Uşaq atasından söz gizlətməz.

Ağca xanım bilirdi ki, atası arvadının acığına Qaraca qızla oynamağa ona icazə verir. Ona görə sirri açmaq istədi. Atasının boynunu qucaqlayıb dedi:

– Ata, anama deməzsən ki, söyləyim?

– Demərəm, qızım, söylə.

Ağca xanım əhvalatı ona söyləyib soruşdu:

– Ata, bəs Qaraca qız buradan necə çıxmışdır?

– İndi mənim Piri kişi ilə işim var. Sən də mənimlə gedərsən, orada Qaraca qız ilə oynayarsan, həm də onun buradan necə çıxmasını özündən soruşarsan. – Bunu deyən Hüseynqulu ağa divanın üstündən qalxdı.

Ağca xanım şadlığından bilmirdi ki, nə etsin.

Hüseynqulu ağa ilə qızı bağı gəzə-gəzə gəlib Piri kişinin daxmasına çatdılar. Bu vaxt Piri kişi qapısında oturub səbət hörürdü. Qaraca qız da arxda qabları yuyub, daxmaya girirdi. Qaraca qız Hüseynqulu ağanı görüb qorxuya düşdü. O, içəridən döşək gətirib yaşıl otların üstünə saldı. Hüseynqulu ağa oturdu və üzünü qızlara tutub dedi: – Siz də gedin, bağda oynayın.

Ağca xanım və Qaraca qız əl-ələ verib bağda qaçmağa və oynamağa başladılar. Ağca xanım başına gələni Qaraca qıza nağıl etdi, o da Baba otağından necə çıxdığını ona söylədi. Qızlar öz aralarında söz qoydular ki, mümkün olduqca Baba otağında görüşsünlər.

**Süleyman Sani Axundov**

**SÖZLÜK**

rəftar – обращение, поведение
daxma – изба
arx – канава, арык
arvadının acığına – на зло жене

**SÖZ EHTİYATI**

mat qalmaq – удивиться
qıvrılıb yatmaq – спать скомкавшись
qorxuya düşmək – испугаться
başına gələn – случившийся
söz qoymaq – сговориться

Çap üçün deyil

**1.** Mətn üzrə aşağıdakı suallara cavab verin. Hansı suallara cavab tapa bilmədiniz?

1) Ağca xanım nə üçün  divanın altına baxırdı?
2) Ağca xanım Qaraca qızı otaqda görməyəndə niyə mat qaldı?
3) Ağca xanım nə üçün  atasının sualına cavab verməyib fikrə getdi?
4) Ağca xanım hansı şərtlə sirri atasına açdı?
5) Piri kişi Hüseynqulu ağaya nə barədə sual verdi?
6) Qaraca qızla Ağca xanım oynayanda Qara köpək harada idi?
7) Ağca xanım Qaraca qıza nəyi nağıl etdi?
8) Qızlar öz aralarında nəyə söz qoydular?

**2.** Oxuduğunuz mətn üzrə siz bir-birinizə hansı sualları verərdiniz?

**3.** Mətnin sonuncu abzasını rus dilinə tərcümə edin.

**4.** Mətndə qırmızı rəngdə verilmiş sözlərə əksmənalı (antonim) sözlər tapıb deyin. Həmin sözlərlə cümlələri yenidən oxuyun və tərcümə edin.

**5.** "Köməkçi"dən istifadə edərək mətndə yaşıl rəngdə olan söz və ifadələri sinonimləri ilə əvəz etməyə çalışın.

**KÖMƏKÇİ:** razılaşmaq, hörmək, danışmaq, görüşmək, sevincindən, susmaq, buna görə, davranış, yüyürmək, bunun üçün, xoşbəxtlik, nağıl, nahar, hadisə

**6.** Verilmiş əlamətlərə uyğun gələn sözləri tapıb yazın. Son səsin düzgün yazılışına diqqət yetirin.

1) Ən kiçik pul vahidinin adı –
2) Tərəvəzlər yetişdirilən sahə –
3) Yayda yetişən çəyirdəkli meyvə –
4) Suda üzən sarıdimdik ev quşu –
5) Undan bişirilən ən vacib ərzaq –
6) Evdə xor-xor yatan heyvan –

**7.** Mətndə altından xətt çəkilmiş sözlərin yazılışı üzərində müşahidə aparın.

**8.** Aşağıdakı sözləri Azərbaycan dilinə tərcümə edin və düzgün yazılışına diqqət yetirməklə yazın.

флаг, комната, обнять, гость, палец, свобода, ребенок, малина, опора, вышка, мелкий орех, старость, курица, шелк, лист, земля, шапка, сундук

**9.** Aşağıdakı atalar sözlərini siz əvvəlki siniflərdə eşitmisiniz. Oxuyun və səhvləri tapıb düzəldin.

Çap üçün deyil

Dost şad gündə tanınar.
Yolda qardaş, evdə yoldaş.
Hər kəsə özgə balası şirindir.

Dəmiri qəm çürüdər, insanı nəm.
Dəmiri isti-isti döyməzlər.

**10.** Aşağıdakı cümlələrdə qırmızı rəngdə olan sözlərin yazılışı ilə bağlı düzgün variant hansıdır?

1. Ağca xanım şadlı..ından bilmirdi ki, nə etsin. 2. Ağca xanım və Qaraca qız əl-ələ verib bağda qaçma..a və oynama..a başladılar.

1) q, q, q   2) ğ, q, ğ   3) ğ, ğ, ğ   4) ğ, q, ğ

## Ad gününün tarixçəsi

İndi hamının qeyd etdiyi ad gününü əvvəllər yalnız fironlar və onların oğlan övladları keçirirmiş. İlk ad günləri Misirdə qeyd olunmağa başlanıb. Tarixdə yer alan ilk doğum günü yığıncağı Miladdan 3000 il əvvəl yaşamış bir Misir fironuna aiddir. Bu cür tədbirlərdə ailə, dostlar, xidmətçilər, hətta kölələr də iştirak edirmişlər.

İndiki ad günlərimizin ideyası necə yaranıb? Avropada indiki kimi ad günlərinin keçirilməsi on ikinci yüzillikdən sonra başlayıb. Yunanların tort kəsmə adəti sonralar almanlara da keçib. Ancaq tort dedikdə, indi yediyimiz "mərtəbəli", bol kremli, bəzəkli şirniyyat ağlınıza gəlməsin. O zamanların tortu indinin "keks" formasında olub. Bizim bildiyimiz tortlar isə 13-cü əsrdə Almaniyada yaranıb. Almanlar uşaqlarına indikindən də çox diqqət yetirirmişlər. Uşaqların ad günləri az qala festival kimi keçirilirmiş. Səhər sübh yeri ağarmağa başlayan vaxt uşaq yuxudan oyadılırmış. Tortun üzərindəki şamlar axşam yeməyinə qədər daim dəyişdirilərmiş. Axşam yeməyində uşaq şamları söndürür və bayram başlayarmış. Tortun üzərində uşağın yaşından bir ədəd artıq şam qoyularmış. Bu da bir gün "sönəcək" həyatın işığını göstərərmiş. Uşağa həmin gün çoxlu hədiyyələr gələr, ən sevdiyi yeməklər bişirilərmiş. Ad günündə tortun üzərindəki şamları üfürərkən arzu tutmaq və onu heç kimə söyləməmək adətləri də almanlardan keçmişdir.

**SÖZLÜK**

firon – фараон
kölə – раб
qərar – решение
üfürmək – дуть

**SÖZ EHTİYATI**

sübh yeri – раннее утро
ağlına gəlmək – прийти в голову, взбрести на ум
milad – рождество

Çap üçün deyil


56

**11.** Verilmiş cümlədə altından xətt çəkilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etmək olmaz?

Romada imperatorların və dövlət adamlarının ad günləri Senatın qərarı ilə milli bayram elan edilirmiş.

a) əmri b) göstərişi c) xahişi d) sərəncamı

**12.** Hansı sual mətnin məzmununa aid deyil?

A) İlk dəfə doğum günü nə vaxt qeyd edilib?
B) Əvvəllər ad gününü kimlər qeyd edirdilər?
C) Azərbaycanda ilk doğum günü nə vaxt qeyd edilib?

**13.** Mətndə yaşıl hərflərlə verilmiş sözü hansı sözlə əvəz etmək olar?

a) ağalar b) qullar c) qonaqlar

**14.** Siz də ad gününüzü qeyd etməyi sevirsinizmi? Ad günündəki hansı adətlər daha çox xoşunuza gəlir? Düşündüklərinizi dəftərinizə yazın, sonra yoldaşlarınıza oxuyun.

**15.** Ad günündə sinif yoldaşlarınıza açıqca yazmaq üçün aşağıdakı cümlələrdən hansından istifadə etmək olar?

✿ Sənin ad gününü səmimi-qəlbdən təbrik edirəm. Sənin dəftərlərin səliqəli və təzədir. Dərslərində müvəffəqiyyətlər, uğurlar arzulayıram. Bu dərsin mövzusu sənə tamamilə aydın oldu. Dünyanın ən gözəl neməti olan cansağlığı nəsibin olsun. Yolu keçərkən çox diqqətli ol! ✿

**16.** Mətndəki sarı boşluğun yerinə hansı sözü yazmaq olar?

a) üfürərək b) götürüb c) yandırıb d) yelləyib

**17.** Cümlələri köçürün, isimlərin altından xətt çəkin və xüsusi isimləri seçib göstərin. Onların nə bildirdiyini izah edin.

1) İlk ad günləri Misirdə qeyd olunmağa başlanıb. 2) Romada imperatorların və dövlət adamlarının ad günləri Senatın qərarı ilə milli bayram elan edilirmiş. 3) Sezarın ad günü əsl festivala dönürmüş. 4) Avropada indiki kimi ad günlərinin keçirilməsi on ikinci yüzillikdən sonra başlayıb. 5) Bizim bildiyimiz tortlar 13-cü əsrdə Almaniyada yaranıb.

**18.** Çiçək işarələrinin yerinə hansı hərflərin yazılmalı olduğunu deyin və fikirlərinizi əsaslandırın:

yığınca✿ı, yığınca✿lar, yüzilli✿dən, uşa✿larına, ağarma✿a, artı✿, arzu tutma✿, yemə✿lər

Çap üçün deyil

# § 12. ARILIQDA

Bir azdan Hüseynqulu ağa ilə Piri kişi gəlib qızlar oturduğu yerə çıxdılar. Onlar qızları götürüb arı pətəklərinin tamaşasına getdilər. Qızlar arıların işləməsinə çox həvəslə baxırdılar.

Bir pətəyə çatdıqda gördülər ki, buranın arıları pətəyin ağzında qarışqa kimi qaynaşırlar. Bunu gördükdə Piri kişi dedi:

– Yaxşı vaxtda gəlmişik, bu saat buranın arısı beçə verəcəkdir. Sonra üzünü Qaraca qıza tutub dedi. – Qızım, qaçaraq get, evimizdən o gün sənə göstərdiyim ağ torbanı götür gəl.

Qaraca qız yüyürərək getdi. Bir azdan arılar pətəkdən dəstə-dəstə çıxıb uçmağa başladı. Piri kişi onların dalınca düşdü. Axırda arılar bir gilas ağacının başına qondular. Bir dəqiqə keçmədi ki, bir-birinin üstünə qonaraq üzüm salxımı kimi ağacdan sallandılar. Bu zaman Qaraca qız torbanı gətirdi. Piri kişi Ağca xanıma dedi:



– Ağca xanım, hər yuvada bir dişi arı olar, ona şah deyərlər. Bir yuvada iki şah olanda dava olur. Yeni doğmuş şah məcbur olur ki, uçub başqa yuva arasın. O vaxt onun dalına yeni törəmiş arılar düşürlər. Bax gör yeni şahın qoşunları onu nə cür əhatə etmişlər. İndi biz onu tutub təzə arı səbətinə salmalıyıq. Onda arılar da onun başına cəm olacaqlar.

Bu sözlərdən sonra Piri kişi üzünü Qaraca qıza tutub dedi:

– Qızım, çıx ağaca və bu sallanan arıları torbanın içinə salıb ağzını büz.

Qaraca qız pişik kimi ağaca dırmaşmağa başladı. Ağca xanım Piri kişidən soruşdu:

– Baba, o arılar Qaraca qızı sancmazlarmı?

– Yox, xanım, arını incitməsən və ondan qorxmasan, adamı sancmaz.

Qaraca qız arı dəstəsini torbaya salıb ağzını büzdü. Piri kişi dedi:

– İndi, qızım, budağı silkələ, arılar torbaya tökülsün. Ya da budağı sındır, torbanın içində qalsın.

Qaraca qız budağı sındırdı və aşağı endi. Piri kişi torbanı ondan aldı. Hamı arılığa gəldi. Piri kişi torbadakı arıları bir boş pətəyə boşaltdı.

– Ağca xanım, bu pətəyi sənin adına saxlayacağam. Balı da öz ixtiyarında olacaqdır. Haçan könlün bal istədi, gələrsən, kəsib verərəm.

Ağca xanım çox şad oldu. Hüseynqulu ağa dedi:

– Qızım, bu da sənin arın, indi gəl gedək, bir azdan anan gələcək.

**Süleyman Sani Axundov**

Çap üçün deyil

## SÖZLÜK

| | |
|---|---|
| beçə – молодой пчелиный рой | torba – мешок |
| dişi – самка | törəmək – порождаться |
| büzmək – сморщить | silkələmək – трясти |

## SÖZ EHTİYATI

| | |
|---|---|
| məcbur olmaq–быть вынужденным | aramaq – искать |
| cəm olmaq – собраться | ixtiyar – здесь: распоряжение |

**1.** Aşağıdakı sualların içərisindən düzgün hesab etdiklərinizi seçib deyin. Hansı suallar düzgün formalaşdırılmayıb? Həmin sualların düzgün variantını səsləndirin.

1) Qızları götürüb apardı hara Hüseynqulu ağa?
2) Tamaşasına gələnlər arı pətəklərinin nə gördülər?
3) Piri kişi daxmaya göndərdi Qaraca qızı nə üçün?
4) Piri kişi düşdü arıların dalınca niyə?
5) Qaraca qız nə üçün ağaca çıxmalı oldu?
6) Piri kişi torbanı Qaraca qızdan alıb nə etdi?
7) Ağca xanım nəyə görə çox şad oldu?

**2.** Mətnin məzmununu aşağıdakı plan əsasında danışa bilərsinizmi?

1) Arı pətəklərinə tamaşa.
2) Piri kişinin arıların dalınca düşməsi.
3) Piri kişinin izahatı.
4) Qaraca qızın ağaca dırmaşması.
5) Yenidən arılıqda.

**3.** Mətndə qırmızı rəngdə verilmiş söz və ifadələri sinonimləri ilə əvəz edib cümlələri oxuyun. Cümlələrin mənasında dəyişiklik olub-olmadığı ilə bağlı fikrinizi bildirin.

**4.** Mətndə yaşıl rəngdə verilmiş sözlər haqqında doğru cavabı göstərin və fikrinizi əsaslandırın.

a) çoxmənalı sözlərdir b) antonim sözlərdir c) yaxınmənalı sözlərdir

**5.** Aşağıdakı sözlərə əksmənalı sözlər tapıb deyin və tərcümə edin.
dost, yatmaq, danışmaq, isti, böyük, hündür, gecə, enmək, baş, sülh, geniş, ağlamaq, çətin, uzun

**6.** Mətndə altından xətt çəkilmiş isimləri əlaqələndikləri sözlərlə birlikdə oxuyun. Eyni şəkilçili sözləri ayrı-ayrı sütunlarda yazın və sözlərin dəyişməsi üzərində müşahidə aparın.

Çap üçün deyil

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz daim öz nitqinizdə əşya bildirən sözlərdən müxtəlif formalarda istifadə edirsiniz. Azərbaycan dilində isimlər altı hal üzrə dəyişir. Artıq halların adları və şəkilçiləri ilə tanış olmağın vaxtı çatıb. Diqqətli olun və yadda saxlayın:

Adlıq hal (именительный) kim?, nə?, hara?
Yiyəlik hal (родительный) kimin?, nəyin?, haranın? -ın, -in, -un, -ün
Yönlük hal (дательный) kimə?, nəyə?, haraya? -a, -ə,
Təsirlik hal (винительный) kimi?, nəyi?, haranı? -ı, -i, -u, -ü
Yerlik hal (творительный) kimdə?, nədə?, harada? -da, -də
Çıxışlıq hal (предложный) kimdən?, nədən?, haradan? -dan, -dən

**7.** Mətndə altından xətt çəkilmiş sözlərin ismin hansı halında olduğunu deyin və fikrinizi əsaslandırın.

**8.** Cümlələrdəki söz sırasını qaydaya salın və köçürün.

Səməd 1954-cü ildə iki gün qonaq qaldı bağımızda. İki gün getmədilər Saşa ilə Səməd heç yana. Yazıçıların qurultayına hazırlaşırdı o zaman Səməd Vurğun. Arabir onlar çıxırdılar bağa gəzməyə. Söhbət edə-edə gəzinərdilər ədəbiyyatdan, tarixdən.

***NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN***

***Bal verən arının bircəsi yəqin,***
***Yaxşıdır minindən bal yeyənlərin.***

**9.** Cümlələrin Azərbaycan dilinə tərcüməsi hansı variantda düzgün verilib?

**Чернушка как кошка стала карабкаться по дереву. Она отломила ветку и спустилась вниз.**

A) Qaraca qız pişik kimi ağaca dırmaşdı. O, budağı sındırmaq istədi.
B) Qaraca qız ağaca dırmaşmağa başladı. O, budağı sındırırdı .
C) Qaraca qız pişik kimi ağaca dırmaşmağa başladı. O, budağı sındırdı və aşağı endi.

**10.** Tapmacaları oxuyun. Onların hər üçünün cavabı eyni ola bilərmi? Düşünün və cavablarınızı əsaslandırmağa çalışın.

Bir balaca xallı şey,
Üstü qızıl allı şey,
Qoydu bizim dolçaya,
Şirin, sarı, dadlı şey.

Bu meşə gül meşəli,
Altı tər bənövşəli.
Bir kişinin min oğlu,
Hamısı bir peşəli.

Qanadı var uçmağa,
İynəsi var sancmağa.
Sevir işi, zəhməti,
Odur ki, var hörməti.

Çap üçün deyil

**11.** Təmsili oxuyun və oradakı əsas fikri müəyyənləşdirin.

## AYI VƏ ŞİR

**Əlbir olub bir ayı bir şir ilə,**
**Ovladılar dovşanı tədbir ilə.**
**Olmadılar razı onu bölməyə,**
**Çıxdı iş axır ölüb-öldürməyə;**

**Çeynədilər, dişlədilər, diddilər,**
**Bir-birini al-qana qərq etdilər.**
**Özlərini taqətdən saldılar,**
**Hər biri bir səmtə düşüb qaldılar.**

**Tülkü uzaqdan görüb bu haləti,**
**Bildi ki, yox heç birinin taqəti.**
**Gəldi götürdü ovu, etdi fərar,**
**Həsrət ilə baxdı dalınca ... .**

**Abbas Səhhət**



Çap üçün deyil

**SÖZLÜK**

tədbir ilə – спланированно
çeynəmək – жевать, грызть
didmək – раздирать
səmt – направление
taqət – сила

**SÖZ EHTİYATI**

əlbir olmaq – сговориться
al-qana qərq etmək – утопить в крови, убивать
taqətdən salmaq – обессилить
halət – состояние
fərar etmək – сбежать

**12.** Düzgün cavabı müəyyənləşdirin və boşluğun yerinə yazın.
Şeir ayı və şir haqqında olan ______ .

a) əfsanədir b) nağıldır c) təmsildir d) lətifədir

**13.** Təmsili hansı sözlə bitirmək olar?

a) onlar b) şirlər c) heyvanlar d) uşaqlar

**14.** Təmsildə təsvir edilən tülkü hansı insanların ümumiləşmiş obrazıdır? Müzakirəyə qoşulun.

**15.** Tərcümə edin və cümlələrdə işlədərək dəftərinizdə yazın.
поймали зайца, не согласились делить, увидел из далека, забрал добычу

**16.** Hansı şəkilçiləri artırsaq, sözün sonundakı samit dəyişər?

A) 1, 4, 6
B) 2, 5
C) 3, 4
Ç) 5, 6




**17.** Şeirdəki hansı sözlərin sonundakı "ə" saitini tələffüz etməsək, həmin sözlər "k" samiti ilə bitməli olacaqdır?

**18.** Hansı sözü həm xüsusi, həm də ümumi isim kimi işlətmək olar?

a) taqət b) həsrət c) halət d) tədbir

**19.** Xüsusi isimlərin işləndiyi cümlələri seçib dəftərinizə yazın.
1) Lalə yazda açır. Lalənin səhvi dərsi bilməməsi idi.
2) İstisu müalicə mərkəzidir. Soyuq havada isti su içmək lazımdır.
3) Mətanətlə vuruşan əsgərlərimiz yüksəkliyi ələ keçirdilər. Mətanətlə eyni partada oturmaq onun xoşuna gəlirdi.

**20.** Hansı söz təmsilin məzmununa uyğundur?
Ayı, şir, tülkü, ...

a) dovşan b) keçi c) pələng d) pişik

Çap üçün deyil

# § 13. ŞAHZADƏ VƏ BALACA ÇOBAN

**1-ci hissə**

Bir zamanlar bir ölkənin çox ağıllı bir padşahı varmış. Bu padşahın gözünün ağı-qarası tək bir oğlu varmış. Padşah yeganə oğlunu canından da artıq sevərmiş.

Bunu bilən saray əyanları padşahın xoşuna gəlmək üçün balaca şahzadəni elə hey tərifləyərmişlər. Deyərmişlər ki, hələ yer üzünə padşahın oğlundan gözəl, qəşəng, ağıllı, zəkalı oğul gəlməyib.

Zaman keçdikcə balaca şahzadə deyilənlərin hamısının doğru olduğuna inanmağa başlayır.

Padşah yeganə övladının o biri uşaqlardan qabiliyyətcə ______ üstün olub-olmadığını bilmək üçün tez-tez balacalar arasında rəsm, hekayə, mahnı yarışları keçirərdi. Ancaq bu dəfə də hakimlik eləyənlər padşahın xoşuna gəlsin deyə həmişə birinci yeri balaca şahzadəyə verərmişlər.

Axırda padşah da inanıbmış ki, bu balaca şahzadə, doğrudan da, bütün ______ həm ağıllıdır, həm də bacarıqlı.



Bir gün padşah çöldə gəzib dolaşarmış. Birdən qulağına gözəl bir tütək səsi gəlir. Tütək çalan o qədər gözəl çalırmış ki, padşah axırda dayana bilmir, səs gələn tərəfə gedir. Baxır ki, balaca bir çoban tütəyini çalır.

Padşah üzünü çobana tutub:

– Sən nə gözəl tütək çalırsan, – deyir. Sonra isə ondan soruşur: – Tütəkdə belə gözəl çalmağı mənim oğluma da öyrədə bilərsənmi?

Çoban:

– Əlbəttə, böyük həvəslə öyrədərəm, – cavabını verir.

Padşah balaca çobanı saraya gətirir. Çobanla balaca şahzadə az bir zamanda dost olurlar. Çoban başlayır şahzadəyə tütək çalmağı öyrətməyə. Ancaq balaca şahzadə tütək çalmağı öyrənə bilmir ki, bilmir. Bircə günün içində şahzadənin canı sıxılır. Üzünü çobana tutub deyir:

– Sən tütək çalmağı mənə yaxşı öyrədə bilmirsən.

Çap üçün deyil

Çoban isə ______ deyir:

– Mən yaxşı öyrədirəm. Amma öyrənmək üçün də vaxt lazımdır. Elə bircə gündə öyrənmək olmaz.

Şahzadə isə deyir:

– Mən başqalarının tayı deyiləm. Hər şeyi həm tez, həm də gözəl öyrənirəm.

______ yer üzündə mənim qədər qabiliyyətli, mənim kimi ağıllı birisi yoxdur.

**SÖZLÜK**

yeganə–единственный
əyan – дворянин
şahzadə – принц
zəkalı – умный
tütək – свирель
təmkinlə – сдержанно

**SÖZ EHTİYATI**

gözünün ağı-qarası – единственный
zaman keçdikcə – со временем
gəzib dolaşmaq – гулять
qulağına gəlmək – услышать
canı sıxılmaq – скучать

**1.** Mətnin məzmununa uyğun olmayan sualları səsləndirin.

1) Saray əyanları balaca şahzadəni niyə çox tərifləyirdilər?
2) Padşah nə üçün tez-tez yarışlar keçirərdi?
3) Niyə balaca çoban şahzadəyə tütək çalmağı öyrətməyə razılıq vermir?
4) Niyə şahzadə həmişə üçüncü yer tutarmış?
5) Padşah tütək çalana harada rast gəlir?
6) Tütək çalan kim idi?
7) Balaca çobanı sarayda necə qarşılayırlar?

**2.** Mətndəki yaşıl boşluqların yerinə aşağıdakı sözlərdən uyğun gələni qoyub cümlələri oxuyun.

**KÖMƏKÇİ:** təmkinlə, doğrudan da, ancaq, çünki, haqqında, uşaqlardan

**3.** Birləşmələri Azərbaycan dilinə yazılı tərcümə edin.

| | |
|---|---|
| единственный сын – | умный пастух – |
| талантливый принц – | звук свирели – |
| самый способный – | маленький пастух – |

**4.** Cəmdə işlənmiş isimlərin altından xətt çəkməklə aşağıdakı cümlələri dəftərinizə köçürün.

1) Saray əyanları padşahın xoşuna gəlməyə çalışırdılar. 2) Yarışa baxmağa çoxlu adam toplaşmışdı. 3) Padşah inandı ki, şahzadə bütün uşaqlardan ağıllıdır. 4) Xalq çobanın şahzadədən daha ağıllı olduğunu görür.

Çap üçün deyil

**5.** Uyğun şəkilçiləri artırmaqla cümlələri tamamlayın və yazın.

| | |
|---|---|
| Mən bacarıqlı.. . | Biz bacarıqlı.. . |
| Sən bacarıqlı.. . | Siz bacarıqlı.. . |
| O, bacarıqlı.. . | Onlar bacarıqlı.. . |

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, mətndəki "tütək" sözünün yazılışına diqqət yetirsəniz, görərsiniz ki, **sonu "k" samiti ilə bitən** sözlərə saitlə başlayan şəkilçi artırıldıqda **"k" "y"-ya** çevrilir. Məsələn: çiçək – çiçəyin, çiçəyim, çiçəyi, çiçəyiniz... Sözə samitlə başlanan şəkilçi qoşulduqda isə sözün son samiti dəyişmir. Məsələn: çiçəklər, çiçəkdən, çiçəkdir, çiçəklik...

**6.** Oxuyun və əlamətlər əsasında sözləri tapıb yazın. Son səsin düzgün yazılışına diqqət yetirin.

1) Unu nə ilə ələyirlər?
2) Qarlı havalarda uşaqlar nə ilə sürüşürlər?
3) Əlin qola birləşdiyi yer necə adlanır?
4) Barmağa taxılan qızıl əşya necə adlanır?
5) Yazda və payızda tez-tez nə əsir?
6) Soyuq havalarda əlimizə nə geyinirik?

**7.** Aşağıdakı cümlədə altından xətt çəkilmiş sözlərlə bağlı düzgün cavab hansıdır? Fikrinizi əsaslandırın.

Deyərmişlər ki, hələ yer üzünə padşahın oğlundan gözəl, qəşəng, ağıllı, zəkalı oğul gəlməyib.

a) sinonim  b) antonim  c) omonim  d) çoxmənalı söz

## ŞAHZADƏ VƏ BALACA ÇOBAN

**2-ci hissə**

Şahzadə birinci dəfə idi elə bir adamla qarşılaşmışdı ki, onu heç də hər kəsdən üstün qabiliyyətli saymırdı. Buna görə də çobana bərk əsəbiləşərək oradan ______ və bir daha çobanla danışmamışdı.

Şahzadənin çobandan küsdüyünü görən o biri uşaqlar da şahzadəyə baxıb çobandan küsürlər. Çobanı saraydan uzaqlaşdırmaq üçün padşahın hüzuruna gedirlər:

– Şah sağ olsun, gətirdiyiniz balaca çoban şahzadəni yaman qısqanır. Onun üçün də şahzadəmizin elədiklərinin heç birini bəyənmir. Yaxşısı budur ki, çobanı burdan uzaqlara göndərək, – deyirlər.

Padşah balaca çobanı yanına çağırıb şahzadənin könlünü niyə sındırdığını soruşur.

Çap üçün deyil



Balaca çoban isə:

– Padşah sağ olsun, balaca şahzadəyə əsl pislik eləyənlər ona yalan söyləyənlərdir. Bu günə qədər onu yalandan ancaq təriflədiklərinə görə şahzadəmiz də elə bilib ki, hamıdan bacarıqlı, hamıdan ağıllı bir tək özüdür. ______ öz üzərində çalışmayıbdır. Əgər sözün düzünü söyləsəydilər, şahzadə, bəlkə, daha çox öz üzərində çalışar, doğrudan da, hər kəsdən üstün ola bilərdi.

Şahzadə özünü saxlaya bilməyib qışqırdı:

– Mən onsuz da hər kəsdən artığam. Səndən isə qat-qat güclüyəm. Heç bir uşaq mənimlə güləşə bilməz. İstəyirsən gəl, səninlə bir güləşək.

Balaca çoban:

– Yox, olmaz. Mən bir çobanam. Sizinlə güləşmək istəmirəm, – deyir.

______ padşah çobana əmr eləyir ki, şahzadə ilə güləşsin.

Çoban da çox çəkmir ki, padşahın oğlunun kürəyini yerə vurur.

Həmin vaxtdan da şahzadə çobanın haqlı olduğunu başa düşür. Və o ancaq çobanla dostluq eləyir, təkcə onun sözünə inanır.

Türk dilindən çevirən:
**Mehman Musaoğlu**

**SÖZLÜK**

qabiliyyətli – способный
qısqanmaq – ревновать
bəyənmək – одобрять
güləşmək – бороться

**SÖZ EHTİYATI**

padşahın hüzuruna – в покои к падишаху
qat-qat güclü – намного сильнее
könlünü sındırmaq – обидеть
öz üzərində çalışmaq – работать над собой
kürəyini yerə vurmaq-повалить

**8.** Mətndəki yaşıl boşluqların yerinə aşağıdakı sözlərdən uyğun gələni qoyub cümlələri oxuyun və tərcümə edin.

**SÖZLƏR:** doğrudan da, ancaq, onun üçün də, çünki, uzaqlaşmış

**9.** Şahzadənin özündən razılığını ifadə edən cümlələri mətndən seçib səsləndirin.

Çap üçün deyil

**10.** Balaca çobanın hansı sözlərinə əsasən onun çox ağıllı olduğunu bilmək olar? Həmin hissəni mətndən tapıb oxuyun.

**11.** Aşağıdakı atalar sözlərini tamamlayın və dəftərinizə yazın.

1) Yol böyüyündür, – –. 2) Ayağı nərdivana – –. 3) Ad adamı bəzəməz, adam – –. 4) Ağac bar verəndə başını – –. 5) Sözün düzünü – –. 6) Heç kəs öz ayranına – –. 7) Ağıl yaşda olmaz – –. 8) Yalan ayaq tutar, – .

**12.** Mətnə əsasən cümlələrin ardıcıllığını təyin edin.

1) Həmin vaxtdan şahzadə çobanın haqlı olduğunu başa düşür.
2) Bir zamanlar ölkənin çox ağıllı padşahı var imiş.
3) Balaca şahzadə tütək çalmağı öyrənə bilmir.
4) Saray əyanları padşahın xoşuna gəlmək üçün şahzadəni tərifləyirlər.
5) Şahzadəyə pislik edənlər ona yalan söyləyənlərdir.

A) 2, 4, 3, 5, 1     B) 1, 2, 3, 4, 5     C) 4, 3, 2, 1, 5

**13.** Sxemləri tamamlayın və oxuyun.

balaca — şəhər

bacarıqlı

ağıllı

dərin

isti

tənbəl

## § 14. TANIŞLIQ

Qasım dəcəl oğlan idi. Sözə baxmırdı. Qışda qar yağanda tində durub qızlara qartopu atırdı. Bu xasiyyətinə görə onu ata-anası, müəllimləri çox danlamışdılar. Amma o, öz dəcəlliyindən hələ də əl çəkmirdi.

Bir gün Qasımın atdığı top birinci sinifdə oxuyan Firuzəyə dəydi. O ağlaya-ağlaya evlərinə qaçdı. İki gün dərsə gəlmədi.

İki gündən sonra Firuzə məktəbə gəldi. Dərs qurtardıqdan sonra paltosunu geyib yola çıxdı. Ancaq evə tək getməyə qorxurdu. Elə bu an çiynində çanta olan balaca bir oğlanın yaxından keçdiyini gördü. Firuzə onu səsləyib dedi:

– Ay oğlan, evə gedirsən?

– Bəli, necə?

– Zəhmət olmasa, məni də <u>ötür</u>. Orada, bax o tinin başında bir pis oğlan adamı qartopu ilə vurur.

Oğlan təəccüblə Firuzəyə baxdı, xeyli fikirləşdi, sonra qətiyyətlə dedi:

– Gedək.

Çap üçün deyil

Onlar tini keçdilər. Firuzə oğlana dedi:

– Sağ ol, oğlan! Buradan o yana özüm tək gedə bilərəm.

Qasım Firuzədən ayrılıb birbaş evlərinə getdi. Bu hadisədən sonra bir daha tində gizlənib qızlara qartopu atmadı.

**İsa Hümmətov**

**SÖZLÜK**

dəcəl – шалун, озорник
tin – угол
danlamaq – порицать
ötürmək – провожать
birbaş – прямо

**SÖZ EHTİYATI**

sözə baxmamaq – не слушаться
qətiyyətlə – решительно
əl çəkməmək – не отставать

**1.** Mətndə altından xətt çəkilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etmək olar?

a) qarşıla b) yola sal c) apar d) göndər

**2.** Aşağıdakı variantlardan hansı mətnin məzmununa uyğundur?

A) Qasım danlanmaqdan qorxurdu, ona görə qartopu atmadı.

B) Firuzəyə yazığı gəldiyi üçün Qasım ona qartopu atmadı.

C) Firuzənin dəcəl oğlan haqqında söylədiklərindən Qasım özünə nəticə çıxartdı.

**3.** Cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin.

1) Гасым был очень непослушным.

2) Спустя два дня Фируза вернулась в школу.

3) Мальчик удивленно посмотрел на неё, потом ответил.

**4.** “Heyrətlə” sözü mətndəki hansı sözün qarşılığıdır?

**5.** Hansı dəcəl hərəkətlər başqalarına narahatlıq gətirir? Debata qoşulun və fikirlərinizi əsaslandırın.

**6.** Mətndən kimə?, nəyə?, haraya? suallarına cavab verən sözləri seçib ayrı-ayrı sütunlarda dəftərinizə yazın.

**7.** Müvafiq şəkilçiləri artırmaqla birləşmələri köçürün.

| | |
|---|---|
| mənim xasiyyət.. | bizim xasiyyət.. |
| sənin xasiyyət.. | sizin xasiyyət.. |
| onun xasiyyət.. | onların xasiyyət.. |

**8.** Aşağıdakı sözləri “h” səsini düzgün tələffüz etməklə oxuyun və mənalarını izah edin, bir neçəsini cümlədə işlədin.

həyəcan, hörük, hinduşka, həndbol, mehriban, qohum, heca, bahar, sərhəd, hamam, müharibə, məhəbbət, hədiyyə, hiss etmək, hərdən

Çap üçün deyil

# DÖRD ARZU

Azad qış tətili günlərində Şamaxıya dayısıgilə getmişdi. Bütün günü uşaqlarla qartopu oynayır, qaradamı düzəldir, xizəklə təpədən sürüşürdü.

O, yanaqları şaxtadan qızarmış, şən halda qaçaraq atasına yaxınlaşdı:

– Ata, qış necə də gözəldir! Kaş həmişə qış olaydı!

– Oğlum, öz arzunu dəftərçənə yazsaydın, yaxşı olardı, – deyə atası cavab verdi.

Azad təəccüblənərək arzusunu dəftərçəyə yazdı.

Bahar gəldi. Azadın arzusu ilə atası onu tətildə yenə dayısıgilə apardı. Azad bütün günü uşaqlarla yaşıl, güllü-çiçəkli çəmənlikdə kəpənəklərin dalınca qaçırdı.

Uşaq sevincək halda öz hisslərini atası ilə bölüşdü:

– Mən istəyirəm ki, həmişə bahar olsun. Dəftəri cırıb tulladı.

Atası onun bu arzusunu yenə dəftərçəsinə yazdırdı.

Azad yayda yenə ailəsi ilə Şamaxıya getmişdi. Bütün günü şənlənir, günəşin parlaq şüaları altında qızınır, istirahət edirdi. Bir gün o, yenə atasına dedi:

– Mən heç belə şənlənməmişdim. Doğrudan da, yay fəsli lap gözəldir.

Azadın bu arzusu da dəftərçəyə yazıldı.

Payız gəldi. Azad payızın gözəlliklərini, təbiətin əlvan rənglərini görərək atasına dedi: “Payız ki fəsillərin ən gözəli imiş!”

Bu zaman atası dəftərçəni çıxarıb oğluna göstərdi.

Azad gördü ki, o hər fəsil üçün eyni tərifli sözlər demişdir.

**SÖZLÜK**

qaradamı – снеговик

tərifli – хваленые

**9.** Atası nə üçün Azadın arzusunu dəftərində yazdırırdı?

**10.** Necə düşünürsünüz, Azadın arzusuna görə hansı fəsil daha gözəldir? Müzakirəyə qoşulun.

**11.** Siz hansı fəsli daha çox sevirsiniz? Sevdiyiniz fəsil barədə fikirlərinizi dəftərinizdə qısaca yazın.

**12.** Tapmacada nədən söhbət gedir? Fikrinizi yoldaşlarınıza söyləyin.

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır.

Üçü yığıb gətirir,
Üçü vurub dağıdır.

Çap üçün deyil

**13.** Aşağıdakı suallara cavab verməyə çalışın:
1) “Yaz” sözünün əvəzinə mətndə hansı söz işlənib?
2) “Soyuqdan” sözünü mətndəki hansı sözlə əvəz etmək olar?
3) “İstək” sözünü mətndəki hansı sözlə əvəz etmək olar?

**14.** Mətndə hansı cümlə artıqdır? Həmin cümləni tapıb səsləndirin.

**15.** Verilmiş sözlərdən cümlələr qurun və yazın.
sevir, Azad, fəslini, bahar,
qartopu, qışda, Uşaqlar, sevirlər, düzəltmək
payız, sevir, Hamı, qızıl, fəslini

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, dilimizdə elə sözlər var ki, onlar **əşya və hadisələrin əlamətini, keyfiyyətini** bildirmək üçün işlədilir. Məsələn: **gözəl** qız, **maraqlı** görüş, **səliqəli** şagird, **geniş** həyət, **qırmızı** moruq, **soyuq** hava...

Əlamət və keyfiyyət bildirən sözlər **sifət** adlanır.

Sifətlər necə?, nə cür?, hansı? suallarından birinə cavab verir və aid olduğu sözdən əvvəl işlənir.

**16.** Əlamət və keyfiyyət bildirən sözləri seçib yazın.
qış, dayısıgil, qartopu, şaxta, şən, gözəl, yaxşı, arzu, dəftərçə, bahar, güllü-çiçəkli, payız, gözəllik, tərifli

**17.** Boşluqların yerinə uyğun sözləri artırmaqla atalar sözlərini köçürün. Onların mənalarına fikir verin:
1) ______ dostun olunca, ______ düşmənin olsun. 2) İlanın ______ da lənət, ______ da. 3) Dostu ______ gündə sınayarlar. 4) ______ başda ağıl olmaz. 5) Dostsuz insan ______ quş kimidir.

**KÖMƏKÇİ:** yaman, ağıllı, qanadsız, ağına, ağılsız, qarasına, acıqlı

**18.** Verilmiş əlamət bildirən sözlərin yaxın mənalı qarşılığını tapın:
səmimi, pinti, zərif, nəhəng, zəngin, bərk, əlvan

**19.** Şeiri oxuyun və əlamət bildirən sözləri seçib uyğun isimlərlə əvvəl birləşmələrdə, sonra isə cümlələrdə işlədin.

### DÖRD KARANDAŞ

Yol üstündə dörd qardaş,
Tapdılar dörd karandaş.
Qırmızını Yay seçdi,
Yaşıl rəngi Yaz aldı.
Ağ rəngi Qış götürdü,
Sarı Payıza qaldı...

**Rafiq Yusifoğlu**

Çap üçün deyil

# §15. QIŞIN SOVQATI

A dağlara yağan qar,
Düzləri də sal yada.
“Gəl-gəl” deyir uşaqlar
Hər bağda, hər bağçada.

Zərif naxışlar kimi
Səpildikcə sən yerə,
Xəyalımda min zəmi
Canlanır birdən-birə.

Pambıqdan ağ paltarın
Qoy bəzəsin hər yanı.
Tarlaların, bağların
Yorğanı ol, yorğanı.

Ayağın altda ağ qar
Xışıldadıqca hərdən,
Pıçıldaşan taxıllar
Gəlib keçir nəzərdən.

Deyirəm yağ, yağ, ey qar!
Göydən yerə pay gətir.
Güllü-çiçəkli bahar,
Bol məhsullu yay gətir.

**Ələkbər Ziyatay**

## SÖZLÜK

düzlər – равнины
tarla – поле
səpildikcə – рассыпаясь
zəmi – нива
xışıldadıqca – шурша
zərif – нежный
naxış – узор
bol məhsul – богатый урожай

## SÖZ EHTİYATI

xəyalında canlanmaq – возникло в воображении
nəzərdən gəlib keçmək – обвести взглядом



Çap üçün deyil

**1.** Necə düşünürsünüz, müəllif "Qışın sovqatı" dedikdə nəyi nəzərdə tutur? Düzgün cavabı göstərin.

A) yay fəslində alacağımız bol məhsulu

B) pambıq kimi ağ qarı

C) uşaqların düzəltdikləri qar topalarını

**2.** Şeirdə qış fəslinin faydasından danışılır. Bunu öz sözlərinizlə çatdıra bilərsinizmi? Düşündüyünüz cümlələri dəftərinizdə yazın.

**3.** Qışda qar ən çox hansı ərazilərə yağır? Bu suala şeirin neçənci bəndində cavab tapdınız? Həmin bəndi əzbər söyləyin.

**4.** Müəllif şeirində yağan qarı nəyə bənzədir? Seçdiyiniz sözləri dəftərinizdə yazın və onları cümlələrdə işlədin.

**SÖZLƏR:** zərif naxışlar, pambıq, tarla, bağlar, yorğan, pıçıldaşan taxıllar, gül-çiçəkli bahar, yay

**5.** Şeirdəki hansı sözlər əksmənalıdır? Onları seçib tərcümələri ilə birlikdə yazın.

**NÜMUNƏ:** dağ-düz (гора-равнина)

**6.** Qış haqqında daha hansı şeirləri bilirsiniz? Yadınıza düşənləri yoldaşlarınıza söyləyin.

**7.** İnsanlar qış fəslində hansı bayramları qeyd edirlər? Bu barədə fikirlərinizi sinif yoldaşlarınızla bölüşün.

**8.** Şeirdə işlənmiş sifətləri seçin. Əlamət və keyfiyyət bildirən sözləri ayrı-ayrı sütunlarda yazın.

**9.** Əşyaları əlamətinə görə təyin edin. Hər bir əşyanı onun əlamətini bildirən sözlə yanaşı yazın.

| | |
|---|---|
| ağappaq, şirin, bərk | xiyar |
| yumru, qırmızı, sulu, turş | uşaq |
| yaşıl, tumlu, sulu, uzunsov | otaq |
| işıqlı, səliqəli, təmiz, geniş | pomidor |
| çalışqan, ağıllı, mədəni, təmizkar | qənd |

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Qışın qarı - yayın barı

Çap üçün deyil

**10.** Verilmiş hər bir sözə onun əlamətini bildirən bir neçə söz artırıb dəftərinizə yazın.

qızılgül  buz  səhər  dağ

## ÖZÜNÜZÜ YOXLAYIN

**1.** Payız ilin digər fəsillərindən nə ilə fərqlənir? Düşündüklərinizi bir neçə cümlə ilə dəftərinizdə yazın.

**2.** Payız vaxtı hər hansı bir meşədə olmusunuzmu? Əgər olmuşsunuzsa, oradakı rəngləri yadınıza salmağa çalışın. Aşağıdakı sözlərin tərcüməsini tapıb yazın.

серый, коричневый, оранжевый, серебристый

**3.** "   … təndirdə,
Ayaqları kəndirdə!" misralarında nöqtələrin yerinə hansı nağıl qəhrəmanının adı yazılmalıdır? Bu nağıl qəhrəmanının ayaqları niyə kəndirlənmişdi? Yadınızda qalanları danışın.

**4.** "Qızıl və ilan" nağılında ilan nə üçün odunçu ilə dostluqdan imtina edir? Fikirlərinizi əsaslandırın və bir neçə cümlə ilə ifadə edin.

**5.** "Ağıllı baş hər şeydən mənfəət götürər" atalar sözünü "Qızıl və ilan" nağılında kimə aid etmək olar? Suala yazılı cavab verməyə çalışın.

**6.** Yoldan keçənlərə qartopu atan oğlan hansı hekayənin qəhrəmanıdır və onun bu hərəkətdən əl çəkməsinə kim səbəb oldu? Bu haqda yazın.

**7.** Keçmişdə ad günlərində bişən tortlar indikindən nə ilə fərqlənib? Bu barədə bildiklərinizi danışın.

**8.** Şahzadə onunla dostluq etmək istəyən uşaqların arasından nə üçün məhz çobanı seçir? Fikirlərinizi qısaca yazın.

**9.** "Ayı və şir" təmsilinin müəllifi kimdir?

A) M.Ə. Sabir  B) N.Gəncəvi  C) A. Səhhət  D) H.Ziya

**10.** Qış fəslinin insanlara gətirdiyi fayda barədə hansı şeirdən məlumat almışsınız? Bu seirdə qışın hansı faydalarından bəhs edilir?

Çap üçün deyil

**11.** "Dörd arzu" mətnində ata dəftərçədə yazdığı sözləri oğluna nə vaxt göstərdi?

A) qış fəsli keçdikdən sonra
B) iki fəsil keçəndən sonra
C) bütün fəsillər haqqında xoş sözlər deyəndən sonra
D) oğlan məktəbi bitirəndə

**12.** "Qonaq" hekayəsində qonağın səhvi nədə idi?

A) Hamıya hörmətsizlik etmişdi.
B) Həyətdəki ağacın budağını sındırmışdı.
C) Ağacın meyvəsini icazəsiz yemişdi.
D) İcazəsiz ağaca çıxmışdı.

**13.** "Qızıl və ilan" mətnində "ilan" sözü ismin hansı hallarında işlənmişdir?

A) adlıq, yiyəlik, yönlük, təsirlik B) adlıq, yiyəlik, yerlik, çıxışlıq
C) adlıq, yönlük, təsirlik, yerlik D) yerlik, çıxışlıq, yönlük

**14.** Qonaq sözünün sonundakı "q" samiti ismin hansı hallarında "ğ" samitinə keçir? Fikrinizi sözü hallandırmaqla əsaslandırın.

**15.** "Şahzadə və çoban" mətnindəki tütək sözündə "k" samiti ismin hansı hallarında "y" samitinə keçmişdir? Həmin sözü hallandırıb dəftərinizə yazın.

**16.** "Ayı və şir" şeirində işlənmiş hansı sözlər yazıldığından fərqli tələffüz olunur? Nümunələrlə göstərin.

**17.** "Ad gününün tarixçəsi" mətnində işlənmiş xüsusi isimləri seçib dəftərinizə yazın. Onların böyük hərflə yazılmasının səbəbini izah edin.

**18.** "Tanışlıq" hekayəsində çıxışlıq halda işlənmiş isimləri seçin və onları cümlədə işlədin.

**19.** "Dörd arzu" mətnindəki ilin fəsillərinin hər birini ayrı-ayrılıqda əlamət bildirən sözlərlə təsvir edin. Cümlələri dəftərinizə yazın.

**20.** "Dörd arzu" mətnində işlənmiş hansı sifətlərin kökü isimdir?

**21.** "Qışın sovqatı" şeirindən əlamət bildirən sözləri seçib yazın. Həmin sözlərin qarşısında suallarını qeyd edin.

**22.** Qarın əlamətlərinə aid deyil.

a) ağ b) soyuq c) şirin d) şaxtalı



Çap üçün deyil

# § 16. TƏZƏ İLDƏ



Ellər-obalar şad olur
Təzə ildə, təzə ildə.
Təzə arzular doğulur
Təzə ildə, təzə ildə!

Gen düzlərin varı artdı,
Könüllər arzuya çatdı.
Hər bir evdə toy-büsatdı
Təzə ildə, təzə ildə!

Üzü güldü hər bir gülün,
Tər budağın, tər sünbülün;
Günlərin qədrini bilin
Təzə ildə, təzə ildə!

Ömrün nurlu səhəri var,
Hər qönçənin bəhəri var.
Hər günün öz zəfəri var
Təzə ildə, təzə ildə!

Boldur Vətənin sərvəti,
Xoşdur insanın niyyəti, –
Daha da artar qüdrəti
Təzə ildə, təzə ildə!

**İlyas Tapdıq**



Çap üçün deyil

## SÖZLÜK

oba – поселение, небольшое село
gen – просторный
toy-büsat – роскошь, торжество
tər – здесь: свежий
qüdrət – могущество
qönçə – бутон
bəhər – плод
zəfər – победа
niyyət – намерение

## SÖZ EHTİYATI

arzuya çatmaq – достичь желаемого
üzü gülmək – радоваться
qədrini bilmək – знать цену

**1.** Sizcə, oxuduğunuz şeirin müəllifi nəyə görə sevinir? Onun sevincini izah edə bilərsinizmi?

**2.** Təzə il hansı fəslə təsadüf edir? Bu fəsli dəftərinizdə təsvir edin.

**3.** Yeni il şənlikləri ərəfəsində daha hansı bayramı qeyd edirik? Bu bayram haqqında danışın.

**4.** Qışın xüsusiyyətlərini sadalayın və hər birini cümlədə işlədərək dəftərinizdə yazın.




**NÜMUNƏ:** sağlamlıq- Qışda qarın yağması insanlara sağlamlıq gətirir.

**5.** Aşağıdakı birləşmələri tərcümə edib yazın:

новые мечты-
светлое утро -
цена счастья -
знать цену-
богатство родины-
добрые намерения-
новый год-
tər sünbül-

**6.** Uyğun gələn sözləri əlavə edib, aşağıdakı cümlələri köçürün.

1) Qış özü ilə bərəkət – .
2) Dağlar, dərələr qarla – .
3) Zərərverici həşəratlar qarın altında – .
4) Kəndlilər qarın yağmasına çox – .
5) Çünki onlar torpaqdan bol məhsul – .

**KÖMƏKÇİ:** götürəcəklər, gətirmişdi, sevinirdilər, örtülmüşdü, qalmışdı

Çap üçün deyil

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Qarlı qış barlı olar.

**7.** Qış fəsli haqqında atalar sözləri toplayın və dəftərinizdə yazın.

## BUNLARI BİLİRSİNİZMİ?

Uşaqlar, bilirsinizmi, əşyanın **əlamət** və **keyfiyyəti** dedikdə nə başa düşülür?

Əlamət  əşyanın **zahiri görünüşü**: rəngi, ölçüsü, forması, həcmi (sarı yarpaq, yumru top, hündür ağac, uzun yol və s.), keyfiyyət isə onun gözlə görünməyən **daxili  xüsusiyyətləri** ilə (acı bibər, şirin çörək, soyuq su, dadlı xörək və s.) bağlı olur.







**8.** Aşağıda verilmiş sözləri tərcümə edib, dəftərinizə yazın, əlamət və ya keyfiyyət bildirdiyini təyin edin.

древний, интересный, высокий, голубой, грамотный, кислый, современный, соленый, пожилой, молодой

**9.** Şəkildəki əşyaların adlarını deyin. Sonra şəkillərə baxın və həmin sözləri əlamət bildirən sözlərlə müxtəlif birləşmələrdə işlədib yazın.



Çap üçün deyil



# GÖYƏRÇİN VƏ QARIŞQA

Meşə göyərçini bir yaz günü su içməyə getdi. Gördü, bir qarışqa suya düşüb çapalayır. Göyərçin tez qarışqanın köməyinə gəldi. Dimdiyinə bir yarpaq alıb suya atdı. Göyərçin sülh quşudur. Amma yarpaq qarışqadan xeyli aralı düşdü. Çayın axarı qarışqanı xeyli uzağa apardı. Bu zaman göyərçin caynağına çöp alıb onu suya atdı. Qarışqa tez çöpə dırmaşdı. Beləliklə, o, ölümdən qurtardı. Sahilə çıxanda qarışqa göyərçinə dedi:

– Məni ölümdən qurtardın. Bir gün olar, mən də sənə kömək edərəm.

Göyərçin qarışqanın sözünə güldü:

– Sən çox kiçiksən, mənə necə kömək edəcəksən?

Göyərçin uçub getdi. Həmin vaxtdan xeyli keçdi. Göyərçin ağacın başında yuvasında rahatca yatmışdı. Bir ovçu onu çoxdan güdürmüş. İstəyirmiş ki, göyərçini diri-diri tutsun. Fürsət idi. Göyərçini yatdığı yerdən götürmək istədi. Ayaq barmağının ucunda ağaca yaxınlaşdı. Əlini yuvaya uzadanda qarışqa ovçunun boynundan bərk dişlədi. Ovçu qışqırdı və əlini çəkdi. O, göyərçini tuta bilmədi. Ovçunun səsinə göyərçin oyandı. Qarışqanı görüb dedi:

– Çox sağ ol, dost. Yaxşılığa yaxşılıq deyiblər.

**Azərbaycan xalq nağılı**



Çap üçün deyil

## SÖZLÜK

çapalamaq – метаться
caynaq – коготь
dırmaşmaq – лазить
diri – живой
boyun – шея
fürsət – подходящий момент

## SÖZ EHTİYATI

çayın axarı – течение реки
güdmək – следить
ölümdən qurtarmaq – спасти от смерти

**10.** Hansı sual mətnin məzmununa uyğun deyil?
A) Qarışqaya hansı quş kömək etdi?
B) Göyərçini kim güdürdü?
C) Göyərçin yarpağı hansı ağacdan qırdı?

**11.** Mətndə hansı cümlə artıqdır? Həmin cümləni tapıb səsləndirin.

**12.** Göyərçin nə üçün sülhün rəmzi sayılır? Bəlkə, bu haqda nə isə bilirsiniz? Müzakirəyə qoşulun. Müəlliminiz sizə kömək edər.

**13.** Mətnin məzmununa hansı atalar sözü daha çox uyğundur?
A) Çörəyi ver çörəkçiyə, bir çörək də üstəlik.
B) Dost dostu dar gündə sınayar.
C) Nə əkərsən, onu biçərsən.

**14.** Mətnə aid suallar tərtib edin və onları dəftərinizdə yazın.

**15.** “İzləyirmiş” sözünü mətndəki hansı sözlə əvəz etmək olar?

**16.** Hər cərgədəki sözlərdən biri fərqlidir. Düzgün cavabları səsləndirin.

| | | | |
|---|---|---|---|
| a) ağıllı | b) göygöz | c) hazırcavab | d) ucaboy |
| a) enli | b) uzun | c) zəhmətkeş | d) hirsli |
| a) zərif | b) dayaz | c) sarışın | d) gen |

**17.** Aşağıdakı sözlərdən hansı sifətdir?
a) yaxşılıq b) kiçik c) xeyli ç) sən

**18.** Sol sütundakı sözlərin əks mənalı qarşılıqlarını sağ sütundan seçin. Sonra antonim cütlükləri dəftərinizə yazın:

| | | | |
|---|---|---|---|
| sakit | mülayim | iri | böyük |
| uzun | nazik | balaca | qısa |
| qalın | xırda | acıqlı | coşqun |

Çap üçün deyil

# § 17. ƏSL DOST



Anası artıq qapıdan çıxırdı. Adəti üzrə bir də səsləndi:

– Elvin, əl çək o göyərçinlərdən! Get, otur dərslərini hazırla!

– Ana, məktəb yoxdur axı. Hansı dərsləri eləyim?

– Götür bədii kitab oxu. Lap quşbaz olub getmisən. Qoy atan gəlsin, deyəcəyəm, aparıb o göyərçinləri Qarqardan o yana uçurtsun.

Elvini fikir apardı: "Görəsən, atam göyərçinləri Qarqardan o yana uçurtsa, gəlib məni tapa bilərlər?" Anasının sözlərindən çox narahat idi. Bir istədi, göyərçinləri qolunun üstünə alıb aparsın qonşu kənddəki Qarqar çayına tərəf ki, qoy yolu öyrənsinlər. Amma qorxdu. Axı onların kəndləri ermənilərlə sərhəddə idi. Düşmən tez-tez kəndi bombalayırdı. Qonşu kəndə isə xeyli yol getməliydi.

Elvinin atası cəbhədə idi. Kəndə gec-gec gəlirdi. "O gələnə qədər quşlarla az oynayaram, anamın da hirsi soyuyar", – deyə öz-özünə fikirləşdi.

Belə düşüncələrlə həyatin kənarındakı quş damına girdi. Göyərçinlər uçuşub çiyninə, başına qondular. Elvin onlara dən, su töküb, içəridəki kötüyün üstündə oturdu. Ovcunu açıb dedi:

– Gəl, Cığalı, gəl sən də ye.

Cığalı onun ən sevimli göyərçini idi. Onu həmişə ovcundan yemləyirdi. Elvin yuxulu idi. Bütün gecəni yatmamışdı. Anası ilə həyatin o başında qazdıqları qazmada oturmuşdu. Ermənilər səhərədək kəndi bombalamış, səhərə yaxın dayanmışdılar. Ona görə də Elvinin oturduğu yerdəcə gözləri yumulurdu:

– Cığalı, doydun? Doydunsa, düş, mən gedim bir az dincəlim.

Cığalı dil bilirmiş kimi yerə düşdü. Elvin qalxıb tez evə yollandı. Yatağına girib, yorğanı başına çəkdi.

Nə qədər yatdığını özü də bilmədi. Birdən kiminsə üzünü qıdıqladığını hiss etdi. Amma gözünü aça bilmədi. Onu yenə qıdıqladılar. Gözünü zorla açdı. Cığalı idi. Quş qəribə səslər çıxarır, qanadlarını qabardıb açır, narahat-narahat dostunun üzünü dimdikləyirdi:

– Nə istəyirsən? Heç adamı da belə şirin yuxudan oyadarlar?

Bu sözləri deyəndə Elvin hələ də yuxulu idi. Birdən çöldən gələn gurultu

Çap üçün deyil

səsindən tam ayıldı. Vahimə içində tez yerindən qalxdı. Pilləkənləri düşüb, yüyürə-yüyürə həyətin o başındakı qazmaya girdi. Çığalı da qolunun üstündə idi. Qazmadakı deşikdən bayıra baxdı. Gördüyü dəhşətdən var gücü ilə bağırdı. İndicə içində yatdığı otaq göyə sovrulmuşdu. Yerində toz dumanı qalmışdı. Elvin Cığalını sinəsinə sıxıb ağlayırdı. Hönkürə-hönkürə deyirdi:

– Sağ ol, Cığalı. Sən əsl dostsan!

**Sevinc Nuruqızı**

**SÖZLÜK**

| | |
|---|---|
| quşbaz – любитель птиц | kötük – бревно |
| cəbhə – фронт | qazma – землянка |
| hönkürə-hönkürə – рыдая | doymaq – наесться |
| quş damı – птичник | qıdıqlamaq – щекотать |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| fikir aparmaq – задуматься | qanadlarını qabartmaq – поднять крылья |
| kötüyün üstündə – на пеньке | göyə sovrulmaq – разрушиться |
| vahimə içində – в страхе | |

**1.** Sizcə, mətn niyə "Əsl dost" adlanır? Fikrinizi açıqlayın.

**2.** Dostluq haqqında nə bilirsiniz? Dostunuz varmı? Onun haqqında hansı sözləri deyə bilərsiniz? Demək istədiklərinizi dəftərinizdə yazın.

**3.** Suallardan biri oxuduğunuz mətnə aid deyil.

A) Yolu öyrənmək üçün Elvin quşları niyə çayın o biri sahilinə apardı?

B) Cığalı Elvini yuxudan necə oyatdı?

C) Cığalı niyə uçub o biri sahilə keçdi?

**4.** Verilmiş cümlələrdən hansında "Cığalı Elvini ölümdən qurtardı" fikri daha qabarıqdır? (более точнее)

A) Göyərçinlər uçuşub Elvinin çiyninə, başına qondular.

B) Quş qəribə səslər çıxarır, qanadlarını qabardıb açır, narahat-narahat dostunun üzünü dimdikləyirdi.

C) Bu sözləri deyəndə Elvin hələ də yuxulu idi.

**5.** Birinci sütundakı ifadələrin qarşılığını ikinci sütundan tapıb qarşısında yazın.

| | |
|---|---|
| fikir apardı | üstünə örtdü |
| yorğanı başına çəkdi | dağılmışdı |
| evə yollandı | getdi |
| göyə sovrulmuşdu | düşündü |

Çap üçün deyil

**6.** Cümlələri Azərbaycan dilinə tərcümə edin. Sonra mətndəki cümlələrlə tərcüməni müqayisə edin.

1) Враг часто бомбардировал село.
2) Прилетая голуби сели ему на плечо и на голову.
3) Эльвин встал и быстро отправился в дом.
4) С трудом открыл глаза.
5) Спасибо, Джигалы, ты настоящий друг.

**7.** Yalnız hansı? sualına cavab verən sifətin işləndiyi cümlələri oxuyun.

1) Elvin bədii kitabları oxumağı sevirdi. 2) Dünənki hadisədən sonra o, Cığalını heç yerə buraxmaq istəmirdi. 3) Əvvəlcə göyərçinləri qonşu kənddəki Qarqar çayına tərəf aparmaq istədi. 4) Quş qəribə səslər çıxarır, qanadlarını qabardıb açır, narahat-narahat dostunun üzünü dimdikləyirdi. 5) Elvin sinəsindəki quşu sığallayırdı.

**8.** Aşağıdakı sözlərin içərisindən zahiri görkəm bildirən sifətləri seçib səsləndirin. Onları cümlədə işlədərək dəftərinizə yazın.

satqın, sağlam, qara, böyük, ağıllı, yaşlı, əzik, qarabuğdayı, bənövşəyi, səmimi, gənc, arıq, qorxaq

## ŞƏHİDLƏR XİYABANI

Sinə gərib dünyanın
Payızına, qışına,
Həmişə qərq olubdur
Gül-çiçək yağışına
Şəhidlər Xiyabanı.

Məzarlar doğma, yaxın,
Məzarlar yan-yanadır.
Övladlarına ağı
Deyən müdrik anadır
Şəhidlər Xiyabanı.

Yurduma göz dikənə
Etirazımdır mənim,
Heç zaman pozulmayan
Alın yazımdır mənim
Şəhidlər Xiyabanı.



**Əbülfəz Naxçıvanlı**

**SÖZLÜK**

yan-yana – рядом
etiraz – возражение
gül-çiçək yağışı – цветочный дождь

Çap üçün deyil

## SÖZ EHTİYATI

ağı – элегия
sinə gərmək – здесь: терпеть
qərq olmaq – здесь: покрыться
göz dikmək – здесь: желает завоевать
alın yazısı – судьба, участь, рок

**9.** Şeirin 1-ci bəndində hansı söz məcazi mənada işlənib?
a) payız  b) yağış  c) qış  d) müdrik

**10.** Şəhidlər Xiyabanında olmuşsunuzmu? Orada gördüklərinizi dəftərinizdə qısaca təsvir edin. Cümlələrinizdə sifətlərdən istifadə etməyə çalışın.

**11.** Hansı fikir şeirin məzmununa uyğun deyil?
A) Şəhidlər Xiyabanı həmişə gül-çiçəklə dolu olur.
B) Şəhidlər Xiyabanında çoxlu şəhid məzarı var.
C) Şəhidlər Xiyabanını payızda və qışda ziyarət edirlər.

**12.** Aşağıdakı cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin:
1) Аллея Шехидов находится в центре города Баку.
2) 20 Января день памяти шехидов.
3) Каждый год мы посещаем Аллею Шехидов.

**13.** Məcazi mənada işlənmiş ifadə hansı cümlədədir?
A) Şəhidlər Xiyabanı mənim alın yazımdır.
B) Xiyabanda məzarlar yan-yanadır.
C) Müdrik ana övladlarına ağı deyir.

**14.** Şeirdə altından xətt çəkilmiş hansı sözlər əlamət bildirir? Bu sözləri seçib dəftərinizə yazın və onlara aid cümlə qurun.

**15.** Aşağıdakı hansı sözlərə müvafiq şəkilçilər artırsaq, əlamət bildirər? Düzəltdiyiniz sözləri dəftərinizə yazın.
yağış, dünya, gül-çiçək, övlad, deyən, ana, yurduma, mənim, soyu(maq)

**16.** Aşağıdakı atalar sözlərini siz əvvəlki siniflərdə eşitmişsiniz. Oxuyun və səhvləri tapıb düzgün şəklini yazın.

1) Don tapmaq çətin, dost tapmaq asandır! 2) Yoldaşı evdə tanı! 3) Acıqlı başda ağıl olar. 4) Yaxşı məsləhət hər şeydən pisdir. 5) Ağıl ağıldan üstün olmaz.

Çap üçün deyil

**17.** Sözlər arasındakı əlaqəni müəyyənləşdirin və rus dilinə tərcümə edin. Sözlərdən bir neçəsini birləşmə içərisində işlədin.

iri– xırda, qalın – nazik, uzaq–yaxın, pis–yaxşı, dərin – dayaz, uzun – qısa, acı – şirin, ağır – yüngül, quru – yaş, çalışqan – tənbəl, sağlam – xəstə

**18.** Aşağıdakı sözlərin içərisindən isimləri və sifətləri seçib ayrı-ayrı sütunlarda yazın, qarşılarında suallarını qeyd edin.

**SÖZLƏR:** yaxşı, yaxşılıq, yaxşılaşmaq, gözəl, gözəllik, gözəlləşmək, savad, savadsız, savadlanmaq, səliqə, səliqəsiz, səliqəyə salmaq, ağıl, ağıllı, ağıllanmaq, maraq, maraqlı, maraqlanmaq, köhnə, köhnəlik, köhnəlmək, bilik, biliksiz, bilmək, kamil, kamillik, kamilləşmək, qorxaq, qorxu, qorxmaq, igid, igidlik, bəzək, bəzəkli, bəzəmək

## § 18. QAÇAQ NƏBİ

Təxminən yüz əlli il bundan əvvəl Qarabağ dağlarında, Araz çayı yaxınlığındakı kəndlərdə Nəbi adlı qoçaq bir adamın adı dillər əzbəri olmuşdu. Aşıqlar onun hünərinə şeirlər qoşur, hər yerdə onun haqqında danışırdılar.

O zaman Azərbaycanda çar hökuməti, qudurğan bəylər kəndlilərə çox zülm edirdilər. Bəzi adamlar bu zülmə dözmür, çar hökumətinə və bəylərə qarşı vuruşurdular. Nəbi də belə adamlardan idi. Hökumət Nəbini cəzalandırmaq istəyirdi. Nəbi isə tüfəngini götürüb, Bozata minmiş və dağlara qaçmışdı. Ona görə də Nəbini "qaçaq" adlandırırdılar. O, burada da sakit oturmur, zalımlardan intiqam alırdı. Nəbinin arvadı Həcər də igidlikdə ərindən geri qalmırdı. Nəbini tuta bilməyən hökumət adamları ondan intiqam almaq üçün çox yollar axtarırdılar. Axırda Həcəri tutub həbsxanaya saldılar. Bu vaxt aşıqlar Həcərin adından belə bir şeir qoşdular:

Qazamat istidir, yata bilmirəm,
Düşmənim güclüdür, bata bilmirəm.
Ayaqda qandalaq, qaça bilmirəm,
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!

Bu xəbər Nəbiyə çatan kimi o, yoldaşları ilə gedib həbsxana keşikçilərini qırdı və Həcəri xilas etdi. Hökumət və bəylər bundan qorxuya düşdülər. Onlar nə olursa-olsun, Nəbini cəzalandırmağa çalışırdılar. Amma onu ələ keçirə bilmirdilər. Çünki xalq onun nə üçün qaçaq düşdüyünü yaxşı bilir və ona kömək edirdi. Aşıqlar da öz mahnılarında Nəbinin adından belə deyirdilər:

Çap üçün deyil

Nəbiyə hay verir obalar, ellər,
El gücüdür daşqın çaylar, gur sellər.
El-obadan kənar bükülür bellər,
Alar qüvvət, gücü elindən Nəbi!
El-obanı salmaz dilindən Nəbi!

Xalq Nəbini sevdiyi və ona kömək etdiyi kimi, Nəbi də onların köməyinə çatırdı. O zaman zalım bəylər və çar hökumətinin qulluqçuları–naçalniklər, pristavlar Nəbinin qorxusundan rahat otura bilmirdilər. Nəbi əlində tüfəng, Bozatın belində camaatın köməyinə çatır, zalımları cəzalandırırdı. Xalq isə onun bu yaxşılığını unutmur, öz mahnılarında ona məhəbbətini bildirirdi.

Uzun illər çar hökuməti idarələrinin başçılarını qorxudan Nəbini 1896-cı ildə gecə yatdığı yerdə xaincəsinə öldürdülər. O vaxtdan çox illər keçsə də, xalqımız Nəbini unutmur. Onun haqqında qoşulan mahnılar hələ də dillər əzbəridir.

## SÖZLÜK

təxminən – приблизительно
qaçaq – беглец
qudurğan – обнаглевший
həbsxana – темница, тюрьма
qulluqçular – здесь: служащие
xaincəsinə – предательски
zalım – злодей

## SÖZ EHTİYATI

dillər əzbəri olmaq – стать известным
çar hökuməti – царское правительство
intiqam almaq – мстить
qazamat – тюрьма
qandalaq – кандалы

**1.** Hansı sual mətnə uyğun deyil?
1) Nəbi çar hökumətinin hansı zabitini öldürmüşdü?
2) Xalq nə üçün Nəbini sevirdi?
3) Nəbini qaçaq edən hansı səbəblər idi?
4) Hökumət adamları niyə Həcəri tutub həbsxanaya saldılar?
5) Nəbini necə öldürdülər?

**2.** Xalq Nəbini çox sevdiyi üçün onun haqqında “Qaçaq Nəbi” dastanını yaratmışdı. Bu dastanı hamı sevə-sevə oxuyur. Sizcə, xalq necə insanlar haqqında dastanlar qoşur? Bu barədə fikirlərinizi yoldaşlarınızla bölüşün.

Çap üçün deyil

**3.** Daha hansı xalq qəhrəmanlarını tanıyırsınız? Onların haqqında haradan məlumat almısınız? Bildiklərinizi yazın.

**4.** Aşağıdakı cümləni necə davam etdirmək olar?
**Düşmənlər Nəbidən ona görə qorxurdular ki, ...**
A) Aşıqlar hər yerdə onu tərif edirdilər.
B) Nəbi həbsxana keşikçilərini qırıb Həcəri xilas etmişdi.
C) Xalq onun qaçaq düşdüyünü bilir, ondan kömək istəyirdi.
Ç) Nəbi sakit oturmur, zalımlardan intiqam alırdı.

**5.** Hansı atalar sözləri mətnin məzmununa uyğun deyil?
A) İgid ölər, adı qalar. B) El gücü, sel gücü.
C) Ehtiyat igidin yaraşığıdır. D) Qorxan gözə çöp düşər.

**6.** Aşağıdakı cümlələri oxuyun, tərcümə edin, sonra dəftərinizə yazın.
1) Приблизительно 150 лет тому назад в Карабахе жил смелый человек по имени Наби. 2) Наби мстил богатым людям за их несправедливое отношение к народу. 3) Народ любил Наби за его честность и справедливость.

**7.** Nəbiyə aid olan keyfiyyətləri dəftərinizə yazın. “Ən, lap, çox, az, ala, daha, təhər, açıq, tünd” sözlərindən hansılarını tapdığınız sözlərə əlavə etsəniz, Nəbini daha güclü qəhrəman kimi təsəvvür etmək olar?
Nəbi qoçaqdır, ..., ... , ... , ... , ... , ...
**Nümunə:** qoçaqdır-lap qoçaqdır

**8.** Aşağıdakı cərgələrdən hər birində sifətlərdən biri digərlərindən fərqlənir. Fərqli olanı göstərin.
a) daşqın çaylar b) gur sellər c) ən böyük
a) bomboz at b) yamyaşıl çəmən c) güclü düşmən
a) xain düşmən b) vəfalı dost c) çox yaxşı adam
a) açıq-sarı b) uzunsov c) tünd-göy

**9.** Mətndə qırmızı rəngdə verilmiş ifadələri bir sözlə əvəz edib cümlələri yenidən oxuyun və hər iki variantı müqayisə edin. Hansı variantı işlətmək istərdiniz?

**10.** Mətndə yaşıl rəngdə verilmiş “qırmaq” sözünü hansı sözlə əvəz etmək olar? Bəs aşağıdakı cümlələrdə bu sözün əvəzinə hansı sözləri işlədə bilərsiniz? Həmin sözləri tapıb qarşılarında yazın:
1) Ayxan özü də bilmədən pəncərənin şüşəsini qırdı ( – ).
2) Ülkər heyva ağacından bir heyva qırdı (– ).

Çap üçün deyil

3) Nənəm bayaqdan mağazadan aldığı qəndi qırır ( – ).
4) Bu xəstəlik çöl quşlarının bəzi növlərini qırdı ( – ).
5) Odunçu hər gün səhər qalxıb meşəyə gedər, axşama qədər odun qırardı ( – ).

## Əl

Oğlum deyir:– Ay ata,
Bir mənim əlimə bax:
Yumanda yumruq olur,
Açandasa şapalaq.
Ata gülür, üzündən
Nur tökülür elə bil.
Deyir: – Oğlum, əl təkcə
Yumruq, şapalaq deyil.
Əl qurub yaradandı,
Əl biçəndi, əkəndi.
Əl körpülər salandı,
Əl kanallar çəkəndi.
Əl dosta vermək üçün
Gül dərib dəstələyir.
Əl yazır, şəkil çəkir,
Əl mahnı ______ .
Güc çatmaz gücümüzə
Vermişiksə əl-ələ.
Əl çıraqban, eləyib
Neçə şəhəri, kəndi.
Əl bizi yedirəndi,
Əl bizi geydirəndi.
Əl havadı, əl sudu,
Əl işıqdı elə bil.
Ömrüm-günüm, əl təkcə
Yumruq, şapalaq deyil...

**Rafiq Yusifoğlu**

**SÖZLÜK**

yumruq – кулак
şapalaq – пощечина
biçmək – косить
dəstələmək – собрать в букет
çıraqban etmək – ярко освещать

**SÖZ EHTİYATI**

qurub-yaratmaq – строить
əl-ələ vermək – дружно браться за руки

**11.** Şeiri oxudunuz. İnsan əli nələri bacarır? Şeirdən istifadə etməklə sxemləri tamamlayın və cümlələri dəftərinizə köçürün.

Əl — qurub-yaradandır.
— ...
— ...
— ...

Əl — ...
— ...
— ...
— ...

**12.** Sualların yerinə uyğun gələn sözləri qoymaqla, dəftərinizə köçürün.

| | | |
|---|---|---|
| Bəstəkar | nə? | nə edir? |
| Şair | nə? | nə edir? |
| Balıqçı | nə? | nə edir? |
| Rəssam | nə? | nə edir? |

Çap üçün deyil

| | | |
|---|---|---|
| Bağban | nə? | nə edir? |
| Bənna | nə? | nə edir? |
| Dərzi | nə? | nə edir? |
| Əkinçi | nə? | nə edir? |

**13.** Sizin valideynləriniz nə ilə məşğul olurlar? Bu haqda danışın.

**14.** Şeirdə dialoq kimlərin arasında gedir?
A) müəllim və şagird
B) ata və oğul
C) ana və qız

**15.** "Güc çatmaz gücümüzə
Vermişiksə əl-ələ" – misraları ilə şair nə demək istəyir? Müzakirəyə qoşulun. Müəllim sizə kömək edəcək.

***NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN***

***Bu nə tənbəllikdir, giriş tez işə,***
***Bikarlıq insanı sıxar həmişə.***
***Əl-ayaq qulundur, işlətsən, yəqin,***
***Çıxmazlar heç zaman əmrindən sənin.***
***Minlərlə xidmətçin olsa da, hökmən,***
***Öz əl-ayağını qoyma heç işdən.***

**16.** Aşağıdakı cümlələri köçürün. Lazım olan yerdə vergül işarəsini qoymağı unutmayın.
1) Qonaqlar bu görüşdən razı qaldılar.
2) Bu şəhərin ən hündür binasıdır.
3) Evdəki o əşyaların yerini dəyişin.
4) Sinifdə o birinci cərgədə oturur.

**17.** Aşağıdakı cümlədə "o" sözü həm kim? həm də hansı? sualına cavab verə bilərmi? Fikirlərinizi əsaslandırın.
<u>O çiçəklərdən gözəl bir çələng hördü.</u>

**18.** Şeirdə qırmızı hərflərlə verilmiş sözlərin ümumi cəhətləri hansılardır?
1) Hər üçü necə? sualına cavab verir.
2) Hər üçünə saitlə başlanan şəkilçi əlavə etdikdə "q"-"ğ" əvəzlənməsi baş verir.
3) Hər üçü yiyəlik haldadır.
4) Hər üçü ümumi isimdir və nə? sualına cavab verir.
a) 1, 4 b) 2, 4 c) 3, 4 ç) 2, 3

Çap üçün deyil

**19.** Şeirdəki sarı boşluğun yerinə hansı söz yazılmalıdır?
a) yaradır b) bəstələyir c) söyləyir d) bəhs edir

**20.** Cümlələri Azərbaycan dilinə tərcümə edin və dəftərinizə yazın.
1) Каждый должен защищать свою Родину.
2) Солдаты стоят на страже Родины.

**21.** Hansı atalar sözünə əlavə edilən sifət ismin sualına cavab verə bilər?
A) Elmsiz insan – kimidir.
B) Ehtiyat – yaraşığıdır.
C) Dostu – gündə sınayarlar.

**22.** Aşağıdakı variantlardan hansı fərqlidir? Nə üçün?
a) çox böyük b) ən ağıllı c) qırmızıtəhər d) tərtəmiz
✿ Seçdiyiniz sözə aid cümlə qurun və dəftərinizə yazın.

## § 19. XOŞBƏXTLİK BARƏSİNDƏ

İstirahət evində, nədənsə, adamın dili açılır. Çox danışmaq, hər işə qarışmaq istəyirsən. Pensiyaçılardan biri–qoca müəllim nərdtaxta oynayanların içinə mübahisə saldı:

– Ay camaat, yığışdırın bu şartaşartı, sözüm var sizə.

Oynayanlar müəllimin söhbətini maraqla dinlədilər. Nərdtaxtanı qatlayıb kənara qoydular.

Müəllim "Cavanlar" jurnalının yeni nömrəsini göstərib soruşdu:

– Yəqin oxuyursunuz bu jurnalları?

– Oxuyanımız var!

– Burda mübahisə açıblar. Bəlkə, buna sizdən cavab verən ola?

– Nə mübahisədir?

– Nə soruşurlar?

– Soruşurlar ki, xoşbəxtlik nədir?

– Xoşbəxtlik barəsində danışmaq özü şirin söhbətdir.

– Bu söhbəti salan, deyəsən, özü xoşbəxtdir.

– Yox, oxuculardan fikir soruşurlar.

– Xoşbəxtlik nəyə deyilir?

Müəllimi dinləyənlərin hamısı söhbətə qarışmaq istədi:

– Burada çətin nə var! Kim nə cür, hərənin öz fikri var.

– Məsələ odur ki, hansı fikir düzdür? Bunu cavanlar bilmək istəyirlər.

– Məncə, birinci xoşbəxtlik sağlamlıqdır.

– Cavanların çoxu bunu bilməz. Çünki hamısı buz baltası kimidir.

Çap üçün deyil

Sağlamlıq əldən çıxandan sonra, əl-ayağın əsəndə qədrini bilirsən.

– Məncə, xoşbəxtlik odur ki, yaxşı bir evin ola!

– Xoşbəxtlik ona deyərəm ki, vəfalı ürək dostun ola, sadiq, etibarlı.

Hər kəs başqasını dinləmədən, təsdiq etmədən öz fikrini deyirdi:

– Şirin yuxun ola, özü də məsum uşaq yuxusu!

– Əsil övladın ola!

– El içində hörmət ayrı nemətdir!

– Sandıq dolusu pulun ola!

– Böyük qulluğun, nazirlikdə də adamın, arxan ola!

– ...

Qoca müəllim sanki hamıya bir cavab verib söhbəti kəsmək istədi:

– Bilmədiniz, qardaş! Yemək, içmək, gəzmək, firavan yaşamaq insanı cismən təmin edər. Amma xoşbəxtlik ayrı şeydir. Siz deyənlərin hamısı, bəlkə, nemət sayılır, ancaq həqiqi xoşbəxtlik onunla əmələ gəlməz.

– Bəs xoşbəxtlik nəyə deyirsən, ay müəllim?

Xoşbəxtlik, əsl xoşbəxtlik nə siz deyənlərdir, nə də bu cavanların jurnalında yazılanlar! Mənim aləmimdə, dünyada xoşbəxtlik odur ki, həmişə, hər yerdə, hər kəsə ürəyindəkini, başındakını deyə biləsən! Bax bundan böyük xoşbəxtlik yoxdur.

**Mir Cəlal**

**SÖZLÜK**

pensiyaçı – пенсионер
nemət – здесь: богатство, благо
məsum – невинный
firavan – счастливый
arxa – здесь: опора
cismən – телесно, физически
vəfalı, sadiq – верный

**SÖZ EHTİYATI**

dili açılmaq – начать говорить
işə qarışmaq – вмешиваться
təmin etmək – обеспечивать
buz baltası kimi – крепкий, здоровый

**1.** Aşağıdakı fikirlərdən hansı mətnin məzmununa uyğun gəlir?

A) Həmişə hər kəsə ürəyindəkini deyə bilirsənsə, bu, əsl xoşbəxtlikdir.

B) Biz azad, demokratik ölkədə yaşayırıq və söz azadlığının olması böyük xoşbəxtlikdir.

C) Xoşbəxt olmaq üçün xoşbəxtlikdən çox danışmaq lazımdır.

D) Xoşbəxt olmaq üçün yaxşı oxumaq lazımdır.

**2.** Dialoqda iştirak edənlərin əksəriyyəti hansı nəslin nümayəndələridir? Fikrinizi mətnə istinad etməklə əsaslandırın.



Çap üçün deyil

**3.** Aşağıdakı atalar sözlərindən mətnin məzmununa uyğun olanı varmı?

1) Ən böyük igidlik sözü üzə deməkdir. 2) Alim olmaq asandır, insan olmaq çətin. 3) Doğru sözə zaval yoxdur. 4) Ağıl ağıldan üstün olar, söz sözdən ötkün. 5) Bilməmək eyib deyil, soruşmamaq eyibdir.

**4.** Aşağıdakı cümlələri tərcümə edin və dəftərinizdə yazın.

1) Счастье – это богатство.
2) Счастье – это здоровье.
3) Счастье – это иметь много друзей.
4) Счастье – это быть умным и грамотным.

**5.** Əvvəlcə sağ sütundakı sözlərdən uyğun gələnini sol sütundakı sözlərlə əlaqələndirin, sonra isə cümlələrdə işlədin.

| | | | |
|---|---|---|---|
| ağıllı | gənclik | vəfalı | məsələ |
| səliqəli | uşaqlar | qəhrəman | dostlar |
| xoşbəxt | şagirdlər | çətin | oğullar |

**6.** “Доверенный” sözü mətndə hansı sözün tərcüməsidir? Həmin sözü cümlələrdə işlədərək dəftərinizə yazın. Bu sözün sinonimlərini göstərin.

**7.** Qarşı-qarşıya yazılmış sözlərin fərqini izah etməyə çalışın. Hər bir sözün qarşısında sualını yazın.

| | |
|---|---|
| xoşbəxtlik – xoşbəxt | maraq – maraqlı |
| çətinlik – çətin | hörmət – hörmətli |
| cavanlıq – cavan | böyüklük – böyük |
| sağlamlıq – sağlam | şirinlik – şirin |

**8.** İsimlə sifətin oxşar və fərqli xüsusiyyətlərini tapmağa çalışın. Yoldaşlarınızla müzakirə edin və fikrinizi müəllimə söyləyin.

**9.** Mətndə qırmızı rəngdə verilmiş “kəsmək” sözünün əvəzinə hansı sözü işlədə bilərsiniz? Cümləni tapdığınız sözlə yenidən oxuyun və hər ikisini tərcümə edin:

**10.** Aşağıdakı cümlələrdə işlənmiş “şirin” sözü ilə bağlı hansı fikir düzgündür?

1) Xoşbəxtlik barəsində danışmaq özü şirin söhbətdir.
2) Deyirlər ki, şirin çay içmək faydalıdır.

a) 1-ci həqiqi, 2-ci məcazi mənadadır
b) hər ikisi məcazi mənadadır
c) hər ikisi həqiqi mənadadır
d) 1-ci məcazi, 2-ci həqiqi mənadadır

Çap üçün deyil

**11.** Mötərizədəki hərflərdən uyğun olanı artırıb sözləri köçürün.

Tap..aca (p, m), va..zal(q, ğ), za..baq(m, n), pa..bıq(n, m), d..vlət(e, ö), dos..luq(t, s), sü..bül(m, n), a..tobus(v, f), nəhən..(g, k), güc..ü(l, d), ya..şı(x, h), moru..(q, ğ)

## AZ DANIŞMAĞIN GÖZƏLLİYİ



Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da, suda,
Artıq içiləndə dərd verir su da.
İncitək sözlər seç, az danış, az din,
**Qoy az sözlərinlə dünya bəzənsin.**
Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz.
Əsli təmiz olan saf mirvarilər
Suya və torpağa min bəzək vurar.
Ürəyi oxşayan bir dəstə çiçək
Yüz xırman otundan yaxşıdır gerçək!

**Nizami Gəncəvi**

### SÖZLÜK

lətafət – нежность
əsli – здесь: настоящий, подлинный
inci – жемчужина
gerçək – действительность, правда
saflıq – чистота, прозрачность
dərd – горе

### SÖZ EHTİYATI

xırman – гумно, молотьба
ürəyi oxşayan – приятные

**12.** Nizami Gəncəvi bu şeirində bizə nəyi məsləhət görür?
A) Çox su içmək xeyirlidir.
B) Dünyanın bəzəyi qiymətli mirvarilərdir.
C) Artıq söz işlətmək, yersiz danışmaq pis adətdir.

**13.** Şeirdəki “söz” nə ilə müqayisə edilir? (сравнивается)
a) su, inci, mirvari
b) lətafət, kərpic, torpaq
c) çiçək dəstəsi, xırman otu, dünya

Çap üçün deyil

**14.** Şeirdə qara hərflərlə verilmiş cümlədən hansı sözü çıxarsaq, cümlənin mənası dəyişməz?

a) dünya b) qoy c) bəzənsin d) söz

## TAP GÖRƏK

**15.** Tapmacanı oxuyun. Necə bilirsiniz, cavabın “Az danışmağın gözəlliyi” şeiri ilə əlaqəsi varmı?

O hansı quşdur,
Yuvasından çıxdı,
Girə bilmədi.

**16.** Siz fikrinizi ifadə etmək üçün sözləri tapmaqda çətinlik çəkirsinizmi? Sizcə, fikri aydın və tez ifadə etmək üçün nə etmək lazımdır?

A) cümlələri əzbərləmək
B) çoxlu mütaliə etmək (заниматься чтением)
C) bütün günü danışmaq
D) sözləri düzgün yazmaq

**17.** Söz haqqında aşağıdakı atalar sözlərini oxuyun, başqalarını da əlavə edin və dəftərinizə yazın.

1) Söz qılıncdan itidir.
2) Qılınc yarası sağalar, söz yarası sağalmaz.
3) ...
4) ...

**18.** Cümlələri Azərbaycan dilinə tərcümə edin və dəftərinizə yazın.

1) Надо говорить мало, но внятно. 2) Вежливые слова украшают язык. 3) Во время беседы надо подбирать нужные слова. 4) Лишне сказанные слова портят нашу речь.

**19.** Xoş sözlərin miqdarını çoxalda bilərsinizmi?




**20.** Uyğun sözləri artırmaqla cümlələri tamamlayıb köçürün.

1) Artıq sözlər danışmaq insana – . 2) Çox sözün kərpictək – .
3) Mənalı sözlər dilimizə – . 4) Ürəkaçan sözlər bir dəstə çiçəyə – .

**KÖMƏKÇİ:** bəzək vurur, bənzəyir, ziyan gətirər, faydası olmur

**21.** Aşağıdakı sözləri elə dəyişin ki, əlamət bildirsin. Yeni düzəltdiyiniz sözləri dəftərinizə yazın:

lətafət, saflıq, məna, qiymət, su, bəzək, çiçək, ürək

Çap üçün deyil

## GÜLƏK VƏ DÜŞÜNƏK

**22.** Lətifəni rollar üzrə oxuyun və nəticə çıxarın. Sonra səhnələşdirin.

### Müxtəsər deyirəm

Bir gün Molla kişmiş yeyirmiş. Bir dostu ona yaxınlaşıb soruşur:

– Molla, nə yeyirsən?

Molla deyir: – Elə.

Dostu soruşur: – Molla, necə yəni elə? Bu nə cavabdı?

Molla deyir: – Müxtəsər deyirəm də ...

Dostu soruşur: – Nəyi müxtəsər deyirsən?

Molla deyir: – Sən deyirsən: "Nə yeyirsən?". Mən deyəcəyəm: "kişmiş". Sən deyəcəksən ki: "Mənə də ver!". Mən deyəcəyəm: "Vermirəm!". Sən deyəcəksən ki: "Niyə?". Mən deyəcəyəm: "Elə!" Odur ki, indidən müxtəsər deyirəm: "Elə".

**SÖZLÜK**

müxtəsər – короче

## § 20. LEYLƏK YUVASI

### 1-ci hissə

Nurlan atasının işlədiyi kranın kabinəsini boş görüb, anasını səslədi:

– Ana, atam kranda yoxdur.

– Kran daha onlara lazım deyil. Görmürsən, evi tikib qurtarıblar. Bir də təzə ev tikməyə başlayanda lazım olacaq. Təzə evi bax o iki hündür ağacın yerində tikəcəklər.



Nurlan təəccüblə soruşdu:

– Bəs ağacın başındakı leyləklər? Onlar necə olacaq?

– Yəqin o vaxtadək uçub gedərlər.

– Bəlkə, getmədilər?

Anasının vacib işi olduğu üçün ona cavab verməyə vaxt tapmadı. Tez mətbəxə keçdi.

Bir azdan nənəsi bazardan qayıtdı. İçəri girən kimi Nurlan ona gileyləndi:

– Nənə, bilirsən, leyləklərin yuvasını uçuracaqlar. Yerində təzə ev tikirlər.

– Bəs nə eləsinlər? Onlara görə adamlar evsiz qalsınlar? Quşlara nə var ki, başqasını tikərlər.

Çap üçün deyil

Nənənin sözləri Nurlanın xoşuna gəlmədi. Atasına da acığı tutdu: “Başqa yer yoxdur ki, evi gərək elə orada tiksinlər...”

O, bütün günü pəncərənin qabağından çəkilmədi.

Ata və ana leylək tez-tez uçub gedir və bir azdan dimdiklərində yem qayıdırdılar. Onlar yuvanın qırağında oturan kimi üç dənə qırmızı dimdik onlara tərəf uzanır və ağızlarını açırdılar. Balalarını yedirdikdən sonra leyləklər yenə uçub gedirdilər. Nurlan fikirləşirdi ki, bəs yuvaları uçurulandan sonra onlar balalarını harada yemləyəcəklər?

Axşam işdən qayıdan atası oğlunu çox qüssəli gördü ...

**Qılman İlkin**

**SÖZLÜK**

leylək – аист
vacib – важный
gileylənmək – жаловаться
dimdik – клюв
qüssəli – грустный

**SÖZ EHTİYATI**

acığı tutmaq – рассердиться

**1.** Nurlanın əhvalının pozulmasına səbəb nə idi? Mətnin məzmununa əsasən fikirlərinizi əsaslandırın.

**2.** Nurlan necə oğlandır? Onu xarakterizə edən sözlər seçin və cümlələrdə işlədərək yazın.

**3.** Siz mətni necə davam etdirərdiniz? Variantlarınızı təqdim edin.

**4.** Mətnə aid bir-birinizə hansı sualları vermək istərdiniz? Sualları təqdimat formasında hazırlayın və səsləndirin.

**5.** Cümlələri mətndəki məzmuna uyğun olaraq ardıcıl sıralayın:

1) Nurlan evdəkilərdən küsmüşdü.
2) Leyləklər tez-tez uçub gedir və dimdiklərində yem qayıdırdılar.
3) İki hündür ağacın yerində təzə ev tikməyə hazırlaşırdılar.
4) Ağacın başında leylək yuvası var idi.
5) Ananın vacib işi olduğu üçün mətbəxə keçdi.

**6.** Mətndə altından xətt çəkilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etsək, məna dəyişməz? Fikrinizi əsaslandırın.

a) yalvardı b) şikayət etdi c) deyindi d) acıqlandı

Çap üçün deyil

**BUNLARI BİLİRSİNİZMİ?**

Dilimizdə elə sözlər də var ki, əşyaların **miqdarını** və ya **sırasını** bildirmək üçün işlədilir. Məsələn: *dörd kitab, üçüncü cərgə, yüz ağac, əllinci səhifə...*

**Əşyanın miqdarını və ya sırasını bildirən sözlər say adlanır.**

Saylar neçə?, nə qədər?, neçənci? suallarından birinə cavab verir.

Nümunələrdən gördüyünüz kimi, saylar aid olduğu sözdən əvvəl işlənir.

**7.** Verilmiş sayları sözlə yazın.
7, 8, 9, 20, 50, 56, 80, 115, 1926, 2013

**8.** 14853 sayını ifadə etmək üçün neçə sözdən istifadə edilir? Həmin sayı sözlə yazın.

a) 4 b) 5 c) 6 ç) 7

**9.** Mətndə qırmızı rəngdə verilmiş sözləri hansı sözlərlə əvəz edə bilərsiniz? Cümlələri tapdığınız sözlərlə yenidən oxuyun və rus dilinə tərcümə edin.

**10.** Necə bilirsiniz, mətndə göy rəngdə verilmiş sözlərin kökündəki son samit niyə "y" samitinə keçməmişdir? Fikirlərinizi əsaslandıra bilərsinizmi?

## LEYLƏK

Leylək qışa qalmadı;
köçdü isti ellərə.
Yazbaşı yenə döndü,
özünü ilk baharın
bayramına yetirdi.
Uzaq-uzaq ______ ,
uşaqlara hədiyyə –
leylək nağıl gətirdi.



Şaq-şaq dodaqlı leylək!
Uzun ayaqlı leylək!
Yuvan səni gözləyir,
uçub getsən də hara.
Ancaq ...
Ancaq nağılın
qəmlidirsə, leyləyim,
danışma uşaqlara!

**Rəsul Rza**

**SÖZLÜK**

yazbaşı – ранняя весна

**SÖZ EHTİYATI**

özünü yetirmək – успеть

**11.** Leyləyin xarici görünüşünü dəftərinizdə təsvir edin. Təsvirinizdə əlamət bildirən sözlərdən istifadə edin:

**KÖMƏKÇİ:** quyruq, gödək, ayaq, dimdik, upuzun, ağ, qara, uzun, böyük, xeyirli, tək, gəzmək

**12.** Biz leyləyə hansı fəsildə daha çox rast gəlirik?



Çap üçün deyil

**13.** Yazılışı ilə tələffüzü fərqlənən sözləri şeirdən seçib yazın. Onların qarşısında tələffüz şəklini göstərin.

**14.** Aşağıdakı birləşmələri tərcümə edin və cümlədə işlədərək yazın:

длинноногий аист, длинный клюв, полезная птица, пустое гнездо, короткий хвост

**15.** Köçəri quşlar haqqında məlumat toplayın və yoldaşlarınıza çatdırın.

**16.** Leyləyin xarici görünüşünün təsviri verilmiş cümlələri şeirdən tapıb səsləndirin.

**17.** Aşağıdakı cümlələri Azərbaycan dilinə tərcümə edin və dəftərinizə yazın. Yazarkən sayların orfoqrafiyasına fikir verin.

1) Весной в свои гнезда вернулись два аиста. 2) Один из них обновил старое гнездо. 3) У них появились четыре птенца. 4) Трое детей решили помочь птицам. 5) Через каждые два дня они приносили корм. 6) Дети организовали группу помощи птицам из девяти человек.

**18.** Aşağıdakı misralarda qırmızı hərflərlə verilmiş söz hansı sayı bildirir?

Xeyirli quşdur leylək
Dənlənir çöllərdə tək.

a) 1  b) çox  c) 2

**19.** Şeirdəki sarı boşluqda hansı sözü yazmaq lazımdır?

a) ellərdən  b) kəndlərdən  c) şəhərlərdən  d) ölkələrdən

**20.** Şeirdə qırmızı rəngdə verilmiş sözü başqa hansı sözlə əvəz etsəniz, məna dəyişməz?

## § 21. LEYLƏK YUVASI

### 2-ci hissə

Ertəsi gün atası yemək fasiləsində evə gəlmişdi. Gedəndə Nurlanı da özü ilə apardı.

İş yerinə çatanda iki nəfər gənc fəhlə əllərində mişar atanı gözləyirdilər.

– Hə, hazırsınız? – atası soruşdu.

– Biz çoxdan hazırıq, səni gözləyirik.

Atası kranına qalxdı. Bir azdan kranın çalovunu lap aşağı endirdi. Əllərində mişar olan fəhlələr çalova oturdular və atası onları yuxarı qaldırdı.

Əvvəlcə fəhlələr yuvanın yerləşdiyi budaqları altdan mişarladılar.

Çap üçün deyil

“Atamın dediyi maraqlı şey budur? Bundan ötrü məni buraya gətirib?“– deyə Nurlan fikirləşdi və hirsindən onu ağlamaq tutdu. Ancaq yan-yörəsindəki fəhlələrdən utanıb, özünü zorla saxladı. Bu müddətdə isə fəhlələr budaqları mişarlayıb, qurtarmışdılar. İndi onlar yuvanı başları üstündə iri papaq kimi tutub saxlayırdılar. Atası kranın milini başqa istiqamətə yönəltdi. Sonra kranın mili yaxındakı parkın hündür ağaclarına yaxınlaşdı. Yuvanı başları üstə tutan fəhlələr onu ağaclardan birinin başına qoydular və sonra yuva ilə birlikdə kəsilmiş qısa budaqları dəmir məftillə ağaca bağlamağa başladılar. Eynəkli adam aşağıdan onlara tərəf çığırdı:
– Bir az tələsin. İndilərdə qayıdacaqlar.

Eynəkli adamın sözlərini Nurlan başa düşdü. Ata və ana leylək yuvadan uçub getmişdilər. O istəyirdi ki, leyləklər qayıdanadək yuvanı möhkəmləndirib, qurtarsınlar.

Bir-iki dəqiqədən sonra atası yenə kranın uzun milini təzə binalara tərəf döndərdi və əllərində mişar olan fəhlələri aşağı endirdi.

Atası bir azdan krandan aşağı endi. Nurlana yaxınlaşıb dedi:

– Hə, necədir, bizdən razı qaldın? Onları da təzə mənzilə köçürdük. İndi gedək evə. Pəncərədən bax gör, leyləklər təzə mənzili necə axtarıb tapırlar.

Evə qayıtdılar. Nurlan pəncərənin qabağında durub gözlədi. Bir azdan leyləklər uçub gəldilər. Yuvalarını yerində görmədikdə üst budaqları kəsilmiş ağacların üstündə həyəcanla dövrə vurmağa başladılar.

Nurlan quşlardan ötrü narahat oldu:

– Təzə yuvanı tapa bilmirlər.

Bir azdan hər iki leylək parka tərəf uçdu. Onlar yuvanı görmüşdülər. Ancaq yuvaya birdən-birə enmədilər. Əvvəlcə onun ətrafında bir neçə dəfə dövrə vurdular. Elə bil nədənsə çəkinirdilər*. Axırda ata leylək, onun dalınca da ana leylək yuvaya qondu. Yenə qırmızı dimdiklər uzandı, ağızlar açıldı. Balalarını yedirəndən sonra leyləklər təzə yuvanı sahmana salmaqla məşğul oldular.

Nurlan nənəsini səslədi:

– Nənə, nənə, gəl bax, leyləklər təzə mənzilə köçüblər.



Çap üçün deyil

Nənə mətbəxdən qayıdanda leyləklər yuvanı səliqəyə salıb qurtarmışdılar. İndi bir ayaqları üstə durub, elə bil fikrə ______ .

**Qılman İlkin**

**SÖZLÜK**

yan-yörə – вокруг
həyəcanla – взволнованно
kranın çalovu – ковш крана
yerləşmək – расположиться
yönəltmək – направить

**SÖZ EHTİYATI**

dövrə vurmaq – кружиться
çəkinmək – здесь: опасаться
sahmana salmaq – приводить в порядок

**1.** Hansı hadisə Nurlanın fikrində yanıldığını göstərdi?

**2.** İnsanların digər canlılara münasibəti mövzusunda müzakirəyə qoşulun.

**3.** Sizcə, hansı quşlar insanlardan qorxmadan onların yaxınlığında yuva qurur? Həmin quşlardan biri haqqında informasiya toplayın.

**4.** Aşağıdakı cümlələrdə hansı sözlər yerində işlənməyib? "Köməkçi"-dən istifadə edərək cümlələri düzgün şəklə salın və dəftərinizə köçürün.

Quşlar ağacın aşağısında yuva qurmuşdular. Uşaqlar bundan çox kədərləndilər. Onlardan ən sakiti ağacdan düşdü. Yuvanı yerinə qoymaq istədi. Digər uşaqlar ona kömək etdilər. Bunu görən müəllim uşaqları danladı. Ağacdan düşən uşağı təriflədi.

**KÖMƏKÇİ:** təşəkkür etdi, mane oldular, başında, dəcəli, sevindilər, götürmək, çıxan, dırmaşdı, danladı

**5.** Birləşmələri tərcümə edin və yazın.

один из рабочих-
новое здание-
молодой рабочий-
над головой-
срубленное дерево-
смотреть с волнением-
вокруг гнезда-
красный клюв-

**6.** Mətni aşağıdakı sözlərdən hansı ilə bitirmək olar?

a) gəlmişdilər b) getmişdilər c) düşmüşdülər d) salmışdılar

**7.** Aşağıdakı cümlələrdə hansındakı saylar əşyanın dəqiq miqdarını bildirir? Həmin sayları seçib altından xətt çəkin:

1) İş yerinə çatanda iki nəfər gənc fəhlə əllərində mişar atanı gözlə-

Çap üçün deyil

yirdilər. 2) Bir-iki dəqiqədən sonra atası yenə kranın uzun milini təzə binalara tərəf döndərdi. 3) Bir azdan hər iki leylək parka tərəf uçdu. 4) Əvvəlcə onun ətrafında bir neçə dəfə dövrə vurdular. 5) Dörd bala yuvada onları gözləyirdi.

**8.** Fərqli tələffüz olunan sayları seçib yazın və cümlələrdə işlədin.
min, səkkiz, altmış, doxsan, əlli, səksən, dörd, yetmiş, doqquz, beş, yüz

**9.** Mətndə göy rəngdə verilmiş isimlərin hansı halda işləndiyini müəyyən edin və həmin isimləri əvvəlcə sifətlərlə, sonra isə saylarla işlədin.

**10.** Mətndə qırmızı rəngdə verilmiş sözləri ismin müxtəlif hallarında işlədin. Sözlərin sonundakı "q" samitinin ismin hansı hallarında "ğ" samitinə keçdiyini müəyyənləşdirin və səbəbini izah edin.

**11.** Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözün əvəzinə aşağıdakılardan hansını işlətsəniz, cümlənin mənası dəyişməz?
a) utanmaq  b) ehtiyat etmək  c) qorxmaq  d) təəccüblənmək

**12.** Mətndə altından xətt çəkilmiş sözləri aid olduğu sözlərlə birlikdə dəftərinizə yazın. Yazdığınız birləşmələrdəki birinci sözlərə sual verin və qarşılarında qeyd edin. Deyə bilərsinizmi, bu sözlər nə bildirir və niyə onları birlikdə yazdınız?

**13.** Mətndə altından xətt çəkilmiş sözlərdən hansını "ən, çox, daha, lap, olduqca" sözləri ilə işlətmək olar? Özünüzü yoxlayın.

**14.** Təbiətin qorunması heyvanlara, quşlara, ağaclara qayğıdan başlanır. Siz bu mətni oxuduqdan sonra quşlara necə qayğı göstərərdiniz? Müzakirəyə qoşulun.

**15.** Aşağıdakı cümlələri oxuyun və bu cümlələrdə neçə say işləndiyini müəyyənləşdirin.
Bir filosofdan soruşurlar:
– Nə üçün az danışır, çox qulaq asırsan?
– Çünki mənə iki qulaq veriblər, bir dil. Yəni iki eşit, bir de ...
A) 6  B) 2  C) 4  D) 3

## "QIRMIZI KİTAB"

Bütün digər kitablardan fərqlənən bir kitab var. Bu kitabda adları yazılmış heyvanları, quşları, balıqları ovlamaq, onları öldürmək qəti qadağandır. Buna görə böyük məbləğdə pul cərimələri və hətta azadlıqdan



Çap üçün deyil

məhrumedilmə kimi qanun da var.  Bu qanunun yazıldığı kitab “Qırmızı kitab” adlanır.

Qırmızı rəng qadağan siqnalı kimi bütün dünyadakı insanlara məlumdur. Siz dəfələrlə avtomobil yolunu keçərkən işıqforun qırmızı işığı yananda bütün avtomobillərin dayandığının şahidi olmuşsunuz. Deməli, qırmızı rəng “olmaz” kimi də başa düşülə bilər. Ona görə də insanlar nəsli tükənməkdə olan, sayı azalan və kökü tamamilə kəsilməkdə olan heyvanları və bitkiləri qorumaq üçün yaradılan kitabı belə adlandırıblar.

Ümumdünya “Qırmızı kitab”ı  bir neçə hissədən ibarətdir. Kökü kəsilməkdə olan heyvanlar haqqında məlumatlar qırmızı səhifələrdə yerləşdirilmişdir. Bu kitabda sarı səhifələr də mövcuddur. Bu səhifələrə yer üzündə sayları azalan heyvanların adları salınıb. Yaşıl səhifələrdə isə nəsli bərpa olunmuş, qırılmaqdan xilas olmuş heyvanlar haqqında məlumatlar yazılmışdır. Son zamanlar xilas olmuş heyvanların sayı xeyli artmışdır.

**SÖZLÜK**

fərqlənmək – отличаться
qadağan – запрещение, запрет
cərimə – штраф
məbləğ – сумма
mövcud – существующий

**SÖZ EHTİYATI**

azadlıqdan məhrum edilmə – лишение свободы
kökü kəsilməkdə olan – в процессе исчезновения
nəsli tükənməkdə olan – в процессе вымирания
qırılmaqdan xilas olmuş – спасенные от вымирания
bərpa olunmuş – востановленный

**17.** “Qırmızı kitab”ı nə üçün  belə adlandırıblar?

A) Qırmızı rəng qadağan siqnalı kimi bütün dünyadakı insanlara məlumdur.

B) Qırmızı rəng “olmaz” kimi də başa düşülür.

C) İnsanlar kökü tamamilə kəsilməkdə olan heyvanları və bitkiləri qorumaq üçün bu kitabı belə adlandırıblar.

Ç) Bu kitabların cildi qırmızı rəngdə olur.

**18.** Aşağıdakı suallardan biri mətnə aid deyil. Həmin sualı səsləndirin.

A) “Qırmızı kitab”da nə barədə qanunlar var?

B) Sarı səhifələrə hansı heyvanların adları salınıb?

C) Göy səhifədə nə barədə yazılıb?

D) Qırmızı səhifələrdə hansı məlumatlar yerləşdirilib?

Çap üçün deyil

**19.** “Qırmızı kitab”ın xeyri nədir?

1) Cildi qırmızı olduğu üçün insanların diqqətini cəlb edir.

2) Kökü kəsilməkdə olan heyvanların və quşların adları bu kitaba yazıldığı üçün onları ovlamaq qadağan edilir.

3) “Qırmızı kitab”da dövlət qanunları yazıldığı üçün hamı ona riayət etməlidir.

**20.** Sizcə, təbiətdə heyvanların və quşların kökü getdikcə kəsilsə, nə baş verər? Nə üçün heyvanlar və quşlar “canlı təbiət” adlanır? Yoldaşlarınızla fikirlərinizi bölüşün. Müzakirə edin.

**21.** Təbiəti qorumasaq, nə baş verər? “Təbiət bizim ümumi evimizdir” mövzusunda təqdimat hazırlayın və onu gələcək dərslərinizin birində nümayiş etdirin.

**22.** Mətndə işlənmiş sifətləri seçib yazın. Həmin sifətləri başqa hansı formalarda işlədə bilərsiniz? Qarşılarında düzəltdiyiniz formaları da qeyd edin.

**NÜMUNƏ:** boz – bozumtul, bozumtraq, bomboz, boztəhər, açıq-boz, tünd-boz...

**23.** Şeiri ifadəli oxuyun və əzbərləməyə çalışın.

## TURAC

Bu quş bizim turacdır,
Dənlənir, yəqin, acdır.
Uçan vaxtı pırhapır
Qanadları səs salır.
Döşündə ağ xallar var
Qara ata turacın.
Turacın düşmənidir
Ley, qırğı, tərlan, laçın.



**Rəsul Rza**

**SÖZLÜK**

dənlənmək – искать корм
xal – здесь: пятно (пятнистый)
döşündə – на груди
qırğı, ley – ястреб
tərlan, laçın – сокол

**24.** Qırmızı hərflərlə verilmiş söz rus dilində hansı mənada işlənib?

a) голодный b) горький c) белый d) сытый

**25.** Şeirin məzmununa aid olmayan cümlə hansıdır?

A) Turac xallı quşdur.

Çap üçün deyil

B) Turac uçduqda qanadlarının səsi eşidilir.
C) Turac çox sürətlə uçur.
D) Turacın düşmənləri var.

**26.** Hansı söz necə? sualına cavab verir?
a) bizim b) ağ c) qanad d) qırğı

**27.** Turacdan əlavə, şeirdə neçə quşun adı çəkilib?
a) dörd b) üç c) səkkiz d) beş

**28.** Verilmiş saylardan hansılar ancaq sözlə yazıla bilər?
bir, yüzlərlə, xeyli, beş, çox, on beş, bir neçə, əlli, otuz, az, çoxlu

## § 22. NİGARIN SEVİNCİ

Nigarın babası xəstələnmişdi. Qız babasının yatağına tərəf gəlib, üzündən öpdü:

– Baba, özünü ələ al, atam gələr, yaxşı olarsan, xəstəliyin keçib gedər.

Baba Nigarın sözlərindən kövrəldi. Nigarın babasına yazığı gəldi. Dəsmalı ilə onun gözlərini sildi, pıçıltı ilə babasına dedi:

– Ay baba, niyə özünü üzürsən? Dərdini mənə de, axı mən səni çox istəyirəm.

– Ay bala, nə deyim, başımıza bəla gəldi. Ermənilər doğma ocağımızı, bağ-bağatımızı, mal-qaramızı dağıdıb, bizi didərgin saldılar. Heç bir günahı olmayan körpələri, uşaqları, ana-bacıları öldürdülər. Cəbhəyə könüllü gedən yeganə oğlumdan, sənin atandan neçə vaxtdır ki, xəbər-ətər yoxdur. Anan dözməyib onun dalınca getdi. Qardaşın və bacınla tək qalmışam. Bu ağır dərdə dözmək olmur, mənim balam..

Nigar babasını bərk-bərk qucaqladı .

– Baba, atam niyə didərgin düşüb?

– Qızım, ermənilər hücum edib, Xocalı kimi gözəl bir yurdu dağıdanda nələr çəkdik. Neçə gün ac-susuz qaldıq, nə qədər uşaq, böyük tələf oldu. Sizi xilas edəndə əl-ayağımız dondu. Atan mərdliklə vuruşdu. Qarabağın neçə kəndinin azad edilməsində əsl qəhrəmanlıq göstərdi. Lakin ağır döyüşlərdə itkin düşdü.

Nigar soruşdu:

– Axı bu ermənilər bizdən nə istəyirlər?

– Qızım, Vətəni, yurdu olmayan ermənilər həmişə Azərbaycan torpaqlarına göz dikiblər. Torpağımızı ələ keçirməyə can atıblar. Həmişə də qeyrətli xalqımız onlara qalib gəlib...

Baba daha danışa bilmədi, dərindən nəfəs alsa da, havası çatmadı.

Çap üçün deyil

Birdən qapı açıldı. Hərbi paltarda olan qadın içəri girdi. Nigar anasını görüb sevindi:

– Ana, lap vaxtında gəldin, babam xəstələnib, bəs atam hanı? O gəlsəydi, babam tez sağalardı. Ana Nigara cavab verə bilmədi. Babanın ağır vəziyyəti onu sarsıtmışdı. Ana qızını o biri otağa keçirdi.

Bu otaqdakı radionun səsindən Nigar daha babasının sözlərini eşitmədi.

Baba isə daha danışa bilmirdi, gözlərini əbədi yummuşdu.

Birdən Nigarın səsi eşidildi. O, anasını, sonra isə babasını harayladı. Babası yatan otağa girmək istəyəndə anası qabağını kəsdi və tələsik onu həyətə çıxartdı.

Nigar anasının əlindən tutub, sevinc və həm də qürur hissi ilə deyirdi:

– Ana, sənə şad xəbər deyəcəyəm, indi gedib babamdan da şirinlik alacağam!

Ana göz yaşını silib, qızına dedi:

– Nigar, o nə xəbərdir?

– Ana, indicə radio xəbər verdi ki, atama Milli Qəhrəman adı verilib! Gedim, babaya deyim, sevinsin.

Ana danışa bilmədi. Göz yaşını qızından gizlətdi, onu bağrına basıb, al yanaqlarından öpdü. O nə babanın, nə də atanın ölümünü dilinə gətirə bilmirdi. Qorxurdu ki, Nigarın ürəkdolu sevincini əlindən ala...

**Hacı ağa Gəncəli**

## SÖZLÜK

nəmli – влажный
bəla – беда, горе
könüllü – добровольно
günah – вина
qeyrətli – мужественный
qürur hissi ilə – с гордостью
şirinlik – здесь: подарок

## SÖZ EHTİYATI

özünü ələ almaq – взять себя в руки
özünü üzmək – мучить себя
didərgin salmaq – изгнать
tələf olmaq – погибнуть
taqətdən düşmək – обессилиться
göz dikmək – позариться
itkin düşmək – пропасть без вести
ələ keçirmək – захватить
can atmaq – стремиться
gözlərini əbədi yummaq – умереть
dilinə gətirmək – сказать



Çap üçün deyil

**1.** Mətnin mövzusu nədir?
A) Qarabağ müharibəsi B) 20 Yanvar faciəsi C) kənd həyatı

**2.** Mətni aşağıdakı ardıcıllıqla danışmağı öyrənin:
1) Nigar ilə babanın söhbəti.
2) Nigarın atasının didərgin düşməsinin səbəbi.
3) "Axı ermənilər bizdən nə istəyirlər?"
4) Nigarın anasının gəlməsi.
5) Şad xəbər.
6) Ananın göz yaşlarını gizlətməsi.

**3.**Nömrələnmiş sözlərdən hansılarının mənaları bir-birinə uyğun gəlir?

| | |
|---|---|
| 1) nəfəsi daralmaq | 8) rəhm etmək |
| 2) yazığı gəlmək | 9) məhv olmaq |
| 3) tələf olmaq | 10) ürəyi sıxılmaq |
| 4) can atmaq | 11) demək |
| 5) özünü ələ almaq | 12) çalışmaq |
| 6) ölmək | 13) gözlərini əbədi yummaq |
| 7) dilinə gətirmək | 14) toxtamaq |

**4.** Aşağıdakı cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin:
1) Дедушка сильно заболел. 2) Отец девочки пропал без вести во время войны. 3) Мама была одета в военную форму. 4) Вдруг открылась дверь. 5) В комнату вошла мама Нигяр в военной форме.

**5.** Ermənilər bizim hansı bölgələrimizi işğal etmişlər? Bu barədə bildiklərinizi danışın. (Gündəlikdə işğal olunmuş bölgələrin adlarına baxa bilərsiniz).

**6.** Hansı söz səhv yazılıb? Fikrinizi əsaslandırın.
a) ağır b) torpağ c) sağaltmaq d) sevinc

**7.** Aşağıdakı cümlələrdə sözlə verilmiş sayları rəqəmlə yazın.
1) Məktəbdə dərslər səhər saat səkkizdə başlanır.
2) Səkkiz mart Beynəlxalq Qadınlar Günüdür.
3) İyirmi bir fevral Beynəlxalq Ana dili günüdür.
4) Otuz bir dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür.
5) Sinfimizdə doqquz əlaçı var.

**8.** Mətndə altından xətt çəkilmiş sözləri aid olduğu sözlərlə birlikdə dəftərinizə yazın. Birləşmələrdəki birinci sözün həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyənləşdirin. Fikrinizi əsaslandırmaq üçün misallar gətirin.

Çap üçün deyil

**9.** Mətndə qırmızı rəngdə verilmiş söz və ifadələrin sinonimlərini tapıb səsləndirin və hər iki variantı rus dilində deyin.

## ÜRƏK XATİRƏSİ

Rahat yatın, igidlər!
Məşəl olub könlünüz.
Şəfəq kimi, nur kimi
Əbədidir ömrünüz.

Ey köynəyi qanından
Al bayrağa dönənlər!
Məşəllərin dililə
Danışanlar, dinənlər!

Vətən sizi unutmaz,
Ürəklərdə yaşarsız.
Arzunuzu ellərin
Arzusuna qoşarsız.

**Rüfət Zəbioğlu**

**SÖZLÜK**

| | |
|---|---|
| məşəl – факел | əbədi – вечно |
| şəfəq – заря, рассвет | qoşmaq – здесь: соединить |

**10.** Şeirin mövzusu nədir?
A) Qəhrəmanlar ölmürlər.
B) Vətən müqəddəsdir.
C) Günəşin işığı əbədidir.

**11.** Müəllif şeiri kimə müraciətlə yazmışdır?
A) Vətən uğrunda canlarını qurban verənlərə.
B) Müqəddəs arzularla yaşayanlara.
C) Həyatda əbədi yaşamaq istəyənlərə.

**12.** “Milli qəhrəman” adı hansı insanlara verilir? Hər kəs Milli qəhrəman ola bilərmi? Qruplara bölünərək bu barədə fikirlərinizi bölüşün.

**13.** “Rahat yatın” ifadəsi rus dilində hansı mənada işlənmişdir?
a) спите навечно b) удобно расположитесь
c) спите спокойно ç) не беспокойтесь

**14.** Qəhrəman olmaq üçün insanda hansı keyfiyyətlər olmalıdır?




Çap üçün deyil

**15.** Hansı qəhrəmanların adlarını bilirsiniz? Tanıdığınız qəhrəmanlar barədə yoldaşlarınıza da danışın. Hansı dostunuzun, ya tanışınızın hərəkəti sizə qəhrəmanlıq kimi görünüb? Əgər belə hadisə olmuşdursa, bu barədə dəftərinizdə yazın. Sonra yoldaşlarınıza oxuyun.

**16.** Qəhrəmanlıq, igidlik mövzusunda atalar sözləri tapıb dəftərinizə yazın.

**17.** Aşağıda verilmiş hansı saylar əşyanın miqdarını dəqiq şəkildə bildirmir? Həmin sözləri seçib dəftərinizdə yazın:

iyirmi, əlli, beş-on, on yeddi, otuz, yüzlərlə, bir çox, iki, xeyli, çox, minlərlə, yüz

**18.** Şeirdə qırmızı hərflərlə verilmiş sözlər arasındakı münasibəti müəyyənləşdirin və həmin sözlərə aid cümlələr qurub yazın.

**19.** Qarşı-qarşıya yazılmış aşağıdakı sayları müqayisə edin. Onları rus dilinə tərcümə edərək dəftərinizə yazın.

beş — beş-altı
iki — iki-üç
on — onlarla
yüz — yüzlərlə
min — minlərlə



## § 23. HƏDİYYƏ

Bayramıydı qadınların,
Yerdən, göydən yağırdı nur.
Anaların üz-gözündən
Oxunurdu fərəh, qürur.
Qadınları hamı o gün
Tələsirdi təbrik üçün...

Ata aldı təzə çətir,
Böyük oğlu çiçək, ətir.
Ortancılı kitab aldı,
Lap kiçiksə fikrə daldı.

Ürəyində sevinc, həvəs*
Bilməyirdi nə etsin bəs...
Keçirirdi çox həyəcan,
İrəliyə gəldi bu an.
Gündəliyi açıb birdən
Anasını qucub qəfil
Körpə* quştək ötdü dil-dil:
-Anamın bir arzusunu*
Mən yerinə yetirmişəm.
Bu gün onun bayramına
Çoxluca "beş" gətirmişəm.
Baxışlarda duyuldu yaz,
Belə ömrün gülü solmaz.
Ana dedi:-Sağ ol, əhsən!

**Cavad Cavadlı**

Çap üçün deyil

## SÖZLÜK

nur – свет
ortancıl – средний по возрасту
çətir – зонтик
qəfil – внезапно
duyulmaq – ощущаться
solmaq – вянуть, увядать

## SÖZ EHTİYATI

fikrə dalmaq – задуматься
dil-dil ötmək – говорить без умолку
həyəcan keçirmək – волноваться
yerinə yetirmək – выполнять

**1.** Şeiri aşağıdakı variantlardan hansı ilə bitirmək olar?
A) Məni nə çox istəyirsən!
B) Səni mən çox sevirəm!
C) Mən səni çox istəyirəm!

**2.** Qadınların bayramı hansı fəslə təsadüf edir? Bu fəsil haqqında bildiklərinizi yazın.

**3.** Səkkiz mart Beynəlxalq Qadınlar Günü haqqında nə bilirsiniz? Bildiyiniz informasiyanı yoldaşlarınızla bölüşün.

**4.** Ananı necə sevindirmək olar? Sizcə, hədiyyə ancaq “5” qiyməti olmalıdır? Fikrinizi yoldaşlarınızla bölüşün.

**5.**Cümlələri yazılı şəkildə dəftərinizdə tamamlayın:

| | |
|---|---|
| Mənim anam çox | qayğıkeşdir.<br>...<br>...<br>...<br>... |

**6.** “Mənim sevimli anam” mövzusunda kiçik inşa yazmağa çalışın.

***NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN***
***Sənə nə eyləsə övladın, inan,***
***Onu görəcəkdir öz övladından.***

**7.** Aşağıdakı cümlələri rus dilinə tərcümə edin:

1) Uşaq güllərin üçdə bir hissəsini güldana qoydu. 2) Bayramda ona hədiyyələrin ikidə bir hissəsini dostları gətirmişdilər. 3) Qonaqların bir hissəsi eyvana çıxdı.

Çap üçün deyil

**8.** Müəllimin köməyi ilə aşağıdakı sayları sözlə yazın.

$\frac{1}{5}$, $\frac{2}{3}$, $\frac{6}{7}$, $\frac{3}{8}$, $\frac{5}{15}$

**9.** Şeirdə qırmızı rəngdə verilmiş sözlərdən hansıları biri-birinin qarşısında yazmaq olar? Səbəbini izah edin və altından xətt çəkilmiş sözlərin bu cür qarşılığını özünüz tapıb yazın.

**10.** Şeirdə göy rəngdə verilmiş sözlər arasındakı münasibəti müəyyənləşdirin, üzərində ulduz işarəsi qoyulmuş sözlərin qarşılığını isə özünüz tapıb qarşılarında qeyd edin.

## YAZIN HƏDİYYƏSİ

Yaz fəsli gəlmişdi. Öz gəlişi ilə bütün təbiəti gözəlləşdirmişdi. O, öz işindən çox razı idi. Bir gün Yaz yamyaşıl dona bürünmüş meşəyə baxırdı. Birdən o, bir yarpağın altında ______ balaca böcək gördü. O, böcəkdən soruşdu:

– Niyə sən yarpağın altında gizlənmisən? Məgər sən məndən yaz hədiyyəsi istəmirsən? Bu ağaclar, çiçəklər, otlar kimi gözəlləşmək xoşuna gəlmir? Sən də onlar kimi xoşbəxt olmaq istəmirsən?

Böcək fikirləşib dedi:

– Xoşbəxt olmaq üçün mənə gözəlləşmək vacib deyil. Mən xoşbəxtəm ki, öz doğma meşəmizdə yaşayıram. Sənə də ______ ki, meşəmizi belə bəzəmisən, gözəlləşdirmisən. Yaşadığım torpağın gözəlliyi mənim üçün hər şeydən əzizdir. Mənə başqa heç nə lazım deyil.

Yaz əvvəlcə çox təəccübləndi ki, bu balaca böcək özü üçün heç nə istəmir. Sonra fikirləşib başa düşdü ki, yalnız özü üçün yaşamaq ______ deyil. Böcəyin belə hərəkətindən təsirlənən Yaz ona balaca, mavi çıraq bağışladı. Yaz böcəyə baxıb düşünürdü: “Qoy bu böcək hər axşam öz işığı ilə meşə sakinlərini sevindirsin”.

O gündən meşəni işıqlandıran, daha da gözəlləşdirən böcəyə ildırımböcəyi – işıldaquş deyirlər.

**M. Kirpiçnikovadan**

**SÖZLÜK**

- gözəlləşdirmək – приукрашивать
- çıraq – лампа
- gəliş – приход
- işıldaquş – светлячок
- böcək – жук
- meşə sakinləri – лесные жители
- xırda – мелкий
- təsirlənmək – расчувствоваться

Çap üçün deyil

**SÖZ EHTİYATI**

vacib deyil – не обязательно

**11.** Mətndəki sarı boşluqlara hansı sözlər uyğun gəlir?
təşəkkür edirəm, əsl xoşbəxtlik, gizlənmiş

**12.** Mətnin əsas mövzusu nədir?

A) Yazın gəlişinə sevinc.
B) Vətənə sonsuz məhəbbət.
C) Hədiyyənin gözəlliyi.
D) Xoşbəxtlik.

**13.** Böcəyin xoşbəxtliyinin səbəbi hansı abzasda verilmişdir? Həmin abzası bir daha oxuyun və oradakı fikri öz sözlərinizlə ifadə edin.

**14.** Necə düşünürsünüz, yaz nə üçün böcəyə mavi çıraq bağışladı?

**15.** Mətndə altından xətt çəkilmiş ifadənin mənasını necə başa düşmək olar? Düzgün hesab etdiyiniz variantı səsləndirin.

A) Ağacların yarpaqları yamyaşıl idi.
B) Yamyaşıl paltar Yazın hədiyyəsi idi.
C) Meşə yaşıl paltarı çox sevirdi.

**16.** Nə üçün mətndə işlənmiş "Yaz" sözü böyük hərflə verilmişdir? Bunun səbəbini izah etməyə çalışın.

**17.** Mətndən sual bildirən cümlələri seçib dəftərinizdə yazın, sual bildirən sözlərin altından xətt çəkin.

**18.** Aşağıdakı suallara mətndəki hansı cümlələr uyğun gəlir?

1) Birdən yarpağın altında Yaz nə gördü?
2) Böcək nəyi istəmirdi?
3) Böcək üçün əziz olan nə idi?
4) Yaz nə üçün təsirləndi?
5) O gündən həmin böcək necə adlanır?

**19.** "Yazın hədiyyəsi" və "Xoşbəxtlik nədir?" mətnlərində deyilənləri müqayisə etməklə aşağıdakı suallar ətrafında müzakirəyə qoşulun.

1) Xoşbəxt olmaq üçün insana nə lazımdır?
2) Siz xoşbəxtliyi necə başa düşürsünüz?

Çap üçün deyil

**20.** Neçənci? sualına cavab verən sözü aid olduğu sözlə birlikdə seçin, birləşmənin ikinci tərəfində işlənmiş sözlərə fikir verməklə köçürün.

1) Nizami Gəncəvi on ikinci əsrdə yaşamışdır.
2) İclas üçüncü mərtəbədəki akt zalında keçiriləcəkdir.
3) Futbolçularımız ikinci hissədə daha yaxşı oynadılar.
4) Mən teatrda səkkizinci sırada oturacağam.
5) Bizimkilər həftənin altıncı günü səyahətə yola düşəcəklər.
6) Mən yeddinci sinifdə oxuyuram.



## § 24. BƏNÖVŞƏ

Çəkilir duman,
Bəzənir meşə.
Nə tez solursan
Sən, a bənövşə!
Gülür çöl, çəmən,
Sular çağlayır.
Qızlar çiçəkdən
______ bağlayır.
İnan sözümə
İndi, bənövşə!

Baxdı üzümə,
Dindi bənövşə:
Qəlbimi verdim
Mən yerə, göyə.
Bahar gətirdim
Sizə hədiyyə.
Sevindi könlüm,
Yenə səhərdir.
Mənim də ömrüm
Bahar qədərdir.



**Nəbi Xəzri**

**SÖZLÜK**

dinmək – заговорить
çağlamaq – бурлить
könül – душа

**SÖZ EHTİYATI**

qəlbini vermək – здесь: от души полюбить

**1.** Baharın ilk çiçəklərindən biri deyil.
a) bənövşə b) nərgiz c) qərənfil ç) qarçiçəyi

Çap üçün deyil

**2.** Şeirdəki sarı boşluğun yerinə hansı sözü yazmaq olar?
a) zənbil b) dəstə c) arzu d) çələng

**3.** Bənövşənin verdiyi cavabdan çıxan nəticə hansıdır?
A) Bənövşənin açması yazın gəlişindən xəbər verir.
B) Bahar gələndə meşələr yaşıllaşır.
C) Qızlar bənövşəni çox sevirlər.

**4.** Siz hansı çiçəkləri sevirsiniz? Bildiyiniz çiçək adlarını dəftərinizdə yazın və cümlələrdə işlədin.

**5.** Əgər sən güllər səltənətinə(королевство цветов) düşsəydin, hansı gülü güllərin şahı seçərdin? Nə üçün?

**6.** Verilmiş rənglərə uyğun güllərin adlarını seçib rəng bildirən sözlərlə yanaşı yazın.

qızılgül, nərgiz, çobanyastığı, zanbaq, lalə, qərənfil, bənövşə

**7.** Hansı sözlərə -ıncı,-inci,-uncu,-üncü şəkilçilərindən birini artırsanız, say alınar? Yoxlayın.
axır, son, bir, çox, xeyli, əvvəl, yüz, dörd, irəli

**8.** Aşağıdakı atalar sözlərini siz əvvəlki siniflərdə eşitmişsiniz. Oxuyun və səhvləri tapıb düzgün şəklini yazın.
1) Qocalara hörmət etmə, sən qocalmayacaqsan.
2) Qocadan kömək, cavandan demək!
3) Böyüksüz evdə xeyir-bərəkət çox olar!
4) Ata olmaq çətin, atalıq eyləmək asandır!
5) Qələm tutan əl dilənər.

**9.** Aşağıdakı sözləri [h] səsini düzgün tələffüz etməklə oxuyun və mənalarını izah edin.
hadisə, əhvalat, əhsən, hərf, həvəslə, həssas, söhbət, həmişə, sahil, sahib, haqlı, təhlükəli, haqqında, dahi, şəhid, şahid, humanist, hasar, hovuz, hələlik, hiyləgər, hökumət

Çap üçün deyil

# Ağacı necə suvarırlar?

Sədinin atası xəstə idi. Həyətdəki ağaclar suvarılmalıydı. Atasının narahatlığını duyan Sədi ona kömək etmək qərarına gəldi.

– Ata, qoy ağacları mən suvarım!

Ata bir qədər fikirləşib dedi:

– Axı onların dibi bellənməlidir.

– Nə olar, belləyərəm. Mən daha böyümüşəm, ata. İndi hər işdə sənə kömək eləyə bilərəm. – Sədi özünü öyməyə başladı.

– Yaxşı, onda başla. Get-gedə daha havalar da istiləşir. Bundan sonra ağacları tez-tez suvarmaq lazım gələcək, – deyib fəxrlə oğluna baxdı.

Sədi beli götürüb işə başladı. Ağacların dibini belləyib yumşaltdı. Əsgər əmi dözməyib, həyətə çıxdı ki, görsün oğlu nə iş görür. Göz gəzdirdi, nə görsə yaxşıdır? Sədi bütün ağacların dibini qazıb töküb. Diblərini də su ilə doldurub. Ata başını bulayıb, təəssüflə bir oğluna, bir də onun gördüyü işə baxdı. Sədi atasının gəldiyini görüb əl saxladı. Dinməz-söyləməz dayanıb, onun nə edəcəyini gözlədi. Əsgər əmi beli onun əlindən alıb dedi:

– Gör yazıq ağacları nə günə salmısan...

Sədi atasına baxıb, onun nə deyəcəyini anlamağa çalışdı.

– Baharda ağacların dibini açmazlar. Ağaca su verəndə gövdədən 30-40 santimetr kənarda ağacın dövrəsi boyunca qazır və suyu tökürlər. Ağacın kökləri kənarlara çox işləyir. Torpaq nəm olduqda köklər suyu sorur. Ağacın dibini bu cür qazıb, kökün üstünə su tökmək ağaca ziyandır. Belədə köklər zədələnə bilər. Atası danışa-danışa ağacın dibini torpaqlayıb, dövrəsində nov düzəltdi və beli oğluna verib dedi:

– Bax, o birilərini də belə düzəlt.

Bu vaxta kimi bunu bilmədiyindən və ağacların dibini qazıb tökdüyü üçün yarıtmaz işindən pərt olan Sədinin çiyinlərindən dağ götürüldü, tez beli atasından alıb, həvəslə işə ...



Sona Xəyal

Çap üçün deyil

**SÖZLÜK**

suvarmaq – поливать
yarıtmaz – неудовлетворительный
bellәmәk – копать
ziyan – вред

**SÖZ EHTİYATI**

әl saxlamaq – приостановиться, воздержаться
özünü öymәk – себя хвалить
göz gәzdirmәk – искать глазами, возить взоры
zәdәlәnmәk – повреждаться
çiyinlәrindәn dağ götürülmәk – гору с плеч свалили

**10.** Mәtndә qırmızı hәrflәrlә verilmiş sözün tәrcümәsi hansıdır?
a) ходит b) постепенно c) часто ç) медленно

**11.** Mәtndәki sarı boşluğun yerinә hansı sözü yazmaq lazımdır?

**12.** Mәtni oxuyub hansı nәticәyә gәlmәk olar?
A) Ağacları hәr gün çoxlu suvarmaq lazımdır.
B) Ağacların dibini qazıb kökün üstünә su tökmәk ağaca ziyandır.
C) Ağacların dibini baharda açmaq çox faydalıdır.

**13.** Mәtni hansı sözlә bitirmәk olar?
a) getdi b) başladı c) çatdı ç) qoşuldu

**14.** Aşağıdakı cümlәlәri Azәrbaycan dilinә yazılı tәrcümә edin:
1) Сади решил помочь отцу. 2) Он стал часто поливать деревья. 3) Отцу не понравилась его работа. 4) Весной нельзя копать под деревьями потому, что можно задеть их корни. 5) Отец показал сыну, как надо копать под деревьями.

**15.** Verilmiş atalar sözlәrindәn hansının mәzmunu mәtnә uyğun deyil?
A) Zәrәrin yarısından qayıtmaq da qazancdır.
B) Zәhmәtsiz bal yemәk olmaz.
C) El gücü, sel gücü.
D) Adam yanıla-yanıla öyrәnәr.
E) Bilmәmәk eyib deyil, öyrәnmәmәk eyibdir.

**16.** Aşağıdakı suallar әsasında kiçik bir tәqdimat hazırlayın.
1) Sәn heç bağda işlәmisәnmi? 2) Ağaclara qulluq etmisәnmi? 3) Bәlkә, haradasa bir ağac әkmişsәn? 4) Ağac әkmәyin nә qәdәr faydalı olduğunu bilirsәnmi?

**17.** Buraxılmış şәkilçilәri әlavә etmәklә cümlәlәri köçürün.
1. Avtobus en.. küçә ilә irәlilәyirdi. 2) Bilik.. insan qanad.. quş kimidir.

Çap üçün deyil

3) Gülər göyçək, ağıl.., səliqə.. , bacarıq.. qızdır. 4) Ürək.. görülən işin nəticəsi pis olar. 5) Bostan.. tərəvəzlər artıq yetişmişdir.

**18.** Aşağıda verilmiş isimlərə uyğun gələn şəkilçiləri əlavə edib əlamət bildirən sözlər düzəldin. Düzəltdiyiniz sözləri tərcümə edin və bir neçəsini cümlələrdə işlədin:

dil, yağ, səliqə, tufan, yağış, meyvə, çiçək, istedad, dad, ləzzət, külək, ətir...

**19.** Şeiri oxuyun və oradakı fikirlərdən istifadə etməklə "Meşələrimiz" mövzusunda mətn tərtib edin:

## MEŞƏLƏR

Nə gözəl, nə səfalı
Olur bizim meşələr.
Ətir saçır hər yana
Lalələr, bənövşələr.

Görürəm ki, ağaclar
Verib burda baş-başa.
Ayna sular axdıqca
Çırpılıb dəyir daşa.

Yer yaşıl, göylər yaşıl,
Yarpaqlar pıçıldaşır,
Gəzdikcə meşədə mən
Sevincim aşıb-daşır.

Eşidirəm hər yandan
Böcəklərin səsini,
Quşların könülaçan
Sevimli nəğməsini.

**Mirmehdi Seyidzadə**



Çap üçün deyil

**20.** "Meşələr" şeirindəki əlamət bildirən sözləri seçib deyin və hər birini cümlələrdə işlədin.

**21.** "Meşələr" şeirində cəmdə işlənmiş isimləri seçib dəftərinizə yazın, həmin sözlərə aid özünüz cümlələr qurub deyin.

## § 25. DAĞLAR

Binələri çadır-çadır
Çox gəzmişəm özüm, dağlar!
Qüdrətini sizdən aldı
Mənim sazım, sözüm, dağlar!

Maral gəzər asta-asta,
Enib gələr çeşmə üstə.
Gözüm yolda, könlüm səsdə,
Deyin, necə dözüm, dağlar?

Qayaları baş-başadır,
Güneyləri tamaşadır.
Gödək ömrü çox yaşadır,
Canım dağlar, gözüm dağlar!

Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada.
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar.

**Səməd Vurğun**

**SÖZLÜK**

binə – жилище
qüdrət– могущество
çeşmə – родник
güney – солнечная сторона
gödək – короткий

**SÖZ EHTİYATI**

ömrüm gedər bada – жизнь закончится
gözüm yolda, könlüm səsdə – в ожидании
düz ilqarlı – верный своему делу, преданный

**1.** Böyük şairimiz dağlarla insan kimi danışır. Nə üçün?

**2.** "Düz ilqarlı bizim dağlar" sözləri ilə şair nə demək istəmişdir?

**3.** Sözlərdən cümlələr düzəldib yazın və tərcümə edin.
1) yurd, şair, qoynu, dağlar, yerləşir
2) əhatə, uca, kəndimiz, dağlar, olunmuş
3) sıldırım, var, hündür, vətənimiz, dağlar
4) çaylar, səs, tərəf, yayılır, hər, yazda, dağ

Çap üçün deyil

**4.** "Dağlar" şeirinin məzmununa hansı fikir uyğun gəlir?
A) Bütün kəndlər dağların qoynunda yerləşir.
B) Dağlar insana ən etibarlı dayaqdır.
C) Dağlar insanın gödək ömrünü uzadır.

**5.** Şeirdə qırmızı hərflərlə verilmiş sözü hansı sözlə əvəz etmək olar?
a) bulaq b) göl c) çay d) çəmənlik

**6.** Cədvəli dəftərinizə çəkin. Verilmiş sözləri cədvəl üzrə qruplaşdırın:
ac, dörd, beş, xeyirli, ağac, şirin, köynək, dadlı, rəf, quş, tərəvəz, əllinci, sarı, yüz, xeyli, səxavətli, ürək, dad, pambıq, bir-iki, səliqəli, çox, üçüncü, hündür

| İsim | Sifət | Say |
|---|---|---|
| | | |

**7.** Sxemlərə uyğun birləşmələr düzəldin və dəftərinizə yazın.

Neçə? / Necə? → kitab

Neçə? / Hansı? → kitabxanaçı

Neçənci? / Hansı? → rəf

Neçənci? / Necə? → şagird

**8.** Şeirdə göy rəngdə verilmiş sözlərin yaxınmənalı və əksmənalı qarşılığını tapıb dəftərinizə yazın. Hansı sözün antonimini tapmaqda çətinlik çəkdiniz? Bəs hansı sözlərə bir neçə qarşılıq tapmaq mümkündür? Özünüzü yoxlayın.

**9.** Şeirdə yaşıl rəngdə verilmiş sözün antonimi hansıdır?
a) yamac b) quzey c) gündöyən d) kölgə

**10.** "Bir qonağam bu dünyada ..." misrasında şair nə demək istəyir? İnsanlar bu dünyada bir qonaq olduqlarına görə necə yaşamalıdırlar ki, özlərindən sonra yaddaşlarda yaşasınlar? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

**TAP GÖRƏK**

11. Tapmacanın cavabını ismin halları üzrə dəyişib yazın.
İki kürküm var–
On qardaşa çatar.
Bunu kim tapar?

Çap üçün deyil

## ÖZÜNÜZÜ YOXLAYIN

**1.** Oxuduğunuz nağılda qarışqa hansı quşu ölümdən xilas edir? Həmin quş hansı nağılın qəhrəmanıdır?

**2.** Öyrəndiyiniz mətnin müəllifi əsl xöşbəxtliyi nədə görürdü?
a) var-dövlətdə b) can sağlığında
c) söz azadlığında d) el içində hörmətdə

**3.** "Söz var, desəm, yaxşı-yaman yazılar,
Söz var, desəm, yaxşı-yaman yozular.
Ürəyimiz yaralanar, pozular,
Öz sözünü bilməyəndə dil bir az" – misraları öyrəndiyiniz hansı şeirin ideyasına uyğundur?

**4.** Xalq qəhrəmanı Nəbini nə üçün "Qaçaq Nəbi" adlandırıblar?
a) dağlarda yaşadığı üçün
b) həbsxanadan qaçdığı üçün
c) bəylərin zülmündən dağlara qaçıb mübarizə apardığı üçün
d) kasıblara, yoxsullara kömək etdiyi üçün

**5.** "Əsl dost" hekayəsindəki hadisələr hansı müharibədən xəbər verir? O müharibə haqqında bildiklərinizi 2-3 cümlə ilə ifadə edin.

**6.** Aşağıdakı misraların tərcümələrindən hansı düzgündür?
"Əl dosta vermək üçün
Gül dərib dəstələyir".
A) Руками можно выращивать много цветов.
B) Руки собирают цветы, чтобы подарить другу.
C) При встрече друзья обмениваются рукопожатием.

**7.** Hansı insanlara Şəhid adı verilir? Bu sözdən hansı mətndə istifadə edilmişdir?
A) Uzun xəstəlikdən sonra vəfat edənlərə şəhid adı verilir.
B) Vətən uğrunda döyüşlərdə həlak olanlara şəhid adı verilir.
C) Hər hansı qəza nəticəsində həlak olanlara şəhid adı verilir.

**8.** Yuvasının yeri dəyişdirilən quşlardan hansı hekayədə bəhs olunur?

**9.** Hansı mətndə qızcığaz öz sevincini ürəyi istədiyi kimi doğmaları ilə bölüşə bilmədi?

Çap üçün deyil

**10.** Haqqında öyrəndiyiniz kitab nə üçün "Qırmızı kitab" adlanır?
A) Rəngi qırmızı olduğu üçün.
B) Kökü kəsilən heyvanların adı bu kitaba düşdüyü üçün.
C) Təsadüfən belə adlandırılmışdır.
D) Bu kitabda çoxlu məlumat toplandığı üçün.

**11.** Övladın anaya ən böyük hədiyyəsi nə ola bilər? Bu haqda hansı şeirdə danışılır?

**12.** Ağacları suvaran Sədinin səhvi nədə idi? Mətndəki bu hissəni öz sözlərinizlə danışın.

**13.** "Əl" şeirindən yönlük halda işlənmiş sözləri seçib səsləndirin, sonra onları ismin digər hallarında da işlədin və tərcümə edin.

**14.** "Şəhidlər xiyabanı" şeirində işlənən sifətləri aid olduqları isimlərlə birlikdə seçib oxuyun.

**15.** "Qırmızı kitab" mətnində necə? sualına cavab verən sözləri seçib yazın və ayrı-ayrı cümlələrdə işlədin.

**16.** "Hədiyyə" şeirində işlənmiş sayları aid olduqları isimlərlə birlikdə seçib yazın və tərcümə edin.

**17.** "Ağacı necə suvarırlar?" mətnindən götürülmüş birləşmələrdən hansında say işlənmişdir?
a) bir qədər fikirləşib
b) 30-40 santimetr kənarda
c) çox işləyir

**18.** "Bir yarpağın altında gizlənmiş balaca böcək" hansı hekayədəndir? Bu hekayənin mövzusu nədir?
a) gözəlləşmək istəyi
b) Vətən məhəbbəti
c) təbiət gözəlliyi
d) dostluq

**19.** "Yazın hədiyyəsi" mətnində işlənmiş sifətləri aid olduğu sözlərlə birlikdə seçib yazın.

**20.** Say hansı variantdadır?
a) çox həyəcan
b) çox istəyirəm
c) çox gözəl
d) çox mehriban

Çap üçün deyil

**21.** Aşağıdakı atalar sözlərini siz əvvəlki siniflərdə eşitmisiniz. Oxuyun və səhvləri tapıb düzgün şəklini deyin.

1) Sözü uzadarsan, uzat deyərlər. 2.) Sözün düzünü güləndə deyərlər. 3) Söyləyənə bax, söylədiyinə baxma! 4) Əvvəl danış, sonra düşün! 5) Sözün yaxşısı baldan acı olar. 6) Sirin dil ilanı yuvasından çıxarmaz.

## § 26. APRELİN BİRİ GƏLƏNDƏ

Aprel baharın sevincli, fərəhli ayıdır. Bir-birimizi zarafatla aldatmaq üçün aprelin birini həmişə səbirsizliklə gözlərdik. Fəqət aprelin biri gələndə uşaqlıq şıltaqlığının bir xəcalətini unuda bilmirəm.

Beşinci sinifdə oxuyurdum. Bahar yenicə gəlmişdi. Quşlar bahar nəğmələrini oxuyurdu. Aprelin biri idi. Çantamı çəkə-çəkə məktəbə yollanırdım. Küçəmizdə bir vur-çatlasın var idi ki, gəl görəsən. Bu sözlər hamının dilinin əzbəri idi: "Pervıy aprel, ne komu ne ver". O günü məktəbə çatınca çoxlarını aldatdım, çoxlarına aldandım.

Təbiətşünaslıq dərsi idi. Zəng yenicə vurulmuşdu. Müəllim jurnal üzrə adları yoxlayırdı. (Onun adını indi də deməyə xəcalət çəkirəm). Mən dərsə gecikmişdim. Gecikənlər ayaq üstə dayanmalı idi. Sinfə girən kimi icazəsiz-filansız birbaşa onun yanına gəlib yavaşca dedim:

– Müəllim, sizi direktor təcili çağırır.

Müəllim ayağa qalxdı və tələsik sinifdən çıxdı. Uşaqların hay-küyü sinfi başına götürdü. Mən sakitcə keçib yerimdə oturdum.

Bir neçə dəqiqədən sonra müəllim qayıdıb gəldi. Mən başımı aşağı dikmişdim. Müəllim mənə tərs-tərs baxdı. Heç nə demədi. Dərsə başladı. Ancaq yamanca pərt idi. Yaxşı ki, onu aldatdığımı heç kəsə deməmişdim. Yeni dərsi çox həvəssiz izah etdi. Kiçik bir şeyin üstündə uşaqlardan kiməsə bərk acıqlandı. Mən xəcalətimdən bütün dərsi başımı qaldıra bilmədim. Zəng çölə vuruldu. O, jurnalı götürüb sakit addımlarla sinifdən çıxdı. Mən arxa tərəfdən onun üzünün bir hissəsini görə bildim. Pərtliyinin qızartısı hələ də getməmişdi.

Bağışla məni, əziz müəllimim. Bağışla! Siz məni həmin gün tənbeh etməsəniz də, mən özümü tənbeh etdim. İndi də edirəm.

Baharın o sevimli, o şən günü gələndə hamı sevinir, dostları ilə zarafat edir, deyir-gülür. Mən isə sizi aldatdığım o günün xəcalətini hələ də çəkirəm.

**Əli Səmədli**

Çap üçün deyil

## SÖZLÜK

fərəhli – радостный
xəcalət – стыд, позор
aldanmaq – обмануться
şıltaqlıq – каприз, неожиданная прихоть
ayaqüstə – стоя

## SÖZ EHTİYATI

fəqət – но, однако
vur-çatlasın – шум-гам
… başına götürmək – кричат во все горло
tərs-tərs baxmaq – смотрет косо
tənbeh etmək – порицать

**1.** Aprelin biri nə günüdür? Bu gün niyə daha çox uşaqların xoşuna gəlir?

**2.** Necə düşünürsünüz, insanları aldatmaq yaxşıdır? Nə üçün aprelin birində aldadılan insanlar incimirlər? Müzakirəyə qoşulun.

**3.** Hansı sual oxuduğunuz mətnə aid deyil?
A) Aprelin biri gələndə uşaqlar nə üçün sevinirdilər?
B) Uşaq hansı dərsdə müəllimi aldatdı?
C) Onu aldatdığı üçün müəllim uşağı necə danladı?
D) Uşaq müəllimi necə aldatdı?

**4.** Uşaq müəllimi nə üçün aldatmışdı?
A) Onunla zarafat etmək istəyirdi.
B) Dərsə gecikdiyinə görə ayaq üstə dayanmaq istəmirdi.
C) Dərslərinə hazır olmadığı üçün danlanmaq istəmirdi.

**5.** Zarafat olsa da, müəllimi aldatmaq olarmı? Siz belə hərəkət edərsinizmi?
Özündən böyük insanları aldatmaq nə dərəcədə düzgündür? Debata qoşulun və fikirlərinizi yoldaşlarınızla bölüşün.

**6.** Mətndən istifadə etməklə cümlələri tamamlayıb köçürün.
1) Həmişə aprelin birini ... 2) Mən dərsə ... 3) Kiçik bir şeyin üstündə kiməsə ... 4) Mən arxa tərəfdən onun üzünün ... 5) Siz məni həmin gün tənbeh etməsəniz də, ...

Çap üçün deyil

**7.** Cümlələrin sonundakı sözlərin şəkilçilərinə diqqət yetirin və lazım olan sözləri əlavə etməklə  cümlələri köçürün.

1) – kitab oxumağı sevirəm.
2) – kitab oxumağı sevirsən.
3) – kitab oxumağı sevir.
4) – kitab oxumağı sevirik.
5) – kitab oxumağı sevirsiniz.
6) – kitab oxumağı sevirlər.

**8.** "Mən, sən, o, biz, siz, onlar" sözlərini isim kimi hallandırıb dəftərinizə yazın.

## BUNLARI BİLİRSİNİZMİ?

Uşaqlar, siz tez-tez öz nitqinizdə **mən, həmin, bu, kim, siz, onlar, heç nə, birisi, neçə, özüm, bütün** və s. kimi sözlərdən istifadə edirsiniz. Bu sözlər Azərbaycan dilində **əvəzlik** adlanır. Əvəzliklərin bir neçə növü var. Yadınızda saxlayın: **mən, sən, o, biz, siz, onlar** – **şəxs əvəzlikləri**dir.

**9.** Şəxs əvəzliklərindən bir neçəsini cümlələrdə işlədin.

**10.** Mətndə göy rəngdə verilmiş sözlər üzərində müşahidə aparın. Necə düşünürsünüz, görəsən, bu sözlər niyə göy rəngdə verilib? Onların içərisindən şəxs əvəzlikləri işlənmiş cümlələri seçib səsləndirin.

## SÖZ

Söz vardır, kəsdirər başı,
Söz vardır, kəsər savaşı.
Söz vardır ağulu aşı
Bal ilən edər yağ bir söz.

Sözünü yaxşı bişirgil,
Yaxşı us ilə düşürgil.
Yaramazını şaşırgil,
Canına olur dağ bir söz

**Şah İsmayıl Xətai**



**SÖZLÜK**

savaş – война
ağu – яд, отрава
dağ – здесь: душевная боль, рана

Çap üçün deyil

## SÖZ EHTİYATI

yaxşı us ilə düşürgil – говори хорошие слова
yaramazını şaşırgil – пропусти нехорошие фразы

**11.** Müəllimin köməyi ilə şeirin məzmununu öz sözlərinizlə danışın.

**12.** Şerin müəllifi barədə nə bilirsiniz? “Ata yurdu” (Отечество) dərsliyindən onun haqqında nə öyrənmişsiniz? Bildiklərinizi danışın.

**13.** Şeirdə aşağıdakı atalar sözlərindən hansı işlənmişdir?
A) Sözü ağzında bişir, sonra çıxart.
B) Söz sözün dayağıdır.
C) Söz sözü çəkər, arşın bezi.

**14.** Şeirin əsas məzmunu nədən ibarətdir?
A) Həmişə sözləri düzgün tələffüz etmək lazımdır.
B) Söz çox qiymətli və dəyərlidir, ondan məharətlə istifadə etmək lazımdır.
C) Söz yağ və bala bənzəyir.

**15.** “Danışmaq istədikdə, əvvəl fikirləş, nitqində layiqli sözlərdən istifadə et” fikri şeirin hansı misralarında verilib? Bu misraları dəftərinizə köçürün, indi işlədilməyən söz və ifadələrin altından xətt çəkin.

## ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ

Söz ki var, dəmirdir, vurduqca uzanar.
Söz götürənin, yer oturanındır.

**16.** Şeirin məzmununa görə hansı söz pis əməllərin nəticəsidir?
a) savaşı kəsər b) ağulu aşı bal edər c) başı kəsdirər

**17.** Xətlərin yerinə “o, bu” sözlərindən uyğun gələnini yazın və cümlələri rus dilinə tərcümə edin.
1) Anam – məktəbdə işləyir. 2) – qızın qardaşı əlaçıdır. 3) – tapşırıq vaxtında yerinə yetirildi. 4) – hasarı kim uçurdu?

**18.** Şeirdən götürülmüş aşağıdakı sözlərə kontekstə uyğun yaxınmənalı sözlər tapıb cümlələrdə işlədin, cümlələri dəftərinizə yazın:

| | | |
|---|---|---|
| kəsdirər – | ağulu – | kəsər – |
| aş – | yaxşı – | söz – |
| yaramaz – | savaş – | |

Çap üçün deyil

**19.** "O, bu" əvəzliklərini işlətməklə 6 cümlə yazın. Elə edin ki, cümlələrdən üçündə "o, bu" sözləri kim?, üçündə isə hansı? sualına cavab versin.

## TAP GÖRƏK

**20.** Tapmacanı oxuyun, cavabın oxuduğunuz şeirlə əlaqəsini əsaslandırın. Tapmacada işlənmiş əksmənalı sözləri göstərin.

Nə əli var, nə ayağı,
Nə başı var, nə qulağı,
Gah ağladar, gah güldürər. ✉

**21.** Əlamət bildirən sözlərin əvəzinə "o, bu, elə, belə, həmin" sözlərindən uyğun gələnini yazaraq aşağıdakı cümlələri köçürün:

1) Təzə dərsliyi kim alıb?
2) Qonşudakı oğlan neçənci sinifdə oxuyur?
3) Düzgün nümunə göstər ki, hamı başa düşsün.
4) Müəllim həmişə ağıllı şagirdləri ilə fəxr edir.
5) Sağdakı adamı tanıyırsan?

### BUNLARI BİLİRSİNİZMİ?

Uşaqlar, siz artıq bilirsiniz ki, Azərbaycan dilində əvəzliyin bir neçə növü var. Bu növlərdən biri də **işarə əvəzlikləridir**. Yadınızda saxlayın: **o, bu, elə, belə, həmin** – işarə əvəzlikləridir.

**22.** İşarə əvəzliklərinin hərəsinə aid bir cümlə tərtib edin.

# § 27. BALACA BAĞBAN

### 1-ci hissə

Yenicə məktəbdən qayıtmış Araz çarpayıya söykənib fikrə getmişdi. Babasının birdən-birə xəstələnməsi ona yaman təsir etmişdi.

Qohumlar, qonşular tez-tez Kərim babaya baş çəkir, onun səhhətiylə maraqlanırdılar. Bu gün qonşu Nuru da babanın yanına gəlmişdi.

Nuru bir az oturub baba ilə söhbət etdikdən sonra ayağa durdu:

– Torpaq sahəsi götürüb ev başlamışam. Bağımda ağac azdır. İstəyirəm ki, sənə beş-on ting calatdırım. Yastığın yüngül olsun. Sağalan kimi bizə gəlməyi unutma, – dedi.

Kərim baba Nurunun sözlərindən dirçəldi:

– Ağıllı iş tutmusan, oğlum. Dünyada yurd salmaqdan, ev tikməkdən savab iş ola bilməz. Ayağa qalxan kimi sənin qulluğunda hazıram.

Nuru gedəndən sonra Kərim baba əlini nəvəsinin başına çəkib dedi :

– Əziz balam, mən dövranımı sürmüşəm. Bir gün bu dünyadan köçə-



Çap üçün deyil

cəyəm. Bundan qorxmuram. Amma bir şey məni narahat edir. Məndən sonra kənddə calaq işinə kim baxacaq? Bağbansız da kənd olar? İstəyirəm ki, bağbanlığın sirrini sənə də öyrədəm. Ağac əkmək, calaq etmək, yaşıllığı qorumaq çox şərəfli işdir.

Babanın sözləri  Arazı sevindirdi ...

Kərim baba yataqdan qalxandan sonra nəvəsini də götürüb bağa getdi. Bağda Kərim babanın yetişdirdiyi o qədər meyvə ağacı vardı ki: alma, armud, gilas, tut, əzgil, alça ... Baba hər meyvədən bir qələm kəsdi. Nəvəsinə öyrədə-öyrədə məlhəm hazırladı. Bıçaq, mişar götürüb Arazla bərabər, Nurugilə yollandı.

**Nazim Hüseynov**

**SÖZLÜK**

səhhət – здоровье
ting – саженец
calatdırmaq – прививать
dirçəlmək – оживать, ожить
əzgil – мушмула
məlhəm – густая смесь приготовленная из лекарств
mişar – пила

**SÖZ EHTİYATI**

təsir etmək – растрогать
fikrə getmək – задуматься
baş çəkmək – навещать
savab iş – благородное дело
qələm kəsmək – порезать тонкий черенок для прививки
dövranını sürmək – прожить жизнь

**1.** Aşağıdakı suallar əsasında mətnin məzmununu danışın:
1) Kərim baba xəstə yatırdı. Onun ayağa qalxmasına nə səbəb oldu?
2) Kərim babanın narahatlığının səbəbi nə idi?
3) Kərim baba hansı faydalı işlə məşğul olurdu?

**2.** Hansı peşələr var ki, onlara yiyələnmək üçün təhsil almaqdan çox, öyrənmək, təcrübə toplamaq lazımdır? Fikirlərinizi yoldaşlarınızla müzakirə edin.

**3.** Mətndən istifadə etməklə buraxılmış sözləri qoyub cümlələri köçürün.
1) Sağalan kimi – gəlməyi unutma. 2) Ayağa qalxan kimi – qulluğunda hazıram. 3) Bir gün – dünyadan köçəcəyəm. 4) – sonra kənddə calaq işinə kim baxacaq? 5) İstəyirəm ki, bağbanlığın sirrini – də öyrədəm.

**4.** Mətni Azərbaycan dilinə tərcümə edin və dəftərinizə yazın. Tərcümə etdiyiniz mətndə əvəzlikləri göstərin.

Çap üçün deyil

### Старый моряк

Мой дедушка когда-то был моряком. Он служил на большом корабле. На этом корабле дедушка объездил почти всю страну. По вечерам он часто рассказывает нам интересные истории из своей жизни. Слушая его рассказы, мы ощущаем себя в тех странах, о которых он рассказывает с огромным удовольствием.

**BUNLARI BİLİRSİNİZMİ?**

**O, bu** əvəzlikləri kim? və ya nə? suallarından birinə cavab verdikdə, onlardan sonra bəzən (isim, sifət, say gələrsə) vergül (,) işarəsi qoyulur. Məsələn: O (kim?), dərsini oxudu. Bu (nə?), maraqlı kitabdır.

Əgər **o, bu** əvəzlikləri hansı? sualına cavab verərsə, onlardan sonra vergül (,) işarəsi qoyulmur. Məsələn: O (hansı?) çiçəklərin çox gözəl ətri var. Bu (hansı?) oğlan mənim uşaqlıq dostumdur.

**5.** Cümlələri köçürün. Lazım olan yerdə vergül işarəsini qoymağı unutmayın.

1) Uşaqlar bu tapşırığın öhdəsindən asanlıqla gəldilər. 2) Bu mənim ən sevdiyim güldür. 3) Səlim o oğlanı mənə nişan verdi. 4) O qonağı mehribanlıqla qarşıladı. 5) Bu eşitdiyim ən gözəl sözlər idi. 6) Gülşən o gülləri çox əzizləyirdi.

**6.** 5-ci çalışmadakı hansı cümlədə “o” əvəzliyi həm kim? həm də hansı? sualına cavab verə bilər?

**7.** Mətndə qırmızı rəngdə verilmiş sözləri dəftərinizə köçürün. Hər bir sözün mətnə uyğun sinonimini tapıb qarşısında qeyd edin. Çətinlik çəksəniz, müəllimin köməyindən istifadə edin.

**8.** Mətndə işlənmiş “yaman” sözünü aşağıdakılardan hansı ilə əvəz etmək olmaz?

a) çox b) pis c) yaxşı

**9.** Sözlərin Azərbaycan dilindəki qarşılığını “köməkçi”dən tapıb qarşılarında yazın və bir neçəsini cümlələrdə işlədin.

нравиться, обнимать, беседовать, сердце полное радости, слушать, задуматься, встать, понимать, понравиться, чувствовать

**KÖMƏKÇİ:** qulaq asmaq, söhbət etmək, bağrına basmaq, ürəyi sevinclə dolmaq, hiss etmək, fikrə getmək, ayağa durmaq, başa düşmək, qulağını oxşamaq, ürəyinə yatmaq

Çap üçün deyil

## MEŞƏNİN QORXUSU



– Qucağında şir, pələng,
Ayı gəzir həmişə.
Bu vəhşi heyvanlardan
Qorxmursanmı, ay meşə?
– Qoynuna sığınandan
Meşənin nə qorxusu?
Sən də qonaq gəl mənə,
Dinlə quşlar oxusun.
Sinəmdəki güllərin
Əyil öp yanağından.
– Yəni heç qorxun yoxdu?
– Var.
– Nədəndi?
– Yanğından.
Əlini cibindən çək,
Yoxsa səndən küsərəm.
Kibrit çöpü görəndə
Əsim-əsim əsirəm.

**Rafiq Yusifoğlu**

**SÖZLÜK**

vəhşi – дикий
əyilmək – нагнуться
kibrit çöpü – спичка

**SÖZ EHTİYATI**

qoynuna sığınmaq – здесь: приютиться
əsim-əsim əsmək – сильно дрожать

**10.** Şeirdə nədən bəhs olunur? Məzmunu genişləndirib öz sözlərinizlə danışın. Şeirdə deyilənlərə nələri əlavə edərdiniz?

**11.** Şeirdə təsvir olunan meşə nədən qorxur?
a) şirdən b) ayıdan c) kibrit çöpündən d) ildırımdan

**12.** Aşağıdakı fikirlərdən hansı şeirin məzmunu ilə səsləşir?
A) Kibrit çöpünü görəndə meşə əsim-əsim əsirdi, çünki yanğından qorxurdu.
B) Meşə heç nədən qorxmurdu, çünki orada şir, pələng yaşayırdı.
C) Meşə vəhşi heyvanlardan qorxduğu üçün əsim-əsim əsirdi.

Çap üçün deyil

**13.** Şeirdə nə? sualına cavab verən sözləri dəftərinizə köçürün, hər birinin qarşısında tərcüməsini yazın.

**14.** Necə bilirsiniz, şeirdə qırmızı rənglə fərqləndirilmiş sözlərin hamısına aid olan əlamət nədir?

**15.** Şeirdə qırmızı rəngdə fərqləndirilmiş sözləri dəftərinizə köçürün və hər birinin düzgün tələffüzünü qarşısında qeyd edin.

**16.** Qoynuna sığınandan
Meşənin nə qoxrusu? - misralarının mənasını izah etməyə çalışın. Qoynuna sığınanların meşəyə faydası nədir? Fikirlərinizi bir-birinizə danışın.

**17.** Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözləri bir sözlə əvəz edə bilərsinizmi? Özünüzü yoxlayın.

1) Meşədə ağaclar, kollar, çiçəklər gözəl görünür.
2) Anam, atam, bacım bu sözlərə inanmaq istəmirdi.
3) Arif, Eldar, Əli bizə gəlmişdi.

Köməkçi: hər şey, heç kəs, hamı

**18.** Aşağıdakı atalar sözlərindəki səhvləri tapıb düzgün şəklini yazın.

1) Ağ gün qaraldar, qara gün ağardar.
2) Zəhmət çəkməyən həmişə bal yeyər.
3) Tənbəl həmişə yaxşıyam deyər.
4) Sonrakı peşmançılıq faydalı olar.
5) Acıqla iş görən xeyir çəkər.

## § 28. BALACA BAĞBAN

### 2-ci hissə

Nuru bağda işləyirdi. O, Kərim baba ilə Arazı gülərüzlə, sevinclə qarşılayıb tingliyə apardı. Baba tingləri calaq etdikcə Araz diqqətlə ona baxırdı.

Bundan sonra baba hara calaq etməyə gedirdisə, Arazı da özü ilə aparırdı.

Bir dəfə Araz babasına dedi ki, mən də calaq etmək istəyirəm. Baba nəvəsinin bu sözlərindən yaman sevindi. Onu bağa apardı. Calaq etməyə icazə verdi.

Araz o gün üç ting caladı: bir alma, bir armud, bir alça tingi.

Yaz gəldi. Baba nəvəsini də götürüb bağa yollandı. Arazın caladığı tinglərin qarşısında əyildi. Tinglərə diqqətlə baxdı. Onların üstündəki xırda tumurcuqları görəndə sevinclə dedi: - Calaqların ikisi tutub. Biri isə

Çap üçün deyil

quruyub. İlk sınaq üçün bu çox yaxşı nəticədir. Səni təbrik edirəm, balaca bağban!

Araz çox sevindi.

Bundan sonra baba calaq etməyə gedəndə iki bıçaq, iki mişar götürürdü ... Bir neçə ildən sonra Kərim baba gözlərini əbədi yumdu. Amma calaq etdirmək istəyənlər yenə də onların qapısına gedirdilər. Kəndin balaca bağbanı babasının sevimli peşəsini bacarıqla davam etdirirdi.

**Nazim Hüseynov**

**SÖZLÜK**

tumurcuqlar – почки
sınaq – испытание
nəticə – результат
bilək – запястье

**SÖZ EHTİYATI**

gözlərini əbədi yummaq – закрыть навеки глаза, умереть

**1.** Nəyə görə Kərim babanın vəfatından sonra da adamlar onların qapısına gəlirdilər? Ətraflı danışın.

**2.** Hansı sualın cavabı mətndə yoxdur?
A) Kərim baba nəvəsindən nə üçün narazı qaldı?
B) Ayaz calaq etməyi kimdən öyrəndi?
C) Kərim babanın bağında hansı meyvələr var idi?

**3.** Daha hansı şərəfli peşə adlarını bilirsiniz? Debata qoşulun.

**ATALAR SÖZÜ – SÖZLƏRİN GÖZÜ**

Qocanın biliyi, cavanın biləyi.
Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.
Bağ salan barın yeyər.

**4.** Yuxarıda verilmiş atalar sozlərindən birincisinə hansı tərcümə uyğun gəlir?
A) Где грозно, там и честно.
B) В науке старых нет.
C) Молодость плечами покрепче, старость головой.

**5.** "Hansı peşə yaxşıdır?" mövzusunda kiçik ev inşası yazın.

Çap üçün deyil

***NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN***

***Bir elmi öyrənmək istədikdə sən***
***Çalış ki, hər şeyi kamil biləsən.***
***Kamil bir palançı olsa da insan,***
***Yaxşıdır yarımçıq papaqçılıqdan***

**6.** Aşağıdakı cümlələrdə buraxılmış sual bildirən sözləri yerinə qoyun. Suallara yazılı cavablar verin.

1) Arazgilə – qonaq gəlmişdi?
2) Kərim baba nəvəsi ilə – getdi?
3) Baba ağaclar üçün – hazırladı?
4) Araz o gün – ting caladı?
5) Baba və nəvə tinglərə – baxdılar?
6) İlk sınaq üçün – nəticədir?

**BUNLARI BİLİRSİNİZMİ?**

Əvəzliyin növlərindən biri də **sual əvəzlikləridir**. Sual əvəzlikləri **sual bildirən** sözlərdir.

Yadınızda saxlayın: **kim?, nə?, hara?, necə?, nə cür?, hansı?, neçə?, nə qədər?** və s. sual əvəzlikləridir.

**7.** Sual əvəzliklərindən istifadə etməklə özünüz mətnə aid suallar tərtib edin və yazın.

**8.** Aşağıdakı birləşmələri rus dilinə tərcümə edin və bir neçəsini cümlələrdə işlədin:

bağbanlığın sirri, torpaq sahəsi, nəvəsinin sözləri, babanın səhhəti, kəndin balaca bağbanı, babasının sevimli peşəsi, babanın yetişdirdiyi meyvə ağacı

**9.** Mətndə işlənmiş "**gözlərini əbədi yummaq**" birləşməsini aşağıdakılardan hansı ilə əvəz etmək olmaz?

a) dünyasını dəyişmək  b) dünyadan köçmək
c) vəfat etmək  d) rahat olmaq

Çap üçün deyil

## GÜLƏK VƏ DÜŞÜNƏK

**10.** Lətifəni oxuyun, sual əvəzliklərinin işləndiyi cümlələri göstərin.

### Mollanın hinduşkası

Bir gün Molla bazarda bir tutuquşu satana rast gəlir. Soruşur: – Bu nədir?

Deyirlər: – Tutuquşu.

Soruşur: – Qiyməti neçəyədir?

Kişi deyir: – Əlli manat.

Molla heç bir söz demir, evə qayıdıb öz hinduşkasını tutub, bazara gətirir.

Soruşurlar: – Molla, hinduşkanı neçəyə deyirsən?

– Beş yüz manat.

Deyirlər: – Ay Molla, dəli olmamısan ki? Hinduşka da beş yüz manata olar?!

Molla tutuquşunu göstərib deyir:– O boyda quşu əlli manata satır, heç bir söz demirsiniz. Mən qoyun boyda hinduşkanı beş yüz manata deyirəm, hələ bir məni danlayırsınız da... Mənim hinduşkam lap azı bir otuz dəfə ondan böyük olar, ya yox?

Deyirlər: – Ay Molla, axı o, tutuquşudur.

Molla deyir: – Nə olsun? O, tutuquşudu, bu da hinduşkadı.

Deyirlər: – Axı o, adam kimi danışır.

Molla baxır ki, səhv eləyib, deyir: – Nə olsun? O danışır, bu da susur. Bəs siz bu boyda böyümüsünüz, bilmirsiniz ki, danışmaq gümüşdürsə, danışmamaq qızıldır?

**11.** Lətifədə işlənmiş sayları seçib səsləndirin.

## AZƏRBAYCANIN "QIRMIZI KİTAB"I

Azərbaycanın "Qırmızı kitab"ı 1989-cu ildə işıq üzü görmüşdür. Bura qunduz, turan pələngi, ceyran, maral, dağ keçisi, qonur ayı və sair heyvanlar, hacıleylək, çəhrayı qızılqaz (flaminqo), turac, kəklik və s. quşlar və beş növ balıq salınmışdır.

Biz elə etməliyik ki, bu kitabdakı qırmızı səhifələrin sayı getdikcə azalsın, yaşıl səhifələrin sayı çoxalsın.

Bunun üçün dövlət bacardığını etməyə çalışır. Bəs biz nə edirik? Biz heç vaxt unutmamalıyıq ki, təbiətin sahibi olmaqla yanaşı, onun qoruyucusu da olmalıyıq. Dövlət tərəfindən salınan qoruqlarda yüzlərlə heyvan məskunlaşıb. 1929-cu ildə yaradılmış Qızılağac qoruğu Azərbaycanda ən

Çap üçün deyil

böyük qoruqlardan biridir. Bu qoruq otuz kilometr ərazi boyunca uzanır.

Bu qoruğun əsas məqsədi suda yaşayan quşları qorumaq, müdafiə etməkdir. Aprel ayında bura çox nadir quş növləri yuva qurmaq üçün köç edir. Yaşılbaş ördəklər, boz qazlar, qağayılar isə qışı da burda keçirirlər.

Yırtıcı heyvanlardan isə canavar, çaqqal, tülkü, qamış pişiyi və daha çox qabanlar bu qoruqda məskən salmışlar.

Deməli, uşaqlar, meşələrdə, düzənliklərdə, dağlarda qiymətli heyvan növləri yaşayır. Meşələrimizi, düzənliklərimizi, dağlarımızı qorumalıyıq.

Balığın yaşaması üçün təmiz su lazımdır. Su hövzələrimizi qorumalıyıq.

Balığa su, quşa hava, heyvana meşə lazımdır. İnsana isə Vətən lazımdır. Gəlin təbiəti qoruyaq. Təbiəti qorumaq Vətəni qorumaqdır!

**SÖZLÜK**

qadağandır – запрещено
qunduz – бобр
kəklik – куропатка
qoruyucu – защитник
məskunlaşmaq – поселиться
məqsəd – цель
nadir – редкий
yırtıcı – хищный
qonur – бурый

**SÖZ EHTİYATI**

işıq üzü görmək – быть изданным, опубликованным
su hövzələri – водохранилища

**12.** Mətni oxuyun və yadınızda qalanları aşağıdakı plan əsasında yazın.
1) Azərbaycanın “Qırmızı kitab”ı.
2) Qızılağac qoruğu.
3) Uşaqlara müraciət.

**13.** “Qırmızı kitab”a adları düşən heyvan və quşların bəzilərinin adlarını dəftərinizdə yazın, onların tərcüməsini öyrənin. Bir neçəsini cümlədə işlədin.

**14.** Hansı söz səhv yazılıb?
a) qağayı b) ördəy c) leylək d) qoruq

**15.** Aşağıda verilmiş hansı saylar dəqiq miqdar bildirmir? Onları seçin, qarşısında suallarını yazmaqla dəftərinizə köçürün.

otuz, bir neçə, xeyli, 1989-cu ildə, beş, yüzlərlə, 1929-cu ildə, çox, bir az, beş-on, otuz-qırx

Çap üçün deyil

**16.** Mətndə bir neçə söz qırmızı rəngdə verilib. Sözlərin quruluşu ilə bağlı biliklərinizi yadınıza salın və həmin sözlərin digərlərindən fərqləndirilməsinin səbəbini izah edin.

**17.** "İşıq üzü görmək" ifadəsini aşağıdakılardan hansı ilə əvəz etmək olmaz?

a) çap olunmaq  b) nəşr olunmaq  c) çapdan çıxmaq  d) yazılmaq

**18.** Aşağıdakı cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin.

1) Человеческие руки способны творить чудеса. 2) Человек должен беречь свой труд. 3) Человека уважают за его славный труд. 4) Трудолюбивый человек занимает важное место в обществе. 5) Руками человека можно создать всё хорошее на Земле.

**19.** "Onlar" əvəzliyini ismin uyğun gələn hallarında işlətməklə cümlələri köçürün. Əvəzliklərin suallarını, ismin hansı halında işləndiyini qarşısında yazın.

1) – dostlarını həyətdə gözləyirdilər. 2) Ağac əkməkdə – Kərim baba kömək etdi. 3) – qonaqları bugünkü tamaşadan çox razı qaldılar. 4) Gənc idmançılar – yarış meydançasında gördülər. 5) Biz – çıxanda artıq hava qaralmışdı. 6) Rəfiqəm dedi ki, – zəngin kitabxana var.

**20.** 19-cu çalışmadakı cümlələri rus dilinə tərcümə edin.

**21.** Necə bilirsiniz, mətndə işlənmiş isimlərin sayı çoxdur, yoxsa birlikdə sifət, say və əvəzliklərin? Təxmini hesablama aparın və fikrinizi misallarla əsaslandırın.

## Yadda saxlayın!

| **Belə yazılır:** | **Belə deyilir:** |
|---|---|
| məndən | [mənnən] |
| səndən | [sənnən] |
| ondan | [onnan] |
| onlardan | [onnardan] |
| sizlərdən | [sizdərdən] |
| bizlərdən | [bizdərdən] |

Çap üçün deyil

## § 29. RƏHBƏRİN SEVDİYİ GÜLLƏR

Heydər baba uşaqların görüşünə gəlmişdi. Balacalar onu intizarla gözləyirdilər. Əllərdəki təzə-tər güllər də, sanki bu nurlu insan üçün intizarda idilər.

Budur, Heydər baba otağa daxil oldu. Sanki içəri günəş şüaları səpələndi. Adamların ürəkləri isindi.

Balaca bir qız yanındakına dedi:

– Necə də gözəl insandır. O, mənim babamdır. Amma bu otaq onun üçün ______ . Belə bir insanla görüş gərək çöldə, genişlikdə olaydı.

Sanki Heydər baba qızcığazın söylədiklərini eşitdi.

– Uşaqlar, bu otaq balacadır. Bayırda isə uşaq çoxdur. Gəlin çölə çıxaq, – dedi.

Hamı çölə çıxdı.

Heydər baba bir-bir uşaqları bağrına basdı. Sanki balacaların sinələri isindi.

– Siz Azərbaycanımızın gələcəyisiniz, – dedi Heydər baba.

Uşaqlar əl çaldılar.

Balaca bir qızcığaz qucağındakı gül dəstəsi ilə rəhbərə yaxınlaşdı. Heydər baba balaca qızcığazı bağrına basdı. Sonra qızın qucağındakı tər gülləri alıb qoxuladı:

– Özün də bir çiçək dəstəsisən, – dedi, – bu güllərdə Vətənimizin ətri var. Nə bildin ki, mən bu gülləri sevirəm?!

Uşaqlarla görüşün sonuna kimi o güllər dahi rəhbərin qucağında oldu. Bu qızcığaza elə gəldi ki, güllər də onun kimi sevinirlər ...

**Məmməd Namaz**

**SÖZLÜK**

intizarla – с ожиданием
təzə-tər – совсем свежий
şüa – луч
səpələnmək – рассыпаться
isinmək – согреться
genişlik – простор
qoxulamaq – понюхать

**1.** Mətn üzrə aşağıdakı suallara cavab verməyə çalışın.
1) Uşaqlar kimi gözləyirdilər?
2) Balaca qız nə üçün genişlik arzu edirdi?
3) Dahi rəhbər gülləri qoxulayıb nə dedi?
4) Mətn nəyə görə "Rəhbərin sevdiyi güllər" adlanır?

Çap üçün deyil

**2.** Ümummilli liderimiz haqqında əlavə nə bilirsiniz? Bildiklərinizi yoldaşlarınızla bölüşün.

**3.** Mətndə işlənmiş "qoxuladı" və "kimi" sözlərini aşağıdakılardan hansılarla əvəz etmək olar?

a) iylədi, qədər b) saxladı, üçün c) əzizlədi, görə

**4.** Mətndəki sarı boşluğun yerinə hansı əlamət bildirən sözü yazmaq olar?

a) hündürdür b) balacadır c) genişdir d) darısqaldır

**5.** "Nə bildin ki, mən bu gülləri sevirəm?"-cümləsində nəyə görə "bu" əvəzliyindən sonra vergül qoyulmayıb? Fikrinizi əsaslandırın.

A) Nə? sualına cavab verdiyi üçün.
B) Hansı? sualına cavab verdiyi üçün.
C) Cümlənin ortasında işləndiyi üçün.
D) Bu işarəni qoymaq yaddan çıxıb.

**6.** Aşağıdakı cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin.

1) Он очень любил детей. 2) Такие цветы ему нравились. 3) Когда и где прошла встреча с детьми? 4) До конца встречи эти цветы были у него на руках. 5) Девочке так казалось, что цветы также радуются как она сама.

**7.** Mətndə qırmızı hərflərlə verilmiş sözlər hansı nitq hissəsidir?

a) isim b) sifət c) say d) əvəzlik

**8.** Mətndə qırmızı hərflərlə verilmiş əvəzlikləri öyrəndiyiniz növlər üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın. Növünü təyin edə bilmədiyiniz sözlər oldumu? Necə düşünürsünüz, əvəzliyin başqa növləri də varmı? Əsaslandırın.

## BİRİ GÜNƏŞ, BİRİ HEYDƏR

Şərqdən qoşa doğuldular,
Biri günəş, biri Heydər.
Od-alovdan yoğruldular, (1)
Biri günəş, biri Heydər.

Dünya durduqca təzədir
Hər ikisi möcüzədir.
İki varlıq bizimlədir, (2)
Biri günəş, biri Heydər.

Uğurlu, haqq dönməyəcək,
Zirvəsindən ______ . (3)
Əbədidir, sönməyəcək,
Biri günəş, biri Heydər.

**Uğurlu Xəlilov**



Çap üçün deyil

## SÖZLÜK

şərq – восток
yoğrulmaq – здесь: создать
haqq – право
uğurlu – удачный
varlıq – существо
əbədi – вечный
möcüzə – чудо

## SÖZ EHTİYATI

dünya durduqca – вечно

**9.** Şeirdə qırmızı hərflərlə verilmiş söz hansı mənada işlənib?
A) Cəhətlərdən (стороны горизонта) birinin adıdır.
B) Ölkələrdən birinin adıdır.
C) Respublikamızın ikinci adıdır.

**10.** "Dünya durduqca" ifadəsini şeirdə aşağıdakı variantlardan hansı ilə əvəz etmək daha çox yerinə düşər?
a) əbədi b) hər zaman c) daim d) həmişə

**11.** Şeirdə ümummilli liderimiz nə üçün günəşə bənzədilir? Fikirlərinizi əsaslandırın və bir neçə cümlə ilə dəftərinizə yazın.

**12.** Yazdıqlarınızı yoldaşlarınıza oxuyun. Kimin yazısında əlavə fikirlər varsa, onu dinləyin. Birlikdə fikirlərinizi bölüşün.

**13.** Babamız Heydərin həmişə bizimlə birlikdə olması şeirin hansı misrasında söylənilir? (misralar nömrələnib)
A) 1 B) 2 C) 3

**14.** Aşağıdakı cümlədə nöqtələrin yerinə hansı əvəzliyi yazmaq olar?
Sən ... gec gəldin?
a) harada b) niyə c) həmin ç) nə vaxt

**15.** Verilmiş sözləri aşağıdakı cədvəl üzrə qruplaşdırın.
biri, qoşa, günəş, hamı, od-alov, təzə, dünya, bizim, iki, uğurlu, onlar, haqq, əbədi, ikisi, zirvə, möcüzə, çox, hər şey, xeyli

| İsim | Sifət | Say | Əvəzlik |
|---|---|---|---|
| | | | |

**16.** Şeirdə sarı boşluğun yerinə hansı sözü yazmaq olar?
a) qalxmayacaq b) enməyəcək c) sönməyəcək d) düşməyəcək



Çap üçün deyil

**17.** Şeirdə göy rəngdə verilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olmaz? Fikrinizi əsaslandırın.

a) yaranmaq  b) dünyaya gəlmək
c) anadan olmaq  d) dünyadan köçmək

**18.** Buraxılmış hərfləri artırıb aşağıdakı sözləri köçürün.

Kərpi.., p..ncərə, m..barək, xən..ər, m..haribə, h..yva, st..kan, p..ndir, q..zet, tüfən.., tapan..a, n..bar, sə..sən, g..zəl, sa..sağan, porta..al, düşm..n, sə..ifə, a..tobus, qə..rəman

## § 30. NEFT DAŞLARI

Bir azdan dənizin ortasında buruqlar görünməyə başladı. Yaxınlaşdıqca buruqların yanında dənizin içindən çıxmış qayalıqlar da nəzərə çarpırdı.

Gülər xala uşaqları başa salırdı:

– Bura "Neft daşları" deyirlər. On il bundan qabaq burada gördüyünüz qayalıqlardan başqa, heç bir şey yox idi. Gəmilər bu qayalıqların yanından ehtiyatla keçib gedirdilər. Lakin bizim neft axtaran geoloqlarımız burada, dənizin dibində neft olduğunu kəşf etdilər. O vaxtdan buruqlar salınmağa başlandı. Adamlar dənizin ortasında fırtınalı havalarda heç bir çətinliyə və təhlükəyə baxmayıb neft çıxarırlar.

Kater dənizin içərisi ilə bir neçə kilometr uzanan körpüyə yan alanda Lalə uzaqdan atasını gördü. O, əlini gözlərinin üstünə qoyub katerə baxırdı. Lalə sevinclə çığırdı:

– Atam bizi gözləyir!

Kater körpüyə yan aldı. Lalənin atası gülümsəyərək dedi:

– Bayaqdan sizin yolunuzu gözləyirik. Xoş gəlmisiniz!

Onlar körpüdən dənizə salınmış dəmir pilləkənlə yuxarı qalxdılar.

Lalə körpünün üstü ilə dəmir yolunun salındığını gördükdə təəccüblə atasından soruşdu:

– Ata, körpünün üstündən qatar da keçir?

Atası gülümsəyib dedi:

– Bu, körpü deyil, buna estakada deyilir. Dənizin içərisi ilə uzanan bu yolu görürsənmi? Bu yol bütün buruqları birləşdirir. Onun üstü ilə kiçik vaqonlar gedir. İri yük maşınları avadanlıq daşıyır. "Küçələr" də salınmışdır.

Niyaz təəccüblə soruşdu:

– Burda küçə də var?

Çap üçün deyil

– Bəs necə? Hətta küçələrimizdə ikimərtəbəli evlər də var. Yaxşısı budur ki, gedək, öz gözlərinizlə görün.

Lalənin atası ilə Gülər xala qabağa düşdü. Uşaqlar da onların dalınca estakada ilə getməyə başladılar. Bir az getmişdilər ki, bir-birinin yanında tikilmiş ikimərtəbəli evlər gördülər.

Niyaz dedi:

– Küçə başlandı.

Lalənin atası Niyazın sözünü təsdiq etdi.

– Doğrudur, görürsünüzmü dəniz küçələri nə qəşəngdir! Bu binalarda ümumi yataqxanalar, mağaza, klub və başqa idarələr yerləşir.

Onlar evlərin qabağından keçib yenə düz yola çıxdılar. Bu yolun sağ və sol tərəfində buruqlar salınmışdı. Lalənin atası onları yeni qazılan bir buruğa apardı.

– Bu gün dəniz qazmaçıları bu quyunu təhvil verirlər. Sabahdan neftçıxarma briqadası onu işə salacaq. Dənizdə neft quyusu qazmaq adamlardan qəhrəmanlıq tələb edir...

**Xalidə Hasilova**

## SÖZLÜK

buruq – буровая вышка
fırtına – буря, шторм
təhlükə – опасность
idarə – управление, административное учреждение

## SÖZ EHTİYATI

nəzərə çarpmaq – бросаться в глаза
yan almaq – причалиться
kəşf etmək – изобретать, открыть
işə salmaq – приводить в действие
təhvil vermək-сдавать

**1.** Yəqin ki, uşaqların hara ekskursiyaya getdiklərini bildiniz. Əfsanəvi neft şəhəri haqqında siz nə bilirsiniz? Fikirlərinizi bölüşün.

**2.** Dəftərinizdə Neft daşlarını təsvir edən bir neçə cümlə yazın (mətndən istifadə etməklə).

**3.** Birləşmələri tərcümə edin və cümlələrdə işlədin:

нефтяные скважины, посреди моря, на берегу моря, грузовые автомобили, маленькие вагоны, двухэтажные дома, морские улицы

**4.** Neft daşlarında uşaqları ən çox təəccübləndirən nə idi? Mətnə əsaslanmaqla bu barədə danışın.



Çap üçün deyil

**5.** Aşağıdakı cümlələri hansı ardıcıllıqla düzsəniz, mətn alınar?
1) Lalənin atası dəniz küçələrini təriflədi.
2) Kater dənizin içərisinə uzanan körpüyə yan aldı.
3) Uşaqlar Neft daşlarına ekskursiyaya getdilər.
4) Uşaqlar körpünün üstündə dəmir yolunu görüb sevindilər.
5) Onlar estakadada tikilmiş ikimərtəbəli evləri gördülər.
A) 2, 3, 1, 5, 4 B) 3, 2, 4, 5, 1 C) 3, 4, 5, 1, 2

**6.** Hər iki sütundan istifadə etməklə cümlələr düzəldin və yazın.

| | |
|---|---|
| Gəmi körpüyə | gözləyirdi |
| Yük maşınları avadanlıq | başa salırdı |
| Burada idarələr | mindilər |
| Yataqxanada neftçilər | yerləşir |
| Uşaqlar katerə | daşıyır |
| Gülər xala | yan aldı |
| Lalənin atası | yaşayırlar |

**7.** Mətnin son üç abzasında işlənmiş əvəzlikləri tapıb səsləndirin. Əvəzliklərə suallar verin.

**8.** İsimləri uyğun sifətlərlə birlikdə yazın və birləşmələri rus dilinə tərcümə edin:

| | | | |
|---|---|---|---|
| kitab | geniş | palıd | uca |
| şəkil | qədim | albalı | güllü-çiçəkli |
| bina | maraqlı | park | qırmızı |
| prospekt | möcüzəli | | |

**9.** Mətndə qırmızı və göy hərflərlə verilmiş sözlərin ismin hansı halında işləndiyini söyləyin:

**10.** Mətndə yaşıl hərflərlə verilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olar?
a) toxundu b) yaxınlaşdı c) uzaqlaşdı d) çatdı

## MUZEYLƏR

Bilirsinizmi, muzeylər necə yaranıb? Qədimdə müxtəlif sənədlər, şəhadətnamələr, estetik qiymətə malik əşyalar əsasən saraylarda saxlanırmış. İndiki muzeylərin "əcdad"ları e.ə. XVI Çində yaranmışdır. Qədim Romada isə maddi və mənəvi mədəniyyət abidələri e.ə. III-II əsrlərdə məbədlərdə və bəzi şəxslərin kolleksiyalarında saxlanılırdı. Hazırda müxtəlif ölkələrdə yüzlərlə muzey fəaliyyət göstərir. Məsələn, təkcə qədim memarlıq abidələri ilə məşhur olan Madriddə (İspaniya)

Çap üçün deyil

muzeylərin sayı 100-dən artıqdır. Burada hər dövrü əks etdirən muzeylə rastlaşmaq mümkündür. Qonşu Rusiyada ilk muzey 1719-cu ildə Peterburqda açılmışdır. Rusiyanın dünya şöhrətli muzeylərindən olan Ermitaj 1764-cü ildə, Tretyakov qalereyası isə 1856-cı ildə yaradılmışdır.

Azərbaycanda hazırda onlarla muzey fəaliyyət göstərir. Bunların sırasına istiqlal incəsənət muzeyi, ədəbiyyat muzeyi, tarix muzeyi, musiqi mədəniyyəti muzeyi, Dövlət Bayrağı muzeyi və digərləri daxildir. Hər bir muzey mənsub olduğu ölkənin, xalqın tarixi və mədəniyyəti ilə bağlı dəyərli informasiya daşıyır. Bu səbəbdən də Azərbaycanın keçmişi və inkişaf yolu ilə tanış olmaq istəyirsinizsə, muzeylərə baş çəkin.

**SÖZLÜK**

şəhadətnamə – свидетельство
məbəd – храм
malik – здесь: имеющий
əcdadlar – предки

**SÖZ EHTİYATI**

fəaliyyət göstərmək – действовать
əks etdirmək – изображать
mənsub olmaq – относиться
baş çəkmək – навещать

**11.** Aşağıdakı suallardan hansı mətnə aid deyil?
A) Muzeylərin yaranması haqqında nə bilirsiniz?
B) Əvvəllər nadir əşyalar harada saxlanılırdı?
C) Azərbaycanda ilk muzey hansıdır?

**12.** Bakı şəhərindəki hansı muzeylərdə olmuşsunuz? Ən çox xoşunuza gələn muzey barədə yoldaşlarınıza danışın.

**13.** Bilirsinizmi, "Muzeylər günü" hansı tarixdə keçirilir? Bu gün haqqında məlumatınız varsa, yoldaşlarınızla fikirlərinizi bölüşün.

**14.** Azərbaycanın hər bir bölgəsində "Diyarşünaslıq muzeyləri" var. Bölgələrdə olarkən bu muzeyləri ziyarət etmişsinizmi? Gördüklərinizdən birini dəftərinizdə təsvir edin.

**15.** Mətndə qırmızı hərflərlə verilmiş söz hansı mənada işlənmişdir?
a) закрыто b) связано c) узел

**16.** Mətndəki sarı boşluğun yerində hansı söz yazılmalıdır?
a) illərdə b) dövrdə c) əsrdə d) zamanda

Çap üçün deyil

**17.** Cümlələri oxuyun. Əvəzlikləri əlaqədar olduqları sözlərlə birlikdə seçib yazın və tərcümə edin:

1) Mən muzeyləri ziyarət etməyi sevirəm. 2) Biz şəhərimizdə olan memarlıq abidələrinin hamısını tanımalıyıq. 3) Sən şəhərimizin görməli yerlərini gəzmişsən? 4) Siz öz səhvinizi başa düşdünüzmü? 5) Siz hazırda Azərbaycanda fəaliyyət göstərən muzeylərdən hansında olmuşsunuz?

Nümunə: Mən sevirəm.

**18.** Mətnin birinci cümləsindəki hansı söz əvəzlikdir? Mətndə işlənmiş digər əvəzlikləri də tapa bilərsinizmi? Onları şifahi sadalayın.

**19.** Mətndə işlənmiş sayları seçib sözlə yazın. Onların miqdar və ya sıra bildirdiklərini müəyyən edin.

**20.** Neft daşlarına ekskursiyanın vaxtı barədə elan yaza bilərsinizmi?

**21.** Mətndə bəzi sözlər böyük hərflərlə yazılmışdır. Səbəbini izah edə bilərsinizmi? Bu sözlərin nə bildirdiyini söyləyin.

**22.** Aşağıdakı mətni Azərbaycan dilinə tərcümə edin.

**Волшебные краски**

Добрый мальчик взял кисть и принялся рисовать. Он рисовал весь день и весь вечер. Рисовал и на другой день, и на третий… Рисовал пока не кончились краски. Тогда он попросил новые.

Прошло несколько лет. Мальчик стал настоящим художником. Люди смотрели на его рисунки и говорили: «Какие чудесные краски!» Но краски были самыми обыкновенными.

## § 31. AXMAQ QURBAĞA VƏ ZANBAQ

Bir gölün dayaz yerində gözəl bir Zanbaq bitmişdi. O, hər səhər gün çıxanda əl-üzünü sularda yuyub gözəlləşirdi. Bir Qurbağa Zanbağın qonşuluğunda yaşayırdı. Hər səhər başını sulardan çıxarıb Zanbaqla salamlaşır və onun gözəlliyinə tamaşa edirdi.

Qurbağa göldə istədiyi səmtə üzüb gedirdi. Zanbaq isə öz yerindən tərpənmirdi. Bir gün Qurbağa Zanbağa dedi:

– Qonşu, bu nədir, bir yerdən tutub durmusan. Heç bilirsən, bu göl nə genişdi? Bax orada sular burdan istidir. Gəl ora üzək gedək. Zanbaq gülüb

Çap üçün deyil

dedi: – Axı mən üzmək bilmirəm. Mən dənizə gedirəm.

– Eh, üzmək çox asandır. Əvvəllər mən də üzmək bilmirdim, öyrəndim. İstəyirsən, gəl sənə üzmək öyrədim.



Zanbaq başını yırğalayıb dedi:

– Yox, mən heç vaxt üzə bilmərəm.

Qurbağa üzüb lap yaxına gəldi:

– Eh, elə bilirsən üzmək çətindir? Bax beləcə qollarını, ayaqlarını aç, o saat üzəcəksən. Bir əlini mənə ver.

Zanbaq dedi:

– Nahaq yerə özünü yorma. Biz, Zanbaqlar dünyasında üzə bilmərik.

Qurbağa isə inadından dönmürdü:

– Bilmirəm, sən üzməyin nəyindən qorxursan?

– Qorxmuram. Ancaq biz, Zanbaqlara üzmək yaramaz.

Qurbağa məyus olub bir qədər susdu. Sonra suya baş vurub Zanbağın başına dolandı. Ancaq bir şeyi anlaya bilmədi ki, Zanbaq niyə üzə bilməsin. Qurbağa gözlərini döydü, döydü, axırda soruşdu:

– Sən məni başa sal görüm, Zanbaqlar niyə üzmək istəmir?

Zanbaq dedi:

– Biz, zanbaqlar kökümüzlə torpağa* bağlıyıq. Torpaqdan* ayrılsaq, məhv olarıq.

Qurbağa yenidən suya baş vurub Zanbağın ətrafında bir neçə dəfə dövrə vurdu.

– Hə, mən indi hər şeyi başa düşdüm, – dedi. – Yaxşı, onda sabah gələrəm, əl-ələ verib çoxluca üzərik. Sonra da sulara baş vurub gözdən itdi.

Zanbaq isə Qurbağanın axmaqlığına gülərək:

– Yaman da hər şeyi başa düşmüsən, – dedi.

**Əli Səmədli**

## SÖZLÜK

dayaz – мелководье, не глубокий
səmt – направление
yırğalamaq – качать, трясти
başına dolanmaq – кружиться во круг головы
yormaq – утомлять

Çap üçün deyil

## SÖZ EHTİYATI

inadından dönməmək – не отступать
məyus olmaq – огорчиться
gözlərini döymək – хлопать глазами

**1.** Aşağıdakı suallardan hansına mətndə cavab yoxdur?
A) Qurbağa Zanbağa nəyi təklif etdi?
B) Qurbağa nəyi anlaya bilmədi?
C) Zanbaq nə üçün qurbağadan sabah gəlməsini xahiş etdi?
D) Qurbağa Zanbağı harada görmüşdü?

**2.** "Biz kökümüzlə torpağa bağlıyıq. Torpaqdan ayrılsaq, məhv olarıq" cümlələrinin mənasını necə başa düşürsünüz? Müəllif bu sözlərlə nə demək istəmişdir? Müzakirəyə qoşulun.

**3.** Mətnə hansı atalar sözü uyğundur?
A) Böyük danışanı kiçik götürər.
B) Ağıllıya bir işarə kifayətdir.
C) Doğma yurd şirin olar.
D) Əldən qalan əlli il qalar.

**4.** Mətndə qırmızı hərflərlə verilmiş sözləri hansı sözlərlə əvəz etmək olar?
**KÖMƏKÇİ:** qəmgin, baxmaq, geri çəkilmək, fırlanmaq, başa düşmək

**5.** Mətndə hansı cümlə yerində işlənməmişdir? Cümləni tapıb oxuyun.

**6.** Aşağıdakı cümlələri tərcümə edin və dəftərinizə yazın.
1) Лягушка огорчилась и утихла. 2) Мы своими корнями привязаны к земле. 3) Тюльпаны никогда не смогут плавать. 4) Если отделимся от земли, то пропадем.

**7.** Yaşıl hərflərlə verilmiş sözün tərcüməsini göstərin.
a) потерялся b) пропал из виду c) потерял зрение

**8.** Mətndəki "başına dolanmaq" ifadəsinin əvəzinə aşağıdakı variantlardan hansını işlətmək olar?
a) dönmək b) fırlanmaq c) hoppanmaq ç) yanaşmaq

**9.** Mətndə "zanbaq" sözünün altından xətt çəkilmiş formalarının ismin hansı halında olduğunu müəyyənləşdirin. Bu sözü ismin qalan hallarında da işlədin:

**10.** Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlər üzərində müşahidə aparın. Sonu "q" ilə yazılan sözlərdə "q"-nin "ğ"-ya keçməsinə aid mətndən misallar seçib göstərin və bunun səbəbini izah etməyə çalışın.

Çap üçün deyil

## TAP GÖRƏK

**11.** Tapmacanı cavablandırın. Cavabın mətnlə hər hansı bir əlaqəsi varmı? Fikrinizi açıqlayın.

Bağda sürünər gəzər,
Az-az görünər gəzər.

Oxşayar bir yumağa,
Qorxuram əl vurmağa.

# İKİ KİTAB



Məktəb kitabxanasında çoxlu kitablar var idi. Bunların ancaq birindən sizə söz açacağam. Bu, "Azərbaycan nağılları" kitabı idi. Bu kitabdan iki dənə idi. Eyni ildə buraxılmasına baxmayaraq, biri təptəzə qalmışdı. O birinin isə əzilib sökülmüş vərəqləri cildin arasında zorla dayanırdı. Bu kitab təzə kitabın yanında dayanmağa belə utanırdı. Heç bunu təzə kitab da istəmirdi. Ona rişxəndlə baxıb tez-tez deyirdi:

– Bir bunun qopub tökülmüş, cırılmış vərəqlərinə bax. Elə bil yüz ilin kitabıdır. Heç yüz ilin kitabı da belə cındır olmur, əl-əl gəzir. Kim səni bu günə salıb?

Əzik kitab inildəyə-inildəyə cavab verdi:

– Məni on iki uşaq aparıb oxuyub, on iki.

Təzə kitab:

– Eh, çox da lovğalanma, – dedi. Məni otuz beş şagird aparıb oxuyub.

Əzik kitab yenə yazıq-yazıq dedi:

Çap üçün deyil

– Eh, görünür, sən beşincilərin əlinə düşməmisən. Həmin sinifdə Kamillə Samirin əlinə düşsəydin, məndən də pis günə qalardın. Onların hərəsinin evində mən bir ay qalmışam. Məni hey ordan bura atırdılar, burdan da ora. Ona görə bu günə qalmışam.

Təzə kitab:

– Görünür, beşincilərin kitabsevərlər dərnəyi yoxdur. Əgər olsaydı, onlar bilərdilər ki, biz kitablar dünyanın ən böyük sərvətiyik. Eyib etməz. Bax sən keç lap birinci cərgədə dur. Uşaqlar bu gün gəlib kitabxanadakı cırılmış kitabları təmir edəcəklər. Qoy səni də görüb, götürsünlər.

Doğrudan da, səhəri gün məktəbin kitabsevərləri kitabxananın cırılmış kitablarını təmir etməyə başladılar. Əzilib vərəqləri tökülmüş “Azərbaycan nağılları” kitabı da onların arasındaydı. Qızlardan biri onu əlinə götürən kimi dedi:

– Bu ki keçən il buraxılan kitabdır. Bunu bu vəziyyətə, görəsən, kim salıb?

Söhbətə kitabxanaçı Solmaz müəllimə gəlib çıxdı. Kitaba baxan kimi dedi:

– Bu ancaq beşincilərin işidir. Onlardan bir nəfər də kitabsevərlər dərnəyinin üzvü deyildir.

Bir həftədən sonra kitab təmir edənlər arasında beşincilər də vardı.

**Əli Səmədli**

**SÖZLÜK**

cild – здесь: обложка
rişxəndlə – с иронией
üzv – член
lovğalanmaq – хвалиться, хвастаться

**SÖZ EHTİYATI**

inildəyə-inildəyə – стоная, ноя
kitabsevərlər dərnəyi – кружок книголюбов
eyib etməz – пусть будет так, ладно

**12.** Müəllif mətni başqa cür necə adlandıra bilərdi? Mətni diqqətlə oxuyun, uyğun gələn adlardan birini seçin.

a) kitabxanaçının səhvi
b) kitabların söhbəti
c) təzə kitabın məsləhəti
d) əzik kitabın şikayəti

Çap üçün deyil

**_NİZAMİNİN HİKMƏT XƏZİNƏSİNDƏN_**

***Vaxtı boş keçirmə, qələm al ələ,***
***Zəhmət çək, dünyada bilik kəsb elə.***

**13.** Aşağıdakı suallardan hansına mətndə cavab tapa bildiniz?
A) Təzə kitabı uşaqlar niyə az oxuyurdular?
B) Vərəqləri tökülmüş kitabı təmir etməyə kim gəlmişdi?
C) Dərnəyin üzvləri kitabı təmir etmək üçün haraya apardılar?
D) Kamillə Samir hansı kitabları təmir etdilər?

**14.** Sizcə, kitablarla necə davranmaq lazımdır? Siz öz kitablarınızı necə saxlayırsınız? Onların yaxşı vəziyyətdə qalması üçün nə edirsiniz? Fikirləriniz əsasında kiçik bir mətn tərtib edin.

**15.** 13-cü çalışmadakı sual cümlələrində işlənmiş sual bildirən sözləri seçib göstərin. Bu sözlər əvəzliyin hansı növünə aiddir? Misalların sayını artırın.

**16.** Hər biriniz öz Azərbaycan dili dərsliyinizi parta yoldaşınızın dərsliyi ilə müqayisə edin. Hansı daha səliqəlidir? Səbəbini izah edin (müəlliminiz sizi dinləyəcək və məsləhətlər verəcəkdir).

**17.** Mətnin məzmununa uyğun olaraq verilənlərə əksmənalı sözlər tapın.
təptəzə, pis, təmir etmək, böyük, atmaq, rişxəndlə, qopmuş, əzik

**18.** Mətnin məzmunu əsasında cümlələri tamamlayıb köçürün.
1) Bu kitab təzə kitabın yanında ... 2) Həmin sinifdə Kamillə Samirin əlinə düşsəydin, ... 3) Uşaqlar bu gün gəlib kitabxanadakı ... 4) Doğrudan da, səhəri gün məktəbin kitabsevərləri ... 5) Biz bir həftədən sonra ...

**19.** Son vaxtlar kitabxanadan hansı kitabları götürmüşsünüz? Onları vaxtında qaytarıbsınızmı? Kitabxananın şərtlərinə əməl edibsinizmi? Suallar ətrafında danışın.

***Yadda saxlayın!***

- **Kitabxanadan götürdüyünüz kitablarla səliqəli davranın.**
- **Kitabları vaxtında qaytarın.**
- **Kitabların səhifələrini yazmayın və səhifələri qatlamayın.**

Çap üçün deyil

**• Əgər kitabların saxlanma vəziyyəti pisdirsə, onları təmir etməyə çalışın.**
**• Kitabxanadan götürdüyünüz kitabları başqalarına bağışlamayın.**

## TAP GÖRƏK

**20.** Hazırcavablığınızı göstərin və tapmacanın cavabını tapın.
Dili var, insan deyil,
Tikişi var, şal deyil,
Yarpağı var, gül deyil.

**21.** Aşağıdakı cümlələri Azərbaycan dilinə tərcümə edin.

1) Библиотечные книги надо возвращать в определенный срок. 2) На страницах книг писать запрещается. 3) Помятые книги самим можно починить. 4) Книги, взятые из библиотеки, нельзя дарить другому. 5) Надо часто ходить в библиотеку.

**22.** Mətndə qırmızı hərflərlə verilmiş sözlər hansı nitq hissəsinə aiddir?
a) isim b) say c) əvəzlik d) sifət

**23.** Mətndən isim, sifət, say və əvəzliklərə aid misallar seçib ayrı-ayrı sütunlarda yazın, suallarını qarşısında qeyd edin.

## ÖZÜNÜZÜ YOXLAYIN

**1.** "Aprelin biri gələndə" mətninin məzmununa dair düzgün cavabı tapın:
A) Sinifdəki uşaqlar müəllimi aldatmışdılar.
B) Onu aldatdığı üçün müəllim şagirdi çox danladı.
C) Müəllimini aldatdığı üçün şagirdi indi də o günlərin xəcalətini çəkir.

**2.** Əlamətdar günlərin tarixlərini tərcümə edib sözlə yazın:
1) 8 Марта – Международный женский день.
2) 21 Февраля – Международный день родного языка.
3) 31 Декабря – День солидарности азербайджанцев всего мира.
4) 20 Марта – Праздник Новруза.
5) 28 Мая – День Республики.

**3.** Kənddə calaq işinə baxan balaca oğlanla hansı mətndə tanış oldunuz? Həmin mətndə hansı işlər şərəfli hesab edilir?
a) ağac əkmək, calaq etmək, yaşıllığı qorumaq
b) dərslərə hazır gəlmək, çoxlu kitab oxumaq
c) parça biçmək, paltar tikmək, modellər hazırlamaq

Çap üçün deyil

**4.** Cümlələri tərcümə edin. Əvəzliklərin altından xətt çəkin.

1) Он рисовал с утра до ночи. 2) Я беседовала с ними в коридоре школы. 3) Ты тоже приходи к нам в гости. 4) В этом лесу много ароматных цветов. 5) У нас в доме поселились новые жильцы.

**5.** Təbiəti qorumaq üçün nə etmək lazımdır? Təbiətin qoynunda dincələrkən insanlar nəyə riayət etməlidirlər? Meşədə ocaq qalamaq olarmı? Hansı şeirdə bircə kibrit çöpünün təhlükəli ola biləcəyindən danışılır?

**6.** Sual əvəzliklərindən istifadə edərək parta yoldaşınızla "Şəhərimizdəki muzeylər" mövzusunda dialoq qurun.

**7.** "Azərbaycanın Qırmızı kitabı" mətnindəki sayları aid olduqları sözlərlə birlikdə seçib yazın.

**8.** Aşağıdakı cümlələrdən "q-ğ", "k-y" əvəzlənməsi baş vermiş sözləri seçib göstərin və səbəbini izah edin:

1) Bir azdan **dənizin** ortasında buruqlar görünməyə başladı. 2) **Buruqların** yanında dənizin içindən çıxmış qayalıqlar da nəzərə çarpırdı. 3) Uşağın biri **qayalığa** tərəf döndü. 4) Adamlar dənizin ortasında fırtınalı **havalarda** heç bir **çətinliyə** və **təhlükəyə** baxmayıb neft çıxarırlar. 5) Onlar **evlərin** qabağından keçib yenə düz yola çıxdılar.

**9.** 8-ci çalışmanın mətnində qara hərflərlə verilmiş isimlərin hansı halda işləndiyini qeyd edin, fikrinizi əsaslandırın.

**10.** "Muzeylər" mətnindən düzəltmə sifətləri seçib müxtəlif cümlələrdə işlədin.

**11.** Aşağıdakı cərgələrdən hər birindəki bir söz digərlərindən fərqlənir. Səbəbini izah edə bilərsinizmi?

a) buruq, estakada, Neft daşları, bostan
b) paroxod, gəmi, kater, ələk
c) qazmaçı, toxucu, usta, neftçıxarma
d) fırtına, dalğa, düzənlik, dəniz

**12.** Buraxılmış hərfləri yerinə qoymaqla sözləri köçürün.

g..nəş, k..rpü, s..nməz, d..niz, təhl..kə, üst..nə, s..vinclə, tə..ccüblə, g..zlər, tik..lmiş, k..çə, t..rəfində, qəhr..manlıq

**13.** Azərbaycandakı hansı əfsanəvi şəhər haqqında mətn oxudunuz? Bu şəhəri görən uşaqlar niyə təəccüblənmişdilər?

Çap üçün deyil

**14.** Dərslikləri korlayan şagirdlərə münasibətiniz necədir? Bu mövzuda debat təşkil edin.

**15.** Respublikamız bütün şagirdləri dərsliklərlə təmin edir. Siz dərs ilinin sonunda kitablarınızın vəziyyəti ilə maraqlanırsınızmı? Əgər kitablar yararsız hala düşübsə, onları təmir edirsinizmi? Bu barədə hansı mətndə danışılır? Hansı qaydaları yadda saxlasanız, faydalı olar?

**16.** Bayatıda altından xətt çəkilmiş sözlər hansı mənalarda işlənib? Onlar daha hansı mənalarda işlənə bilər? Nümunələrlə izah edin.

Əzizinəm, dilən gəz
<u>Bağda</u> <u>gülü</u> dilən gəz.
Qürbətdə xan olunca
Vətənində dilən gəz.

**17.** Necə düşünürsünüz, "Yazın hədiyyəsi" mətnində "gözəlləşmək" istəməyən böcəyin arzusu nə idi?

A) Yaşadığı torpağın həmişə gözəl və abad olması.
B) Gözəlləşməyin onun üçün əhəmiyyətsiz olması.
C) Yaz fəslinin ona çoxlu hədiyyə gətirməsi.

**18.** Aşağıdakı cümlələrdən hansında "o, bu" əvəzliklərindən sonra vergül qoyulmalıdır?

1) O Bakı şəhərində yaşayır.
2) Sən bu oğlanı tanıyırsan?
3) O sərhəd kəndində anadan olmuşdu.
4) Bu tapmacanın cavabını hamı bilirdi.

**19.** Hansı cümlələrin tərcüməsi dəqiq deyil? Cümlələrin tərcüməsində yol verilmiş səhvləri düzəldib köçürün.

1) В школьной библиотеке много книг. – Məktəbdə çoxlu kitablar var. 2) Эта книга издана в прошлом году. – Bu kitab yenicə nəşr edilib. 3) Через неделю ученики пятых классов пришли на помощь библиотекарю. – Bir həftədən sonra beşinci sinif uşaqları kitabxanaya gəldilər. 4) Ребята клеили оторванные страницы книг. – Uşaqlar cırılmış kitabları yapışdırdılar.

**20.** Hər cərgədə dördündən biri fərqlidir. Səbəbini izah etməyə çalışın.

a) çalışqan – tənbəl, əvvəl – sonra, yuyunmaq – çimmək, dərə – təpə
b) səmimi – mehriban, bacarıqlı – qabiliyyətli, yer – göy, iri – yekə
c) dərin – dayaz, enli – geniş, işıq – qaranlıq, sevinc – kədər
d) qısa – gödək, al-ver, ümumi – xüsusi, asan – çətin

Çap üçün deyil

**21.** "İki kitab" və "Muzeylər" mətnlərində əvəzliklərin işlənməsi üzərində müşahidə aparın. Hansı mətndə əvəzliklər daha çox işlənmişdir? Fikirlərinizi misallarla əsaslandırın və yazılı təqdimat hazırlayın. Tədqiqatınızda əvəzlikləri növlər üzrə qruplaşdırsanız, təqdimatınız daha dolğun olar.

## İL ƏRZİNDƏ ÖYRƏNDİKLƏRİNİZ ...

### ÖZÜNÜZÜ YOXLAYIN

**1.** Əgər bütün sözləri qruplaşdırmağı sizə tapşırsaydılar, hansı xüsusiyyətlərinə görə onları bir neçə yerə bölərdiniz? "Köməkçi"də verilmiş sözlərin içərisindən lazım olanları seçib, fikirlərinizi əsaslandırın.

**KÖMƏKÇİ:** əlamət bildirmək, əşyanın adını bildirmək, hərəkət bildirmək , şəkilçi qəbul edib dəyişmək, düzgün tələffüz edilmək, say bildirmək, cümlədə işlədilmək, quruluşca sadə, düzəltmə və mürəkkəb olmaq, köməkçi vasitə kimi istifadə edilmək, yazılışında səhv etməmək, bəzi sözlərin yerində işlənib onları əvəz etmək

**2.** "Səməd balacaboy, qarabuğdayı oğlandır. Onun qara saçları, işıqlı qara gözləri var," – cümlələrindəki əlamət bildirən sözləri seçin, quruluşca növünü təyin edin.

**3.** "Ucalt, sevimli məktəb
Bir pillə də bizi sən," – misraları hansı şeirdəndir? Şerin və onun müəllifinin adını deyə bilərsinizmi? Bu misralarda ifadə olunan fikir barədə nə deyə bilərsiniz?  Müzakirə edin:

**4.** Dərslikdəki hansı mətndə iki görkəmli şairin adı çəkilir və onların dost olduğunu başa düşmək olur? Həmin şairlər haqqında bildiklərinizi yadınıza salın və danışın.

**5.** "Bəzənib başdan-başa şəhərləri, kəndləri
... görmək istəyən Azərbaycana gəlsin" misralarında nöqtələrin yerinə hansı söz yazılmalıdır?

a) adət  b) cənnət  c) sərvət  d) millət

**6.** Hansı birləşmələrdəki ikinci tərəflərə "-lar, -lər" şəkilçisini artırmaq olmaz? Fikrinizi əsaslandırın.

1) üç dost..  2) ağıllı şagird..  3) müxtəlif xalq..
4) hündür ev..  5) 4-5 kitab..  6) şəhərdəki əhali..

A) 1, 5, 6  B) 2, 3, 4  C) 2, 5, 6  D) 4, 5, 6

Çap üçün deyil

**7.** "Paytaxtını da Şamaxıdan "Küləklər diyarı" adlandırılan Badi-Kubəyə köçürmüşdü" cümləsində altından xətt çəkilmiş sözün tərcüməsi hansıdır?

a) переписал b) списал c) переселил d) перенес

**8.** Aşağıdakı cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin.

1) Было очень странно. 2) Вроде бы часы при нас работали, но когда мы возвращались в комнату они уже стояли. 3) Через несколько дней ворона улетела из своего гнезда.

**9.** Payız fəslindəki rəngləri sadalaya bilərsinizmi? Rəng bildirən sözlər hansı nitq hissəsinə aid edilir? Aşağıdakı hansı söz rəng adı bildirmir?

a) zoğalı b) gömgöy c) armudu d) yaşılımtıl

**10.** Hansı cümlələrin tərcüməsi səhvdir? Fikrinizi əsaslandırın.

1. Gündüzgil hər il yayda bağa köçürlər. – Каждое лето семья Гюндуз переезжает на дачу. 2) O, səs eşidib ayaq saxladı. – Услышав звуки, у него задрожали ноги. 3. Kamil oğlanı tanımadı. – Кямиль узнал мальчика. 4. İcazəsiz ağaca çıxıb budaqları sındırmaq, bəlkə onun xoşuna gəlir. – Взобраться на дерево без разрешения, может быть ему не нравится.

**11.** "Baba otağı", "Arılıqda" mətnləri hansı hekayədəndir? Bu hekayənin qəhrəmanları kimlərdir? Bu hekayə əsasında çəkilmiş bədii filmə baxmışsınızmı? Hər iki mətnin məzmunu əsasında deyə bilərsinizmi, qızların dostluq etmələrinə kim və niyə mane olurdu?

**12.** Müsbət keyfiyyət bildirən sözləri sağ sütunda, mənfi əməllər bildirən sözləri isə sol sütunda yazın:

kömək etmək, laqeyd olmaq, yardım etmək, paxıllıq etmək, səliqəyə salmaq, qışqırmaq, seyr etmək, vecinə almamaq, yalan danışmaq, mehribanlıq etmək, səbirli olmaq, xəbərçilik etmək

**13.** Mötərizə içərisində verilmiş sözlərdən uyğun gələnini yerinə qoyub cümlələri köçürün:

1) Bir zamanlar – çox ağıllı padşahı var imiş (kəndin, ölkənin). 2) Bu padşahın gözünün ağı-qarası tək bir – var imiş (qızı, oğlu). 3) Padşah inanıbmış ki, oğlu balaca – çox ağıllıdır (kəndli balası, şahzadə). 4) Baxır ki, balaca çoban – çalır (tütək, nağara). 5) Balaca çoban – şahzadəyə tütək çalmağı öyrədir (istəmədən, həvəslə).

Çap üçün deyil

**14.** 13-cü tapşırıqda yazdığınız cümlələrin hansı mətndən olduğunu deyə bilərsinizmi? Həmin mətnin məzmununa uyğun gələn fikir hansıdır?

A) Əsl pislik eləyənlər yalan söyləyənlərdir.
B) Balaca çoban şahzadəyə paxıllıq edənlərdən idi.
C) Şahzadəni incitdiyi üçün balaca çoban başqa ölkəyə getməli idi.
D) Şahzadə öz üzərində çalışan, tərifi sevməyən bir oğlan idi.

**15.** Aşağıdakı cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin:

1) Руками человека можно творить чудеса. 2) Человек должен беречь свою Родину. 3) Людей уважают за их честный труд. 4) Трудолюбивый человек занимает важное место в обществе.

**16.** Aşağıdakı cümlələrdə nöqtələrin yerinə “onlar” əvəzliyini ismin uyğun hallarında işlədərək yazın.

1) ... qayıdanda artıq hava qaralmışdı.
2) Musiqi səsi ... həyətindən eşidilirdi.
3) Məsələni düzgün həll etməyi ... müəllim öyrətmişdi.
4) Yarış iştirakçıları ... görüb həvəsləndilər.
5) Çantamın ... qaldığını indi xatırlayıram.

**17.** “Xoşbəxtlik barəsində” mətnini yadınıza salın. Necə düşünürsünüz, bəs sizin yaşınızda olan uşaqlar xoşbəxtliyi daha çox nədə görürlər? “Köməkçi”də sadalanan sözlərdən nitqinizdə istifadə edərək bu mövzuda debat təşkil edin.

**KÖMƏKÇİ:** hörmət, çoxlu pul, sağlamlıq, yaxşı ev, bahalı maşın, şirin yuxu, yüksək təhsil

**18.** Oxuduğunuz mətndə həqiqi xoşbəxtliyi nədə görmək tövsiyə olunur?

A) Hər gün təzə paltar geyinmək.
B) Hər zaman ürəyin istədiyini yeyə bilmək.
C) Ürəyindəkini hər zaman deyə bilmək.
D) Var-dövlət içərisində yaşamaq.

**19.** Sağ və sol sütundakı sözləri düzgün birləşdirsəniz, yeni sözlər alınacaq. Sözləri cümlələrdə işlədin:

| | | | |
|---|---|---|---|
| Kor | kənd | hazır | göz |
| İçəri | oğlu | üç | cavab |
| Göy | şəhər | qara | gül |
| Qonaq | göl | qızıl | bucaq |

Çap üçün deyil

**20.** Hər bir cərgədə dördündən biri fərqlidir: Fərqli olanı səsləndirin.
a) saqqız, doqquz, tonqal, ağsaqqal
b) tərbiyə, təyyarə, hədiyyə, ədəbiyyat
c) səkkiz, məktub, mürəkkəb, mütəkkə
d) əlbəttə, taxta, hətta, müttəfiq

**21.** Hansı xalq qəhrəmanlarını tanıyırsınız? Onlardan biri haqqında bu il yeni məlumat almışsınız. Həmin qəhrəmanı xalq necə adlandırırdı? İnsanlar onu hansı cəhətlərinə görə sevir və qoruyurdular? Bu barədə yoldaşlarınızla fikir mübadiləsi aparın.

**22.** Əziz uşaqlar, daha bir tədris ilini başa vurdunuz. Qarşıda sizi yay tətili gözləyir. Tətilə getməzdən əvvəl dərsliklərinizi məktəb kitabxanasına təhvil vermək üçün səliqəyə salıbsınızmı? Dərsliklərlə davranmaq qaydalarını xatırlayırsınızmı? Bu mövzuda öz parta yoldaşınızla ətraflı bir dialoq qurun.

Əziz uşaqlar! Beşinci sinfi bitirdiniz. Bu sinifdə Azərbaycan dilindən kiminin uğuru çox, kimininki isə nisbətən az oldu. Uğurlarınızın və uğursuzluqlarınızın səbəbləri üzərində düşünün. Tətil günlərində Azərbaycan dilindən ünsiyyət zamanı qarşılaşdığınız çətinlikləri qeydə alın və yadda saxlayın. Bu, bilmədiklərinizi 6-cı sinifdə aradan qaldırmaqda sizə kömək edəcək.

Necə düşünürsünüz, istirahət üçün Azərbaycanın bölgələrinə getsəniz, Azərbaycan dilində sərbəst ünsiyyət qura biləcəksinizmi?

Yay tətilində Azərbaycan dilindən bilik və bacarıqlarınızı təkmilləşdirmək üzərində düşünürsünüzmü? Tətil günlərində "Azərbaycan nağılları", "Azərbaycan uşaq ədəbiyyatı antologiyası", "Azərbaycan uşaq ensiklopediyası" kimi kitablardan maraqlı məlumatlar, nağıl, hekayə və şeirlər oxumanız tövsiyə olunur. Belə olduqda öyrəndikləriniz möhkəmlənər, bildikləriniz isə yaddan çıxmaz.

Yaxşıca istirahət edin, ancaq unutmayın ki, doğma məktəb sizin yolunuzu gözləyir. Yay tətili başa çatacaq və bir daha deyəcəksiniz:

**Ana məktəb, indi də**
**Gəlirik, aç qoynunu.**
**Bağrına bas yenə sən**
**Öz qızını, oğlunu!**

Çap üçün deyil

# SÖZLÜK

## A

ağu – яд, отрава
aldanmaq – обмануться
altun – золото
analıq – мачеха
arx – канава, арык
arxa – здесь: опора
ayaq üstə – стоя
aydın danışıq – ясная речь
ayə – цитата из Корана

## B

badamvari – миндальной формы
baş-başa – рядом
başmaq – башмачок
bayaq – недавно
beçə – молодой пчелиный рой
belləmək – копать
bəhər – плод
bəxtiyar – счастливый
bəla – беда, горе
bəyənmək – одобрять
biçənək – луг, сенокос
biçmək – косить
bilək – запястье
bilərzik – браслет
binə – жилище
birbaş – прямо
boğulmaq – тонуть
bol məhsul – изобильный урожай
bombalamaq – бомбить
böcək – жук
bölüşmək – делиться
buruq – буровая вышка
büzmək – сморщить

## C

cahan – мир
calatdırmaq – прививать
cavabdeh – ответственный
caynaq – коготь
cəbhə – фронт
cənnət kimi – как рай
cərimə – штраф
cəzalandırmaq – наказать
cild – обложка
cismən – телесно, физически

## Ç

çapalamaq – метаться
çağlamaq – бурлить
çeşmə – родник
çeynəmək – жевать, грызть
çənə – челюсть
çətir – зонтик
çıraq – лампа
çıraqban etmək – ярко освещать
çiskin – туманно-дождливая погода

## D

dağ – здесь: душевная боль, рана
daxma – изба
danlamaq – порицать
dartışdırmaq – дергать
dayaz – мелководье, не глубокий
deyinmək – ворчать
dəcəl – шалун, озорник
dəhliz – коридор
dəhşətlə – с ужасом
dənlənmək – искать корм
dərd – горе
dərya – океан, море
dəstələmək – собрать в букет



Çap üçün deyil

dəyirman – мельница
dırmaşmaq – лазить
didmək – раздирать
dirçəlmək – оживать, ожить
diri – живой
diləmək – желать
dimdik – клюв
dinmək – заговорить
dinməzcə – тихонько
dirsək – локоть
dişi – самка
doymaq – наесться
dönmək – здесь: возвращаться
döşündə – на груди
duyulmaq – ощущаться
düzlər – равнины

**E**

ehtiramla – с уважением
elçi – здесь: посланник, пророк
ertəsi gün – следующий день
etiraz – возражение

**Ə**

əcdadlar – предки
əbədi – вечно, вечный
ədəbsizlik – невежество
ədalətli – справедливый
əkin sahəsi – посевной участок
əmin-amanlıq – благополучие
əmmamə – тюрбан, чалма (головной убор духовных лиц)
əsli – здесь: настоящий, подлинный
ətcəbala – птенец
əyan – дворянин
əyilmək – нагнуться
əzgil –мушмула

**F**

fərəhlə – с радостью
fərəhli – радостный
fərqlənmək – отличаться
fırtına – буря, шторм,
firavan – счастливый
firon – фараон
fürsət – подходящий момент

**G**

gen – просторный
genişlik – простор
gerçək – действительность, правда
gəliş – приход
gəzişmək – прогуливаться
gileylənmək – жаловаться
gödək – короткий
gözəlləşdirmək – приукрашивать
güdmək – следить
gülərüzlü – приветливый
güləşmək – бороться
gül-çiçək yağışı – цветочный дождь
günah – вина
güney – солнечная сторона

**H**

hafizə – память
haqq – право
həcc – паломничество, хадж
həbsxana – темница, тюрьма
həsrətlə – с ожиданием
həyəcanla – взволнованно

**X**

xal – пятно (пятнистый)
xaincəsinə – предательски
xəcalət – стыд, позор

Çap üçün deyil

xışıldadıqca – шурша
xırda – мелкий
xorramaq – отвернуться, пренебрегать
xoşsifət – с приятным лицом, миловидный

### İ

icazəsiz – без разрешения
idarə – управление, административное учреждение
inci – жемчужина
intizarla – с ожиданием
isinmək – согреться
işıldaquş – светлячок
itələmək – толкнуть
iz – след
izləmək – следить

### K

kədər – печаль
kəklik – куропатка
kəndir – веревка
kibrit çöpü – спичка
kölə – раб
könüllü – добровольно
könül – душа
kötük – бревно
kövrəlmək – расчувствоваться
kranın çalovu – ковш крана
küskün – обиженный

### Q

qabiliyyətli – способный
qaçaq – беглец
qadağan – запрещение, запрет
qadağandır – запрещено
qala – крепость
qaradamı – снеговик
qarma-qarışıq – здесь: запутанно
qaşqabaqlı – угрюмый
qazımaq – здесь: почистить
qazma – землянка
qeyrətli – мужественный
qəfil – внезапно
qərar – решение
qəlb – душа
qərar – решение
qərinə – период в 33 года
qıdıqlamaq – щекотать
qığıldaşmaq – издавать звуки
qırğı, ley – ястреб
qısqanmaq – ревновать
qıvrılan – скручивающийся
quşların qənimi – враг птиц
qonur – бурый
qorumaq – беречь
qoruyucu – защитник
qoşmaq – здесь: соединить
qoxulamaq – понюхать
qoyun – здесь: объятия
qönçə – бутон
qudurğan – обнаглевший
qulluqçular – служащие
qunduz – бобр
quş damı – птичник
quşbaz – любитель птиц
qüdrət – могущество
qürur hissi ilə – с гордостью
qüssəli – грустный

### L

laçın – сокол
leylək – аист
lətafət – нежность
lovğalanmaq – хвалиться, хвастаться



Çap üçün deyil

**M**

malik – здесь: имеющий
mane olmaq – мешать
memar – зодчий
meşə sakinləri – лесные жители
məbəd – храм
məbləğ – сумма
məqsəd – цель
məlhəm – густая смесь приготовленная из лекарств
mənzərəli – видный
mərcan – коралл
məskunlaşmaq – поселиться
məsum – невинный
məşəl – факел
milad – рождество
mişar – пила
miz – стол
möcüzə – чудо
möhtəşəm – величественный
mövcud – существующий

**N**

nadir – редкий
naxış – узор
nemət – здесь: богатство, благо
nəmli – влажный
nəticə – результат
niyyət – намерение
nur – свет

**O**

oba – поселение, небольшое село
odunçu – дровосек
ortaboylu – среднего роста
ortancıl – средний по возрасту
ovuc – ладонь

**Ö**

ötürmək – провожать

**P**

pensiyaçı – пенсионер
pəki – хорошо

**R**

rəftar – обращение, поведение
rişxəndlə – с иронией
ruzi – хлеб насущный, пропитание

**S**

saatsaz – часовщик
saçaq – бахрома
saflıq – чистота, прозрачность
savaş – война
sel – сель, поток
sədaqət – верность
səhhət – здоровье
səliqəsiz – неопрятный, неаккуратный
səmt – направление
səpələnmək – рассыпаться
səpildikcə – рассыпаясь
solmaq – вянуть, увядать
sovurmaq – веять
sınaq – испытание
sındırmaq – сломать
silkələmək – трясти
suvarmaq – поливать

**Ş**

şahzadə – принц (принцесса)
şapalaq – пощечина
şəfəq – заря, рассвет
şəhadətnamə – свидетельство
şərq – восток
şıltaqlıq – каприз, неожиданная прихоть

Çap üçün deyil

şirinlik – здесь: подарок
şüa – луч

**T**

taqət – сила
tarla – поле
tay-tuş – ровесник
təbəssüm – улыбка
tədbir ilə – спланированно
təhlükə – опасность
təmənnasız – безвозмездно
təmkinlə – сдержанно
təmsil – басня
təndir – тендир (печка)
tər – свежий
təravətli – свежий
tərifli – хваленые
tərlan – сокол
tərsinə – наоборот
təsirlənmək – расчувствоваться
təxminən – приблизительно
təvazökarlıq – скромность
təzə-tər – совсем свежий
tin – угол
ting – саженец
torba – мешок
toxunulmaz – неприкасаемый
toy-büsat – роскошь, торжество
töhfə – подарок
törəmək – порождаться
tumurcuqlar – почки
türbə – мавзолей
tütək – свирель

**U**

ucaltmaq – возвышать
uğurlu – удачный
uzaqlaşmaq – отдалиться

**Ü**

üfürmək – дуть
üzüaşağı – вниз, книзу
üzv – член

**V**

vacib – важный
varlıq – существо
vəfalı, sadiq – верный
vəhşi – дикий

**Y**

yan-yana – рядом
yan-yörə – вокруг
yarıtmaz – неудовлетвори-
тельный
yavru – дитя
yazbaşı – ранняя весна
yeganə – единственный
yemədikləri – несъеденные
yeriş – походка
yerləşmək – расположиться
yırtıcı – хищный
yırğalamaq – качать, трясти
yoğrulmaq – здесь: создать
yormaq – утомлять
yönəltmək – направить
yumbalanmaq – скатиться
yumruq – кулак

**Z**

zalım – злодей
zəfər – победа
zəkalı – умный
zəmi – нива
zərif – нежный
zinət – украшение
ziyan – вред

Çap üçün deyil

## MÜNDƏRİCAT


§1. BİRİNCİ DƏRS........................................5
SEVİMLİ MƏKTƏB........................................8
§2. MÜƏLLİMİN SEVİNCİ........................................10
SEVİRİK SƏNİ BİZ........................................12
§3. ƏSL HƏQİQƏT........................................13
YOLDAŞLIQ KÖMƏYİ........................................17
§4. AY AMAN!.. SEL APARDI!........................................19
QIZ MƏKTƏBİNDƏ........................................22
§5. VƏTƏN NƏDİR?........................................25
AZƏRBAYCAN........................................27
§6. ŞİRVANŞAHLAR SARAYI (1-ci hissə)........................................29
ŞİRVANŞAHLAR SARAYI (2-ci hissə)........................................32
§7. "SAATSAZ" QARĞA........................................35
CANLI SAAT........................................38
§8. ÖZÜNÜZÜ YOXLAYIN........................................39
PAYIZ........................................42
§9. GÖYÇƏK FATMANIN NAĞILI........................................43
HƏR KƏSİN YERİŞİ VAR........................................48
§10. QIZIL VƏ İLAN........................................49
QONAQ........................................52
§11. BABA OTAĞI........................................53
AD GÜNÜNÜN TARİXÇƏSİ........................................56
§12. ARILIQDA........................................58
AYI VƏ ŞİR........................................61
§13. ŞAHZADƏ VƏ BALACA ÇOBAN (1-ci hissə)........................................63
ŞAHZADƏ VƏ BALACA ÇOBAN (2-ci hissə)........................................65
§14. TANIŞLIQ........................................67
DÖRD ARZU........................................69
§15. QIŞIN SOVQATI........................................71
ÖZÜNÜZÜ YOXLAYIN........................................73
§16. TƏZƏ İLDƏ........................................75
GÖYƏRÇİN VƏ QARIŞQA........................................78


Çap üçün deyil

§17. ƏSL DOST....................................................................................80
ŞƏHİDLƏR XİYABANI.........................................................................82
§18. QAÇAQ NƏBİ..............................................................................84
ƏL...........................................................................................................87
§19. XOŞBƏXTLİK BARƏSİNDƏ..........................................................89
AZ DANIŞMAĞIN GÖZƏLLİYİ..............................................................92
§20. LEYLƏK YUVASI (1-ci hissə)..........................................................94
LEYLƏK...................................................................................................96
§21. LEYLƏK YUVASI (2-ci hissə)..........................................................97
“QIRMIZI KİTAB”.................................................................................100
§22. NİGARIN SEVİNCİ.........................................................................103
ÜRƏK XATİRƏSİ...................................................................................106
§23. HƏDİYYƏ......................................................................................107
YAZIN HƏDİYYƏSİ................................................................................109
§24. BƏNÖVŞƏ......................................................................................111
AĞACI NECƏ SUVARIRLAR...................................................................113
§25. DAĞLAR.........................................................................................116
ÖZÜNÜZÜ YOXLAYIN.............................................................................118
§26. APRELİN BİRİ GƏLƏNDƏ..............................................................120
SÖZ........................................................................................................122
§27. BALACA BAĞBAN(1-ci hissə)........................................................124
MEŞƏNİN QORXUSU..............................................................................127
§28. BALACA BAĞBAN (2-ci hissə).......................................................128
AZƏRBAYCANIN “QIRMIZI KİTAB”I....................................................131
§29. RƏHBƏRİN SEVDİYİ GÜLLƏR......................................................134
BİRİ GÜNƏŞ, BİRİ HEYDƏR.................................................................135
§30. NEFT DAŞLARI..............................................................................137
MUZEYLƏR............................................................................................139
§31. AXMAQ QURBAĞA VƏ ZANBAQ...................................................141
İKİ KİTAB..............................................................................................144
§32. ÖZÜNÜZÜ YOXLAYIN...................................................................147
İL ƏRZİNDƏ ÖYRƏNDİKLƏRİNİZ.........................................................150
SÖZLÜK..................................................................................................154

Çap üçün deyil